Bu bir xalq qəzetidi
ƏDALƏT

## Mehriban Əliyevadan 31 Mart soyqırımı ilə bağlı paylaşım



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi ”Instagram” səhifəsində 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.**

Adalet.az -ın məlumatına görə, paylaşımda deyilir: ”Bu gün Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin mart ayında törədilmiş vəhşiliklər bütün bəşəriyyətə və insanlığa qarşı qanlı cinayətdir. İllər keçsə də biz Azərbaycan xalqının məruz qaldığı etnik təmizləmənin, terror və soyqırımı aktlarının, ona amansızcasına divan tutulmasının ağrı-acısını heç vaxt unutmayacağıq. Faciənin günahsız qurbanlarının nurlu xatirəsini dərin hüznlə yad edir, Uca Tanrıdan bütün şəhidlərimizə rəhmət diləyirəm”.

## XİN Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb

Bax: səh.2

## Nazir: "Ermənistanın cəzasızlığına son qoyulmalıdır"



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tvitterdə paylaşım edib.**

Adalet.az-ın məlumatına görə, nazir qeyd edib:

”Mart qırğınının qurbanlarını xatırlayaraq bu günədək azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətini, insanlığa qarşı cinayətləri və Ermənistanın tərəfindən gerçəkləşdirilən etnik təmizləməni pisləyirik və bu cür qeyri-insani cinayətlərin təkrarlanmaması üçün Ermənistanın cəzasız qalmasının dayandırılmasının vacibliyini bir daha vurğulayırıq”.

## "Azərbaycan Dəmir Yolları"nda iclas keçirilib

**"Azərbaycan İnvestisiya Holdinqi"nin yaradılması ölkədə həyata keçirilən davamlı struktur islahatlarının iqtisadiyyatın səmərəliliyinin daha da artırılmasına töhfə verəcək.**

"Azərbaycan Dəmir Yolları" QSC-dən Adalet.az -a verilən məlumata görə, bunu QSC-nin sədri Cavid Qurbanov qurumda keçirilən kollegiya iclasında çıxış edərkən deyib.



Cəmiyyət sədri dövlət müəssisələrinin fəaliyyətində, eləcə də dəmir yolu sektorunun inkişafı və səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi üçün birgə səylərin vacibliyini vurğulayıb. Prezident İlham Əliyevin 2021-ci il, fevralın 12-də imzaladığı sərəncamla QSC-nin də Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verildiyini deyən C. Qurbanov vurğulayıb ki, bütün bu addımlar dövlət şirkətlərinin və müəssisələrinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edir. Bu qərarlar həyata keçirilən investisiya proqramlarının iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlığının yaxşılaşdırılmasına təsirini göstərəcək.

İclasda dövlət başçısının sərəncamlarında nəzərdə tutulan məsələlərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə müvafiq struktur bölmələrə aidiyyatı üzrə göstərişlər verilib. Hüquq, maliyyə, insan resursları, beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirilmiş işlər və qarşıda duran vəzifələr barədə hesabatların hazırlanması və təqdim edilməsi tapşırılıb. Sədr "Azərbaycan Dəmir Yolları" QSC kollektivinin üzərinə düşən öhdəlikləri bundan sonra da layiqincə yerinə yetirəcəyinə və qarşıda qoyulan tapşırıqların vaxtında və dəqiq həyata keçiriləcəyinə əminliyini ifadə edib.

## TÜRK JURNALİSTLƏRİ MÜKAFATLANDIRDIQ, BƏS ÖZÜMÜZÜNKÜLƏR?!

*44 günlük müharibədə öz həyatlarını riskə qoyaraq cəbhənin ən ağır nöqtələrindən reportajlar hazırlayan, məqalələr yazan Türkiyə jurnalistlərini çox haqlı olaraq mükafatlandırdıq. Hamısını təbrik edirəm. Xüsusilə də Fulya xanımı.*

*Amma hələ müharibə başlamamışdan səngərlərdə olan, müharibə zamanı da heç kimdən dəstək görmədən Murovdan tutmuş Laçına qədər, Şuşaya qədər döyüşlərdən reportajlar hazırlayan öz jurnalistlərimizə niyə qiymət vermədik? Deyə bilərsiniz ki, bu, onların Vətən borcuydu. Bu, biz jurnalistlərin hamısının Vətən borcudur, amma biz hamımız güllənin altına girdikmi, səngərdə yatdıqmı? Yox! Mərminin səsini eşitdikmi? Təbii ki, yox!*



*Amma güllənin altına girənlər oldu, həyatlarını əsgərlərimiz kimi qurban vermək istəyənlər oldu.*

*Bəs, onları kim mükafatlandıracaq? Söhbət hansısa qəzetlərin və ictimai təşkilatların verdiyi fəxri fərmanlardan, ya təşəkkürnamələrdən getmir. Söhbət xidmətlərinə görə dövlətin verdiyi ödüllərdən gedir.*

*Əksinə, müharibə qurtarandan sonra belələrini heç işğaldan azad olunmuş ərazilərə buraxmadılar. Məsələn, Səxavət Məmməd, Elgün və sair və ilaxır.*

*Özünü sevməyən özgəni sevməz!*

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 34 (5866) 1 aprel 2021-ci il
Qiyməti 30 qəpik

## AFFA-nın RƏHBƏRLİYİNƏ

**De Byaziyə 2 milyon verib gətirmişik. Bəlkə elə isti-isti də 2 milyon verək çıxıb getsin? Gətirilmə məşqçiyə ümid olan, Serbiya cəhənnəm, Qətərə də 1:2 uduzar.**



Deyir ki, biz Albaniyada 4 ildən sonra dünya çempionatına gedə bildik. Deməli, biz hələ 4 il də De Byazinin nazını çəkəcəyik.

Amma Qurban Qurbanovun 6 ay nazını çəkə bilmədik.

Allahın qəzet redaktorları müxbirlərlə müqavilə bağlayanda şərt qoyur ki, ayda mənə bu qədər oxunaqlı yazı verməsən işdən çıxarılacaqsan.

Amma xaricdən gətirilən məşqçilərin qarşısında belə bir şərt qoyulmur.

Ona görə də foqtslar-pokslar zəmi sovulsa da bildirçinliklərində qalıb kef edirlər. Hətta bizi şantaj edirlər.

**Görün komandanı nə günə salıblar ki, camaat sosial şəbəkələrdə yazır ki, bəlkə 28 (bir takım) futbolçu yerinə 28 xüsusi təyinatlı salaq və məşqçiliyi də Hikmət Mirzəyevə verək?**

# Ərdoğan Şuşanı ziyarət edəcək



**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 gün davam edən müharibə ilə 30 illik işğala son qoydu. Qarabağ ana vətənlə təkrar qucaqlaşdı.**

**Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

**Onun sözlərinə görə, Qarabağ bölgəsində 67 məsciddən 63-ü dağılıb. Eyni zamanda, kilsələr də tar-mar edilib.**

**Ərdoğan xatırladıb ki, bu gün həm də azərbaycanlı qardaşlarımızın ermənilər tərəfindən soyqırımına məruz qaldığı bir gündür: ”Qətl edilən on minlərlə qardaşımızı rahmətlə yad edirik. Qarabağdakı türk mirasının qorunması üçün Azərbaycanın yanında olmağa davam etməyimiz çox önəmlidir. Bütün məcburi köçkünlərin tezliklə qayıtmasını diləyirəm”.R.T.Ərdoğan, həmçinin qeyd edib ki, Ramazan bayramı sonrası Prezident İlham Əliyevlə birgə Şuşanı ziyarət etmək niyyətindədir.**

## Azad olunmuş ərazilərə keçməyə cəhd göstərən daha 13 nəfər saxlanıldı

**Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş, lakin minalardan tam təmizlənməmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan Adalet.az-a verilən məlumata görə, Füzuli RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər zamanı polis postlarından kənar, alternativ yollarla işğaldan azad edilmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən 13 nəfər Beyləqan rayon sakini 5 avtomaşınla birlikdə rayonun Alxanlı kəndi ərazisində müəyyən edilərək saxlanılıb.

**Həmin şəxslər saxlanıldıqdan sonra polis şöbəsinə gətirilmiş, müvafiq araşdırmalarla onların barəsində protokollar tərtib edilərək hüquqi qiymət verilməsi üçün rayon məhkəməsinə təqdim edilib.**

## GÜRCÜLƏR VƏ ERMƏNİLƏR...



*Stadionların qapısını açdılar və öz komandalarına dəstək vermək üçün azarkeşləri buraxdılar içəri.*

*Bakı Olimpiya Stadionu 80 min tamaşaçı tutur. Biz ora heç olmasa bir 15-20 min azarkeş buraxa bilməzdikmi?*

*Niyə ÜST-ün sözü bizdə keçir, Gürcüstanda, Ermənistanda, Rusiyada, Ukraynada keçmir?*

*Bu ÜST-ün nazıyla çox oynayırıq ha, Kərbəlayı!*

## Müdafiə Nazirliyi: Hərbi qulluqçu göldə boğularaq ölüb



**Martın 30-da Xocavənd rayonu ərazisində xidmətdən kənar vaxtı göldə çimməyə cəhd göstərən Azərbaycan Ordusunun hərbi qulluqçusu gizir Əliyev Heydər Rövşən oğlu boğularaq ölüb.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Faktla bağlı araşdırma aparılır.

## Azərbaycanda daha bir dəhşətli qətl

**Hacıqabulda 35 yaşlı qadın qətlə yetirilib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə Hacıqabul rayonunun Muğan kəndində qeydə alınıb.**

Kənd sakini, 1986-cı il təvəllüdlü Rəsulova Fəxriyyə Feyruz qızı qaynı oğlu tərəfindən bıçaqlanaraq öldürülüb. Hadisənin qısqanclıq zəminində törədildiyi deyilir.

Hazırda qadının meyiti müayinə olunması üçün Şirvan morquna yerləşdirilib. Qətli törədən Hacıqabul rayonunun Muğan kənd sakini, 1987-ci il təvəllüdlü Axundov Elvin Arif oğlu saxlanılıb. Məlumata görə, E.Axundov dul qalan əmisi arvadını 12 yaşlı oğlunun gözü qarşısında çoxsaylı bıçaq zərbələri ilə qətlə yetirib. Faktla bağlı Hacıqabul Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

## Ölkədə 29 yanğın olub, 4 nəfər xilas edilib




*Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir. Nazirlikdən Adalet.az-a verilən məlumata görə, "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 29 yanğına çıxış, 3 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib. Ümumilikdə, ötən sutka ərzində köməksiz vəziyyətdə qalmış 4 nəfər xilas edilib.*

## DEYİRƏM NƏ YAXŞI APRELİN 1-i VAR

***Bir gün yalan danışmağa görə heç kimi günahlandırmırlar, ürəyimizi boşaldırıq. Yoxsa 364 gün doğru danışmaqdan yoruluruq.***

## Bakının mərkəzi küçələrində parklanma qadağan edildi

Bax: səh.7

## Səxavət Məmməd: Bax niyə cəzalandırılsınlar?

**3 hərbçinin dünyasını dəyişməsi ilə bağlı hərə bir şey yazır. İndi də hamı bir ağızdan deyir ki, dezinformasiya yayırmışlar, cəzalandırılsınlar.**

Bax niyə cəzalandırılsınlar? Ölüm faktları başqa-başqa tarixlərdə və başqa-başqa istiqamətlərdə olublar. İnformasiyanı kim yaymalıdır? Müdafiə Nazirliyi, DSX. Bir şeyi anlamaq lazımdır ki, ordu ən açıq qurumdur. Baş vermiş ən xırda hadisənin gizli qalması bir əsgərin əlinə telefon keçməsinə, MAXE-nin kiməsə zəng etməsinə, zabitin evinə gəlməsinə qədərdir. İnformasiyanı yayanı asaq, kəsək. Bu informasiyanı yaymalı olan qurum(lar)ı nə edək? Hadisə baş verəndən sonra rəsmi məlumat yayılsa, bu qədər iddialar ortaya çıxar? Həssas dönəmdir. Rəsmi qurumlar bilməlidir ki, informasiyanın gecikməsi hansı fəsadlara yol aça bilər.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## QƏDİR RÜSTƏMOVUN OV MACƏRALARI VƏ YOLUMUZUN ÜSTÜNƏ ÇIXAN QARA PİŞİK

(II yazı)



**Dorik adlı bir idman müəllimi vardı, erməni idi. Şəhərdə az-çox hörməti də vardı, həm də ovçuydu. Biz iki əmioğlu çəpər üstə dava edirik, amma ermənilər yeddi arxa dönənlərini tapıb bir-birilərinə dayaq dururlar. Şarl Aznavurun altıncımı-yeddincimi babası erməni idi, qazandığını tökürdü Ermənistana, Qarabağa. Amma Rober Osseyn bizə müharibə vaxtı və ya müharibədən sonra qaçqınlarımıza bir şirniquş göndərməməsi cəhənnəm, heç bir dəfə də xeyirimizə bir söz söyləmədi.**

**Nə isə... Bu Dorikin İtaliyada yeddi arxa dönənindən bir qohumu vardı. Tez-tez Dorikə müxtəlif hədiyyələr göndərirdi. Bir dəfə də bir ov tulası göndərmişdi. O da fors eləmək üçün Qədiri qonaq çağırır və tulasını nümayiş etdirir. O tulanı mən də görmüşdüm. Doğrudan da qeyri-adi bir cins idi.**

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ



Deyir bostanı belləyirdim.

Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum.

Təzədən belləməyə davam edirəm.

Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

# İlham Əliyev Türk Şurasının Zirvə görüşündə çıxış etdi



**Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilir.**

Adalet.az xəbər verir ki, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq iştirakçıları salamlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.

Tədbirdə, həmçinin Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev iştirak edirlər.

# Kamran Əliyev iclas keçirdi: Göstərişlər verildi



**Martın 31-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, iclasdan öncə 1918-ci ilin mart - aprel aylarında Bakıda və Azərbaycanın müxtəlif bölgələrində erməni daşnakları tərəfindən törədilmiş soyqırımı aktı zamanı 50 mindən çox azərbaycanlının amansızcasına qətlə yetirilməsi, minlərlə insanın öz doğma torpaqlarından didərgin salınması, onlarla şəhər və kəndlərin yandırılması, milli-mədəni abidələrin dağıdılaraq məhv edilməsi qeyd edilməklə miqyası və qəddarlığına görə bəşəriyyətə, insanlığa qarşı törədilmiş dəhşətli faciənin qurbanları ehtiramla anılıb və onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Diqqətə çatdırılıb ki, məhz ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 80 il sonra erməni millətçilərinin hərəkətlərinə ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət verilməklə 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Kollegiya iclasında həmçinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən ilin sentyabr ayından başlayaraq işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda apardığı haqq mübarizəsində əldə etdiyi möhtəşəm qələbənin uzun illər ərzində davam edən münaqişəyə son qoyaraq ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratdığı vurğulanıb.

Qeyd edilib ki, Vətən müharibəsinin Azərbaycanın tarixi qələbəsilə başa çatmasından qısa müddət keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə başlanmış möhtəşəm quruculuq işləri, həmin bölgələrin yenidən həyata qaytarılması ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarının daha da möhkəmləndirilməsinə xidmət etməklə regionda sabitliyin və təhlükəsizliyin inkişafına şərait yaradacaq.

Torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçılarının Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduqları bildirilib.

İclasda həmçinin, vətəndaşlarımızın sağlamlığının qorunması məqsədilə yeni növ koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilib.

Kollegiya iclasında prokurorluq orqanlarına işə qəbulla bağlı keçirilmiş müsabiqənin ilkin nəticələri və bununla əlaqədar qarşıda duran vəzifələrə, müvafiq qanunvericilik aktlarının, həmçinin "İşin Təşkili Qaydaları"nın təkmilləşdirilməsinə dair Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov məruzələrlə çıxış ediblər. Aparılmış ilkin müzakirələr ətrafında Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev və digər Kollegiya üzvləri çıxış edərək təkliflərini bildiriblər.

Kollegiya iclasında qeyd edilənlərlə yanaşı gündəlikdə duran digər məsələlər üzrə də faydalı müzakirələr aparılmaqla müvafiq qərarlar qəbul edilib.

**İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli islahatların reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında, o cümlədən qanunsuz erməni birləşmələri tərəfindən törədilmiş terrorçuluq, sülh və insanlıq əleyhinə cinayətlər, müharibə, həmçinin iqtisadi və ekoloji cinayətlər üzrə bütün təqsirli şəxslərin beynəlxalq müstəvidə məsuliyyətə cəlb edilməsi üçün prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.**

# XİN Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb.**

31 mart, 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qanlı qırğının qurbanlarının xatirəsinin anıldığı Azərbaycanlıların Soyqırımı günüdür.

103 il bundan öncə, 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda xüsusi qəddarlıqla kütləvi qırğınlar törədilib və on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib. Bu hadisələrin qurbanlarının xatirəsini anır və gələcəkdə bu kimi faciələrin qarşısının alınması üçün bu yaddaşın qorunub saxlanılmasını vacib hesab edirik.

Qafqazın Fövqəladə Komissarı, etnik erməni olan Stepan Şaumyan etiraf edirdi ki, Azərbaycanlılara qarşı olan qırğınlarda Bakı Sovetinin 6000 və Daşnaksutyun partiyasının 4000 silahlı əsgəri iştirak edib.

Azərbaycanlılara qarşı törədilən soyqırım Bakı ilə yanaşı, Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qars bölgələrini də əhatə etdi. 1918-ci ilin ilk beş ayı ərzində təkcə Qubada xüsusi vəhşiliklə 16.000-dən artıq insan öldürüldü, 167 kənd məhv edildi. Quba rayonu ərazisində 2007-ci ildə aşkar olunmuş kütləvi məzarlıq ermənilərin törətdiyi qeyri-insani əməllərin əyani sübutunu təşkil edir.

1918-ci ilin mart qırğınları radikal millətçi ermənilərin azərbaycanlılara qarşı irqi ayrı-seçkilik və etnik təmizləmə siyasəti əsasında əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasəti idi.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün 1918-ci ildə Fövqəladə İstintaq Komissiyası yaratmış, Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Müxtəlif millətlərin, o cümlədən ruslar, yəhudilər, polyaklar, gürcülər və hətta ermənilər olmaqla, həmin dövrün ən yaxşı hüquqşünaslarının təmsil olunduğu Fövqəladə İstintaq Komissiyası sübutlar əsasında dinc əhaliyə qarşı müxtəlif cinayətlərə görə təqsirləndirilən 194



nəfər barəsində cinayət işi açdı və törətdikləri cinayətlərə görə Bakıda 24 və Şamaxıda təxminən 100 nəfər həbs olundu.

Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırıldı, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alındı. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi.

Azərbaycanlıların Soyqırımı Gününün yad edilməsi keçmişdə və müasir mərhələdə azərbaycanlıların qırğın və etnik təmizləmələrə məruz qalması barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayır.

Üzərindən bir əsrdən çox zamanın keçməsinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu 30 ilə yaxın müddətdə hərbi işğal altında saxlayan Ermənistan Azərbaycanlılara qarşı etnik zəmində cinayətlər törətmək siyasətini davam etdirdi. 30 ilə yaxın davam edən işğal zamanı Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində yüz minlərlə azərbaycanlının etnik təmizlənməsini həyata keçirdi.

Ermənistan, 1992-ci ilin fevralında Xocalı soyqırımı da daxil olmaqla, soyqırım aktları, çoxsaylı müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətdi. Ermənistan silahlı qüvvələri 2020-ci ilin 27 sentyabr tarixində Azərbaycana qarşı növbəti hərbi təxribata cavab olaraq başlanılan hərbi əməliyyatlar zamanı Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər şəhərlərinin dinc insanlarını məqsədyönlü şəkildə raket hücumlarının hədəfinə çevirdi.

Beləliklə də, Ermənistan bir əsr öncəki Mart qırğınının xatirələrini geri qaytardı.

**Mart qırğınının günahsız qurbanlarını xatırlayaraq, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı bu günədək törədilən soyqırım, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü siyasəti qəti şəkildə pisləyir və bu qəbildən olan qeyri-insani cinayətlərin qarşısının alınması və gələcəkdə təkrarlanmaması üçün Ermənistanın cəzasızlığına son qoyulmasının vacibliyini vurğulayırıq. Ermənistanı öz beynəlxalq öhdəliklərinə riayət etməyə çağırırıq. Azərbaycan, öz növbəsində sülhü təmin etmək və cəzasızlığa son qoymaq üçün bütün lazımı hüquqi tədbirləri görəcəkdir.**

# *Aqil Abbas:* "Ermənistan öhdəliklərini yerinə yetirməyib"



**Bu günlərdə Ermənistanın Ədliyyə naziri David Arutyunyan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinə səfər edib. Ermənistan kütləvi informasiya vasitələrinin məlumatına görə, D.Arutyunyan qonarma rejimin başçısı Arayik Arutyunyanla görüşüb.**

Bununla paralel Ermənistan hökumətinin Dağlıq Qarabağa maliyyə yardımı da göstərdiyi bildirilir.

Bundan əvvəl isə tanınmayan qurumun "parlamenti" rus dilini ikinci "rəsmi dil" kimi tanımışdı.

Məlumdur ki, Azərbaycan hakimiyyəti Ermənistan rəsmilərinin onlarla razılaşmadan Dağlıq Qarabağa səfər etmələrini sərt tonda qınayır və bunun sülh danışıqlarına mane olduğunu bildirirdilər.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aqil Abbas "Turan" agentliyinə mövzu ilə bağlı bunları deyib: "Necə olur ki, ermənilər Yerevandan Xankəndinə rahat gedə bilir, mən isə Şuşaya Ağdamdan rahat 37 kilometrlik yolla yox, uzun bir yolla getməliyəm?".

Deputatın fikrincə, yenidən danışıqlar olacaq və problem mərhələli yolla həll olunacaq: "Ermənistan öz üzərinə götürdüyü öhdəliklərini, hələlik, yerinə yetirməyib. Ona görə də problemlər yaranıb".

Komitə üzvü hesab edir ki, Azərbaycan Rusiyanın qarşısında məsələni ciddi qoymalıdır: "Ermənistanın nə ixtiyarı var ki, Azərbaycanın ərazisindəki hansısa şəhərə yatırım etsin?". Deputatın fikrincə, Azərbaycan heç vaxt dinc əhalini bombalamayıb: "Onlar 10 min mərmini Tərtərə atıblar, biz isə Xankəndində, Ağdərədə olan yaşayış evlərinin birinə də atmamışıq. İndi Nikol Paşinyan o pulu hara göndərir, nəyi təmir edib tikəcək? Digər tərəfdən, ruslar da orada qəsəbə tikir. Bu, beynəlxalq qanunlara ziddir".

**A.Abbas qeyd edib ki, Azərbaycan ərazisində yalnız Azərbaycan razılığı ilə nəyisə tikmək olar: "Ağdərədə elə kəndlər var ki, orada heç vaxt ermənilər yaşamayıb. İşğaldan sonra ora gəlib yaşamağa başlayıb. 10 noyabr razılaşması imzalanandan sonra onlar oradan çıxıb getmək istəyirdi, çünki hamısı azərbaycanlıların evlərində yaşayır. Onlara isə deyilib qayıdın yerinizə. Bəs ora qayıdan azərbaycanlılar harada yaşayacaq? Ona görə də bu problemlər növbəti danışıqlarda həll olunmalıdır".**

# "APA TV-nin bağlanması xəbəri yalandır" - Lent.az-ın rəhbəri dəyişdi

**Son günlər sosial mediada APA TV-nin bağlanacağı və qurumun tərkibinə daxil olan Lent.az saytında dəyişikliklərin olacağına dair məlumatlar yayılıb.**

Adalet.az xəbər verir ki, məsələ ilə bağlı Yenisabah.az-a açıqlamasında "APA Group"un baş direktoru Vüsalə Mahirqızı yayılan məlumatların əsassız olduğunu deyib. O, APA TV-nin fəaliyyətini davam etdirdiyini bildirib:

"Yayılan məlumatlar tamamilə yalandır.

Açığı, bu məlumatları kimin yaydığını mən də bilmirəm, lakin bu məlumatlar yalandır. APA TV bağlanmır, belə bir şey yoxdur. Sadəcə, bir neçə verilişin fəaliyyətini dayandırmışıq. Bu internet televiziyasıdır, biz zaman-zaman müşahidələr aparırıq, mövzuları tükənən, sosial şəbəkə istifadəçilərinin daha az rəğbətini görən verilişləri bağlayır, onların əvəzinə yeni verilişlər yaradırıq. APA TV-də bir neçə verilişin fəaliyyəti müxtəlif səbəblərdən dayandırılıb, əvəzinə isə bu aydan bir neçə yeni proqram fəaliyyətə başlayacaq".

V. Mahirqızı Lent.az saytının rəhbərliyindəki dəyişikliyə də münasibət bildirib:

"Lent.az-ın baş redaktoru Qabil Abbasoğlu sabahdan baş redaktor vəzifəsindən öz istəyi ilə ayrılır. Hələ yeni il başlayandan Qabil bəy yorulduğunu, buna görə də işdən ayrılmaq istədiyini bildirmişdi. Bir müddət biz onunla davam etdik, mart ayının 1-də işdən ayrılmaq istədiyi ilə bağlı ərizə ilə müraciət etdi, mən də hörmətlə yanaşdım.



Qabil müəllim çoxillik dostumdur, hazırda da belədir, bu gün də işindədir. Gələcəkdə yəqin ki, başqa bir proyektdə biz onunla birlikdə işləyə bilərik. Lent.az-ın yeni baş redaktoru sabah kollektivə təqdim olunacaq".

**Əldə etdiyimiz xəbərə görə, Lent.az-a APA-nın redaktoru Hafiz Heydərov rəhbərlik edəcək.**

*Aqil ABBAS*

# QƏDİR RÜSTƏMOVUN OV MACƏRALARI VƏ YOLUMUZUN ÜSTÜNƏ ÇIXAN QARA PİŞİK

**(II yazı)**

**Dorik adlı bir idman müəllimi vardı, erməni idi. Şəhərdə az-çox hörməti də vardı, həm də ovçuydu. Biz iki əmioğlu çəpər üstə dava edirik, amma ermənilər yeddi arxa dönənlərini tapıb bir-birilərinə dayaq dururlar. Şarl Aznavurun altıncımı-yeddincimi babası erməni idi, qazandığını tökürdü Ermənistana, Qarabağa. Amma Rober Osseyn bizə müharibə vaxtı və ya müharibədən sonra qaçqınlarımıza bir şirniquş göndərməməsi cəhənnəm, heç bir dəfə də xeyirimizə bir söz söyləmədi.**

**Nə isə... Bu Dorikin İtaliyada yeddi arxa dönənindən bir qohumu vardı. Tez-tez Dorikə müxtəlif hədiyyələr göndərirdi. Bir dəfə də bir ov tulası göndərmişdi. O da fors eləmək üçün Qədiri qonaq çağırır və tulasını nümayiş etdirir. O tulanı mən də görmüşdüm. Doğrudan da qeyri-adi bir cins idi.**

**İtin pasportunu da Qədirə göstərir. Deməli, pasportda itin də yeddi arxa dönəninin adı, nə bilim cinsi, deyəsən, hətta doğum tarixi də vardı.**

**Qədir pərt olur, amma özünü o yerə qoymur. Deyir ki, Dorik bir öz pasportunu da götür görüm. Təbii ki, Dorikin pasportunda adıdı, atasının adıdı, bir də doğum tarixidi. Pasportları yanaşı qoyub deyir:**

**- Dorik, itiyin nəsli sənin nəslindən nə qədər qədimiymiş?!**

**Amma Qədir heç vaxt Doriklə ova getmirdi. Dorik yalvarırdı ki, Qədir, bir dəfə mən də sənlə gedim ova, Qədir də deyirdi:**

**- İtin sənin kimi döyül, nəsilli-köklü itdi, istiyirsən ver onu aparım.**

**Qədirinki heç kimlə tutmurdu, bircə Tahir abidən başqa. O dövrlər "abi" sözü yox idi. Mən indi yazanda "abi" yazıram, çünki Ağdamda hamı ona böyük qardaş kimi baxırdı. O da Qədir kimi çox danışmağı sevməzdi. Ona görə də Qədirlə onunku tuturdu, çünki iki-üç saat oturub balıq tutardılar, dinməz-söyləməz. Xallı Şahinlə dostuydu, amma həmişə onu sancardı. Çox cavan öldü, Ağdamsızlığa dözmədi.**

**Ağdam işğal olunandan sonra Qədir day toylara getmirdi, daha dəqiq desək, toy aparmırdı. Yaxın dostları öz toylarına qonaq kimi dəvət edəndə xahiş-minnətdən sonra bir ağız oxuyardı, amma könlü istəsə. Deyəsən, day heç ova da getmirdi.**

**Bir gün Xallı Şahin dedi ki, gedək Qədiri tapaq, aparaq bir ova, könlünü açaq. Getdik Oğuza, Qədiri tapdıq. Qayıdanda Zərdab yoluyla qayıtdıq. Körpünü keçəndən sonra Yastı yol adlı bir kənd var. Əsas küçəsi kəndi iki yerə bölür. Kür tərəfi Zərdabındı, alt tərəfi Ağcabədinin. Deməli, qardaşlardan biri zərdablıdı, biri də ağcabədili. O vaxt bu kəndi hansı axmaq bölüb, amma sonra da heç bir ağıllı buna bir əncam çəkməyib.**

**Xallı Şahinin həmin kənddə Paşa adlı bir dostu var, elə hamımız onun xətrinə çox istəyirik. Xətirli-hörmətli kişidi. Elə olub ki, iki maşın adam gecə evinə qonaq getmişik durub qoyun kəsib, yemək-içmək, sonra da hamı yıxılıb yatıb orda. Kəndin Ağcabədi tərəfində yolun qırağında bir yeməkxanası var. Maşınları orda saxladıq. Bizi elə qarışladı ki, elə bil yüz ildi görmür. Səhər-səhər idi, bir çay içdik, nə qədər elədi oturmadıq. Şahin dedi ki, sən axşama hazırlıq gör, həm balığımız olacaq, həm də sənə bu dəfə qaz vurub gətirəcəm.**

**Paşa kişi:**

**- Ə, Tulaya samovar aparmazlar. Kürün qırağında yaşayan mənəm, amma vura bilsəniz qaz demirəm, üç-dörd dənə turac gətirsəniz sizə yaxşı bir plov dəmlədərəm. Özü də yeməkxanada yox, evdə. Qədir yeməkxana qonağı deyil.**

**Qədir həmişəki kimi dinib-danışmırdı, çox fikirli idi. Hardan ağlına gəldisə birdən qəfil soruşdu:**

**- Məllim, görən Dorikin iti durur?**

**Çaşdım qaldım.**

**- Nə bilim, vallah, Qədir. Yəqin ki, durmuş olar.**

**Köpəyoğludan zəhləm getsə də, amma itindən yox idi.**

**Bir kəndin içindən keçəndə yolumuzun üstünə bir qara pişik çıxdı. Hamımız dilxor olduq. Dedik ki, bu gün bəxtimiz gətirməyəcək.**

**Qədir gülüb özündən getdi və dedi:**

**- Ə, o pişiyin bəxti gətirmiyəjey ey, qabağına biz çıxmışıq. Evi-eşiyi dağılmış, yurdu-yuvası boş qalmış, çöllərə səpələnmiş adamlarıq, çıxmışıq yazığ pişiyin qabağına.**

**Getdik Ağgölə. Ya Qədirin ov həvəsi yox idi, ya da qara pişikdən arxaç keçdi, heç nə vura bilmədik. Kor-peşman qayıdırıq. Bir kəndin içindən keçəndə gördük yolun kənarında iyirmi-otuz ev qazı otlayır. Qədirlə də Tahir abi öndəki maşındadı, keçib gediblər.**

**Xallı Şahin çığırdı:**

**- Ə, saxla, saxla!**

**Maşını saxladıq. Xallı Şahin tez maşından düşdü, güllə ilə iki qazı vurdu. Kənd camaatı güllə səsinə axışdılar yola və başladılar Xallı Şahini qovalamağa.**

**Balaqanov ki (bilməyənlər üçün: İlf-Petrovun "Qızıl dana" əsərindəki qəhrəmanlardan biri) necə oğurladığı qazı qoltuğuna vurub qaçır və camaat tökülür arxasınca, Xallı Şahin də qazları vurub qoltuğuna maşına tərəf qaçır, kənd camaatı da arxasınca. Balaqanovdan fərqli olaraq, Şahinin qoltuğunda iki qaz vardı. Balaqanov son anda qazı tullasa da, Xallı Şahin qazları tullamadı, özünü birtəhər maşına saldı:**

**- Çıxdıq aradan!**

**Camaat arxamızca beş-altı daş atsa da, gec idi.**

**Bir az gedəndən sonra gördük ki, Qədirgili maşını saxlayıb bizi gözləyir.**

**- Harda qalmışdınız?**

**Xallı Şahin əllərində iki qaz maşından düşdü:**

**- Qaz vurmuşam.**

**Qədir:**

**- Ə, bunnarkı ev qazıdı.**

**- Noolsun. O boyda kişiyə söz vermişəm ki, qaz vurub gətirəjəm. Deyirsiniz indi onun yanında yalançı çıxeydim?**

**Tahir abi Xallı Şahinlə dost olsa da, o qədər də xoşu gəlməzdi, tez-tez sancardı, bəlkə də çox danışdığına görə. Hətta özündən kiçik qardaşı Rizvana deyirdi:**

**- Şahinlə çox oturub-durduğuna görə səndən də xoşum gəlmir.**

**Tahir abi Xallı Şahini təpədən-dırnağa süzüb dedi:**

**- Şahin, sənin ömründə heç düz danışdığın olub ki?!**

**Ən maraqlısını indi oxuyacaqsınız. Geri qayıdanda gördük ki, yolumuzun üstünə çıxan qara pişiyi həmin yerdəcə maşın vurub.**

**Qədiri yenə gülmək tutdu:**

**- Gördünüz, pişiyin bizə görə bəxti gətirmədi...**

**Gəldik Paşa kişigilə. Yaxşı bir süfrə hazırlamışdı. Plov da dəmlətmişdi. Xallı Şahinin vurduğu qazları görəndə gülməkdən öldü. Dedi ki, ə, Şahin gərək bunu yolub iki gün açıq havada saxlayasan ki, iyisi-qoxusu getsin.**

**Sonra da məlum oldu ki, heç bizə arxayın olmayıb, özü çıxıb kəndin aşağısından dörd dənə turac vurub və turac plovu dəmlədib.**

**Ən pisi o oldu ki, həmin ovdan bir qədər sonra Tahir abini, yəni Axundov Tahiri (ağdamlılar onu "Axundov Tahir" deyə çağırırdılar) itirdik.**

**Qədir Rüstəmov Tahir abidən sonra, ümumiyyətlə, ova getmədi. Söhbət vaxtı səbəbini soruşanda dedi:**

**- Məni ova Tahir dadandırmışdı. Tahirsiz nə ov ey...**

***P.S.** Xoşunuza gəlsə, üçüncünü də yazacam.*

# Hüquqi şəxslərin iştirakı ilə daşınmaz əmlaka sərəncam verilməsinin xüsusiyyətləri

**Müasir və daim yenilənən cəmiyyətimizdə mülki-hüquq münasibətlərinin və mülki dövriyyənin tənzimləməsində notariusların böyük rolu vardır. Notariuslar öz vəzifələrini yerinə yetirərək mülki-hüquq subyektlərinə onların hüquq və vəzifələrini izah edir, bu hüquqların həyata keçirilməsində və qanuni mənafelərinin qorunmasında köməklik göstərir, hüquqi məlumatsızlığın əqd iştirakçılarına vura biləcəyi ziyanın qarşısının alınması üçün notariat hərəkətlərinin nəticələri barədə xəbərdar edir.**

Notariuslar "Notariat haqqında" Qanunun 17-ci maddəsində müəyyən edilmiş notariat hərəkətlərini aparır, o cümlədən, daşınmaz əmlakın sərəncam verilməsi barədə əqdləri təsdiq edirlər.

Mülki Məcəllənin 144.1-ci maddəsinə görə, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir.

Əqdlərin notariat qaydasında təsdiq edilməsi gələcək mülki-hüquqi mübahisələrin yaranmasının qarşısını alır.

Mülki dövriyyədə daşınmaz əmlak obyektlərinə sərəncam verilməsinə dair müqavilələr, yəni daşınmaz əmlakın alqı-satqısı, bağışlanması, dəyişdirilməsi, rentası, ipotekaya qoyulması, icarəyə, kirayəyə verilməsi və digər müqavilələr respublika üzrə aparılan notariat hərəkətlərinin əhəmiyyətli hissəsini təşkil edir.

Daşınmaz əmlaka sərəncam verilməsi barədə əqlərin mühüm hissələrindən birini də hüquqi şəxslərin iştirakı ilə olan əqdlər təşkil edir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 43.1-ci bəndinə əsasən, hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

Hüquqi şəxslərin zəruri əlamətlərindən biri də onun dövlət qeydiyyatından keçməsidir. Hüquqi şəxsin hüquq qabiliyyəti dövlət qeydiyyatına alındığı gündən əmələ gəlir və onun ləğvinin başa çatdığı andan xitam verilir.

Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri), habelə ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər) qurumlar ola bilər.

Hüquqi şəxs bir və ya bir neçə şəxs tərəfindən təsis edilir və təsdiq edildikdən sonra dövlət qeydiyyatına alındığı nizamnamə əsasında fəaliyyət göstərir. Hüquqi şəxsin orqanlarının fəaliyyəti qanunvericiliyə və onun nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

Notariuslar əqddə iştirak edən hüquqi şəxslərin hüquq qabiliyyətini yoxlayırlar.Əqddə iştirak edən hüquqi şəxslərin hüquq qabiliyyətini yoxlayarkən notariuslar hüquqi şəxslərin nizamnaməsi və ya əsasnaməsi ilə tanış olaraq aparılan notariat hərəkətlərinin hüquqi şəxsin onun nizamnaməsi və ya əsasnaməsi ilə veril-



miş hüquqlara müvafiq olub-olmadığını da aydınlaşdırırlar.

Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışa, nizamnaməyə və ya əsasnaməyə əsasən hüquqi şəxsin və ya onun filial və nümayəndəliklərinin rəhbərləri əqd bağlamaq hüququna malikdirlərsə, notariuslar etibarnamə tələb etmirlər. Bu halda yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alınması yoxlanılır.

Hüquqi şəxs seçkili kollegial orqan tərəfindən idarə olunursa, vəzifəli şəxslərin seçilməsi və onlar arasında vəzifə bölgüsü haqqında qərar tələb edilir.

Hal-hazırda notariuslar üçün "Elektron notariat" avtomatlaşdırılmış informasiya sistemində yaradılmış "Vergi ödəyiciləri barədə məlumat" bölməsində vergi ödəyicisinin eyniləşdirmə nömrəsini və ya hüquqi şəxsin adını yazmaqla Hüquqi Şəxslərin Dövlət Reyestri məlumatlarını əldə etmək imkanı yaranmışdır. Müvafiq notariat hərəkətləri aparılarkən informasiya sistemində olan məlumat çap edilərək notariat işinə əlavə edilir. Bunun köməyi ilə hüquqi şəxsin təqdim etdiyi sənədlərdə eyniləşdirmə aparıla bilir.

Bundan başqa,"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin tələblərinə, yeni təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınmasına əməl olunub-olunmamasını yoxlanılır. Daşınmaz əmlaka sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən, notarius əmlaka mülkiyyət hüququnun dövlət qeydiyyatı haqqında müvafiq reyestrdən çıxarışı, tikintisi başa çatdırılmamış daşınmaz əmlaka münasibətdə isə tikili üzərində mülkiyyət hüququnun qabaqcadan qeydiyyatı barədə arayışı tələb edir və əmlakın özgəninkiləşdirilməsi müqavilələri üzrə həmin sənədlərin əslininotariat işinə əlavə edir. "Elektron hökumət" portalında yerləşdirilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlak üzərində sərəncam verildiyi hallarda, çıxarış notarius tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən "Elektron notariat" informasiya sistemi vasitəsilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq real vaxt rejimində əldə edilir. Həmçinin, notariusa daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri əsasında daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış mülkiyyətçi (hüquqi şəxs) və ya onun nümayəndəsi tərəfindən təqdim edilir.

Hüquqi şəxsin mülkiyyətində olan daşınmaz əmlaka sərəncam verilməsi hüquqi şəxsin nizamnaməsində başqa hal nəzərdə tutulmayıbsa,hüquqi şəxsin iştirakçılarının (təsisçilərin, payçıların, səhmdarların, üzvlərin) ali orqanının - ümumi yığıncağının, Direktorlar şurasının (müşahidə şurası) qərarı,bir iştirakçı (təsisçi, səhmdar) olduqda təkbaşına qərar notariusa təqdim olunmalıdır. Qərarda hüquqi şəxsin əmlakının dəyəri və hansı qaydada özgəninkiləşdirilməsi nəzərdə tutulur.

Həmçinin, qeyri-kommersiya təşkilatının əmlakına sərəncam verildikdə əldə edilən vəsaitin qeyri-kommersiya təşkilatının nizamnaməsində müəyyənləşdirilmiş məqsədlərə istifadə edilməsi göstərilməlidir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 99.3-cü maddəsinə əsasən, açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar səhmdar cəmiyyətin səhmdarlarının ümumi yığıncağında qəbul edilir və bu barədə məlumat açıqlanır.

Daşınmaz əmlaka sərəncam müqavilələrinin mötəbərliyini və hüquqi baxımdan icrasının tamlığını təmin etmək məqsədilə tərəflərin biri-birinə ödəməli olduqları pul məbləğləri notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilir. Bu bank hesabı notariusun cari hesabı deyil, digər notariat əməliyyatlarının aparılması üçün nəzərdə tutulmayan, məhz müqavilə üzrə ödənilməli olan məbləğlərin rəsmən və nağdsız qaydada tərəflərin bir-birinə verilməsi üçün açılmış xüsusi depozit hesabıdır. Əməliyyatlarınnotariusun depozit hesabı vasitəsi ilə aparılması gələcək mübahisələrin qarşısını alır, şəffaflığı təmin edir.

Hüquqi şəxsin daşınmaz əmlakına sərəncam verilməsi ilə bağlı müqavilə rəsmiləşdirildikdə, notariusun bankda açılmış depozit hesabına mədaxil edilmiş pul vəsaiti hüquqi şəxsin təqdim etdiyi hesaba notariusun ödəniş tapşırığı əsasında ödənilir.

Dövlət mülkiyyətində olan əmlaka sərəncam verildikdə İqtisadiyyat Nazirliyi yanında Daşınmaz əmlak məsələləri Xidmətinin razılığı, bələdiyyəmülkiyyətində olan əmlaka sərəncam verildikdə isə müvafiq bələdiyyənin nizamnaməsi ilə müəyyən edilmiş orqanın qərarı notariusa təqdim olunmalıdır. Həmçinin, ipoteka ilə yüklü edilmiş hüquqi şəxsin əmlakına sərəncam verildikdə, ipoteka saxlayanın razılığına və razılıqda göstərilən şərtlərə əməl edilməlidir.

Qeyd olunanlarla yanaşı, hüquqi şəxsin əmlakına sərəncam verildikdə notarius "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl etməlidir.

Hüquqi şəxslər mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (özgəninkiləşdirilməsi) zamanı AR Vergi Məcəlləsinin 218-ci maddəsində nəzərdə tutulmuş sadələşdirilmiş verginin tutulmasına cəlb edilmirlər.

Bu bir gerçəklikdir ki, hüquqi şəxslərin iştirakı ilə daşınmaz əmlaka dair əqdlərin notariat qaydada təsdiq olunması zamanı sadalanan tələblərə riayət olunması qanunçuluğun təmin olunmasına imkan verməklə yanaşı, hüquqi şəxslərin və onların təsisçilərinin (iştirakçılarının) Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş mülkiyyət hüquqlarının qorunması baxımından vacib əhəmiyyətə malikdir. Hüquqi şəxslərə məxsus daşınmaz əmlak əməliyyatlarınınnotarial təsdiqlənməsi mülki dövriyyənin sabit və mübahisəsiz hüquqi tənzimlənməsinə və mülkiyyət hüquqlarının daha etibarlı qorunmasına təminat verir.

**Notarial tənzimləmə və onun hazırki təkmilləşmiş mexanizmi hüquqi şəxslərin daşınmaz əmlakı ilə bağlı əməliyyatların daha rahat və peşəkar səviyyədə sənədləşdirilməsini şərtləndirmiş və bu proses öz səmərəliliyini göstərməkdə davam emәkdədir.**

**Elçin Zeynalov**
**Bakı şəhəri 52 saylı Notariat ofisinin notariusu**

*Emin Piri*

# Koronadan daha qorxulu xəstəlik - soyqırım!



***31 mart. Azərbaycanlıların soyqırımı günü. Son aylar dünyanı cənginə alan korona bəlası bu günü ikinci plana keçirdi. Desəm, bizdə yalnız koronaya görə belədir, inamımı yandırmış olaram. Faciə faciəni unutdurur. Necə ki, Qarabağ və digər məsələlərdən, faciələrdən sonra mart kimi olaylar bir qədər kölgəyə çəkilmiş oldu. Yalnız dövlətin və az qismdə şəxsin sayıqlığı nəticəsində az-çox gündəmə gətirilir.***

***Bir faciəni unutmaq digər gələcək faciənin müjdəçisi olur. Eynilə, mart hadisələri və sonrakı onillər ərzində yaşadıqlarımız.***

***Bu tip soyqırımlar xəstəlikdir. Bəli, məhz xəstəlik. Özü də koronadan da qorxulu. Yoluxucu xəstəlik. Bir beynə düşdüsə minləri, on minləri, hətta milyonları yoluxduracaq.***

***Əşi, dünyanın nə vecinə...***

***Beyinlərdən beyinlərə, ruhlardan ruhlara yayılan, insanı zombiləşdirən, şovinizmdən belə daha qorxulu xəstəlik. Bu yoluxucu düşüncə xəstəliyi bir dəfə beyinə düşdüsə onu nə hansısa vaksinlə sağalda bilə, nə də kökünü kəsə bilərsən. Yalnız bir yolu var, o da həmin beyni dəyişməkdir.***

***"Erməni soyqırımları" ilə baş qatan dünyanın bu fəaliyyətinin heç də erməni sevgisindən də olduğunu düşünmürəm. Bu canfəşanlıq türk və müsəlmana olan nifrətdəndir. Lap bu cümlədən türkü də çıxaq, müsəlmanı da. Gələcəkdə özündən artıq güc ola biləcəyini düşündükləri bütün millətlərə, cəmiyyətlərə qarşı.***

***Nə 1918-ci illərdə on minlərlə müsəlmanın qətliamı, nə də Qarabağdakı faciələr önəmli deyil onlara.***

***Hə, ara-sıra ədalətli qərarların da şahidi oluruq. Keçmiş Yuqoslaviyada baş verənlər haqqını müəyyən dərəcədə tapdı.Günahkarlar cəzalandırıldı. Buna qısqanclıqla yanaşmıram. Ədalətin bərpasıdır, amma qərbin Yuqoslaviya rəhbərliyinə qarşı qıcığı olmasaydı, əmin olun, o hadisələr də sadəcə statistikadan başqa bir şey olmayacaqdı.***

***İndi nə etməli? Gözləməliyik ki, qərb nə zaman erməni siyasətçilərini, rəhbərlərini, o hadisələrin günahkarlarının varislərini şantaj etmək istəyəcək?***

***BMT-nin nə bilim qətnamələri var idi işğal olunmuş rayonlarla bağlı...O qətnamələr nəyi həll etdi və ya qətnaməni həyata keçirməkçün dünya özü nə etdi?***

***Amma Andranikin qulağıyla kar olan dünya öz dediklərini belə eşidə bilmir. Bərkdənmi qışqıraq?***

***Jestika diliylə onlara başa salmağımız isə gecdir. Çünki onda da gözlərini yumacaqlar.***

## *Gürcüstanda siyasi böhran: Yenə razılıq əldə olunmadı*

**Hakim Gürcü Arzusu - Demokratik Gürcüstan Partiyasının nümayəndələri siyasi böhrandan çıxmaq üçün müxalifətlə yenə razılığa gələ bilmədilər.**



**Bunu Avropa Şurası prezidentinin şəxsi nümayəndəsi Kristian Danielson deyib.**

**"Bu gün Şarl Mişelin təklifi ilə Gürcüstanda vasitəçiliyin ikinci mərhələsini başa vurdum. Böhranın həlli yolları var. Bunlar seçki və ədliyyə sahəsindəki əhəmiyyətli islahatlarla əlaqəlidir. Təəssüf ki, siyasi partiyaların heç biri bu qərarları qəbul etmədi", - Danielson bildirib.**

## *Türk ordusundan əməliyyat*



**Türkiyə Silahlı Qüvvələri terrorçulara qarşı növbəti əməliyyatını keçirib. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. "Fərat qalxanı" bölgəsində təxribata cəhd edən 3 PKK/YPG terrorçusu türk komandosları tərəfindən zərərsizləşdirilib", - məlumatda bildirilir.**

**MEHRİBAN**

# 31 mart soyqırımına və faciələrə gedən yol: Günahsızların "cəzalandırılması" prosesi

**Bəli, Çar Rusiyasının, SSRİ dövlətinin, hazırda da Çar Rusiyasının və SSRİ-nin qanuni varisi olan Rusiya FR-nın Qafqaza ayağını basmış bütün çinovnikləri, bütün rəsmi nümayəndələri hər zaman ermənilərin Qafqazda törətdiyi qırğınlara, vəhşiliklərə, cəlladlığa yaşıl işıq yandırıb. Çünki erməni olmadan rusların Qafqazda genişlənməsi imkansız olardı. Bu səbəbdən də bugün erməni xalqı yaşayırsa, bugün Ermənistan dövləti varsa, bütün dünya erməniləri ruslara böyük bir minnət duyğusu ilə yanaşmalıdırlar. Rusiyanın Qafqazdakı "çomağı", eyni zamanda iyrənc siyasəti həm Qafqaz xalqlarına , həm də dünya xalqlarına gün kimi aydındır.**

## *Ermənistan yaradılması ideyası nə vaxt başladı?*

Tarixçilərin araşdırmasına görə, bu yerlərə ermənilərin, ilk növbədə, geosiyasi məqsədlərlə yerləşdirildiyi bir sıra tarixi mənbələrdə də əksini tapıb. Məsələn, Qafqazdakı rus qoşunlarının komandanı 1805-ci il 22 may tarixli 19 nömrəli raportunda qeyd edirdi ki, coğrafi mövqeyinə görə Qarabağ nəinki Azərbaycanın, hətta İranın da darvazası sayılır və ona görə də bu əyalətin öz əlimizdə saxlanmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir. 1805-ci il mayın 14-də imzalanmış "Kürəkçay" müqaviləsi bu vəzifənin yerinə yetirilməsinə əlverişli şərait yaratmış oldu və həmin dövrdən etibarən Rusiya imperiyası tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsinə başlandı. XIX əsrin əvvəllərindən başlanan köçürülmə prosesləri bir sıra tarixi mənbələrdə, o cümlədən S.Qlinka, N.Şavrov, A.Qriboyedov, V.Veliçko, S.Zelinski və başqalarının əsərlərində və digər tarixi mənbələrdə əksini tapıb. Çar Rusiyasının müvafiq dövlət qurumları tərəfindən ermənilər Azərbaycanın Qarabağına və digər bölgələrinə köçürülərkən Azərbaycan xalqını bu proseslərin uzunmüddətli olmayacağına inandırmağa çalışdılar.

Əslində 1805-ci ildən başlayan köçürülmə prosesi xüsusilə İran və Türkiyədən köçürülən ermənilərin Azərbaycanda yerləşdirilməsi siyasəti hətta Azərbaycan sovetləşdirildikdən sonra da davam etdirildi. Arxiv sənəd və materialları, digər tarixi mənbələr təsdiqləyir ki, kənardan gətirilən ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi prosesi hətta azərbaycanlıların əzəli türk torpaqlarında yaradılıb və sonralar Ermənistan adlandırılan ərazilərdən qovulduqları vaxtlarda da davam etdirilib.

Məsələn tanınmış rus tədqiqatçısı N.Şavrov yazırdı: ***"Cənubi Qafqazın istilasınadək burada erməni xalqı yüksək mövqeyə malik deyildi. Ermənilər əsas etibarı ilə Osmanlı dövləti ərazisində və İranda yaşayırdılar. Ermənilərin Cənubi Qafqaza köçürülməsi İran və Osmanlı ilə 1828-1829-cu illər müharibəsindən sonra başlanmışdır. 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza irandan 40 mindən və Osmanlı dövlətindən 84 mindən çox erməni köçürülmüşdür. Onlar Yelizavetpol, Qarabağ, İrəvan, Borçalı, Axalsıx və Axalkələk bölgələrinin ən yaxşı torpaqlarında yerləşdirilmişlər ".***

N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb yerləşdirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: ***"Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyonundan çoxu bu diyarın yerli əhalisi deyil. Onlan buraya biz köçürüb gətirmişik".***

Yeri gəlmişkən, tarixçilər Azərbaycan-Türkiyə torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq ideyasını həyata keçirmək üçün ermənilərin türklərə, azərbaycanlılara qarşı törətdikləri cinayətləri, soyqırımını 5 mərhələyə bölmüşlər.

***Birinci mərhələ - XVII əsrdən -1905-ci ilə kimi olan dövr.***

***İkinci mərhələ - 1905-ci ildən -1914-cü ilə kimi olan dövr.***

***Üçüncü mərhələ - 1914 ildən -1920-ci ilə kimi olan dövr.***

***Dördüncü mərhələ - 1948 ildən -1953-cü ilə kimi olan dövr.***

***Beşinci mərhələ - 1988-ci ildən sonrakı dövrlər.***

Yenədə dönək o illərə...

## *Qırğınların təşkilatçıları, icraçıları...*

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi Rafiq Səfərovun arxiv sənəd və materialları, eləcə də digər tarixi mənbələrə əsaslanaraq qələmə aldığı qeydlərini nəzərdə keçirsək təşkilatçıları da, icraçıları da yaxından tanıyaraq əsil düşmənin kim olduğunu daha dəqiq bilərsiniz: ***"1917-ci ilin noyabrında Bakıda hakimiyyəti ələ keçirmiş və tərkibi əsasən ermənilərdən ibarət olan "Bakı Komunası" adı altında yaradılmış birinci "bolşevik" hökuməti tərəfindən "əksinqilabçı ünsürlərlə mübarizə" şüarı altında ölkəmizin müxtəlif bölgələrinə erməni-daşnak silahlı cəza dəstələri göndərilib. S.Şaumyan və G.Karqanovun rəhbərliyi altında Azərbaycanın müxtəlif bölgələrinə göndərilmiş həmin silahlı dəstələr 1918-ci il martın 30-da və 31-də, aprelin 1-də Bakıda, 1918-ci ilin mart-may aylarında Bakı quberniyasının Şamaxı, Göyçay, Ərəş və Quba qəzalarının kəndlərində, habelə Azərbaycanın digər bölgələrində azərbaycanlılara qarşı insanlığa sığmayan kütləvi qanlı qırğınlar törədib, minlərlə günahsız, dinc əhalini qətlə yetirib. Həmin qırğınlar T.Əmiryan, H.Amazasp, C.Lalayev və digər cinayətkar erməni-daşnak "hərbçi"lərinin başçılığı altında həyata keçirilib. Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi erməni-daşnak-bolşevik qüvvələri***



***Azərbaycanın dinc əhalisinə qarşı misli görünməmiş soyqırımı həyata keçirdi".***

## *Azərbaycanlıların "cəzalandırılması"nın başlanma prosesi*

Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi ilə söhbətimizdə o bildirmişdi ki, Bakıda mart hadisələrinin törədilməsi ümumilikdə Azərbaycan xalqına yönəldilmiş böyük bir soyqırımın başlanğıcı olur: 1918-ci ili analiz etmək ücün bir az əvvələ getmək, qanlı zəncirin başlanğıcına dönmək lazımdı:

XIX əsrin əvvəllərində başlanmış Rusiya-İran, Rusiya-Türkiyə müharibələri və onların nəticələri: 1813, 1828, 1829-cu illər Gülüstan, Türkmənçay, Adrianopol müqavilələri, Azərbaycan, Gürcüstan, Türkiyənin tarixi ərazilərinin bölünməsi, geniş regionların qəsb edilməsi və yerli müsəlman əhalinin mühacirəti, nəhayət, ermənilərin İrandan və Türkiyədən əzəli Azərbaycan (13 xanlığın ərazisi) və Gürcüstan (Axaltsix və Axalkalaki) torpaqlarına köçürülməsi erməni əhalisinin həyatında əsaslı iz qoydu. Bu yeni tarixi şərtlər, həmçinin istər Osmanlı Türkiyəsi, istərsə də Rusiya İmperiyasında ermənilərin nisbətən daha qabaqcıl və üstün vəziyyəti də daxil olmaqla, erməni milli şüurunda yüz illərlə bəslənən öz müstəqil dövlətçiliyini yaratmaq ideyasını artıq yetişməkdə olan erməni millətçiliyinin siyasi devizinə çevirdi. "Böyük Ermənistan" onun "yaradıcılarının" planlarına görə Osmanlı Türkiyəsinin və Rusiya İmperiyasının (Qafqazın, dəqiq deyilərsə, Azərbaycanın və Gürcüstanın) böyük ərazilərini əhatə etməli idi ki, bu da hakimiyyətlə öz separatçı niyyətlərini bəyan etmiş erməni əhalisi arasında artıq müəyyən münasibətlərin başlanmasını şərtləndirirdi. Qatı millətçi erməni partiyaları olan "Qnçaq" (1887), "Daşnaksütun" (1890) və digərləri qarşıdakı onilliklər ərzində bütöv xalqın taleyində həlledici rol oynayacaqdı. "Hələ 1907-ci il proqramı qəbul edilənə xeyli qalmış "Daşnaksütun" güclü, intizamlı, konspirativ təşkilata çevrildi. XX əsrin əvvəllərindən başlayaraq erməni emissarlarının, agentlərinin və erməni əhalisinin Türkiyədən Cənubi Qafqaza axını xüsusilə güclənir. Artıq beyinlərə işləmiş bir ideyaya çevrilən "Böyük Ermənistan" şüarı ətrafında birləşən bu insan axını təşkilatlandırılmış hərbi bölmələr yaratmaqla fəal surətdə silahlanmağa başlayır. Bu dəstələrin ilk vəzifəsi yeni Ermənistan dövlətinin yaradılması üçün nəzərdə tutulmuş ərazilərdə yaşayan yerli türk-azərbaycanlı əhalini fiziki cəhətdən məhv etmək olur.

## *Rus siyasətinin və erməni xislətinin yekun nəticəsi*

***Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı təkcə Bakıda 12 mindən çox türk-müsəlman öldürülüb. Onların çoxunun meyitləri tapılmayıb. Ermənilər meyitləri odalova bürünmüş evlərə, dənizə, quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Bakı əhalisindən 400 milyon manatlıq daş-qaş və əmlak qarət olunub. Bir çox ziyarətgahlar və tarixi abidələr yerlə-yeksan edilib. Memarlığın incilərindən sayılan İsmailliyənin binası yandırılıb. Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı, erməni ziyalıları, gəncləri də iştirak edirdilər.***

Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibədə" iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "borcunu" yerinə yetirirdi". 1918-ci ilin mart hadisələri zamanı qədim Şamaxı şəhəri də dəhşətli talanlara və vəhşiliklərə məruz qalıb. Ermənilərin bu şəhərdə və ümumən Şamaxı qəzasında törətdikləri vəhşiliklər haqqında 7 cilddən ibarət təhqiqat materialları toplanıb. 1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "Çağırış"ı dərc olunub. Komissiyanın sədri Ə.Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi olan, 800 ildən çox tarixə malik Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin 15 minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can qurtaran əhalinin qalan hissəsi türk qoşunları Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar, qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər".

Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla 1 milyon manatdan çox olub. Ermənilər Qubada, Lənkəranda və digər qəzalarda da qırğınlar törədiblər. Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olub. Ona görə də, onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta biliblər. İki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. A.Novatski qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırıblar. Hamazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilib.

Ayrı-ayrı mənbələrə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və tat əhalisi öldürülüb. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyil.

Nəhayət 70 il bəzilərinin fəxarətlə öydüyü sovet dönəmində xalqımızın başına gətirilən bu bəlalar örtüb basdırıldı, Saxta tarix, saxta faktlarla düşmənlərimizi tanımamağımız, vaxtında ölçü götürə bilməməməyimiz nəticəsində yeni-yeni faciələrə qucaq açdıq.

**Əziz xalqım bu tarixi, və bu tarixi düşmənlərimizi heç vaxt unutma! Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm!**

**Əntiqə Rəşid**

# Lukaşenko səlahiyyətlərini bölüşməyə hazırlaşır

**Belarusda Aleksandr Lukaşenkonun əlehdarları əhalkni yenidən etiraz yürüşlərinə çağırırlar. Lakin küçələr hələki hökumətin nəzarəti altındadır. Prezident Lukaşenko isə səlahiyyətlərinin bir hissəsini digər dövlət strukturlarına ötürülməsi üçün Konstitusiya reformalarının yollarını aramaqdadır.**



Yeni siyasi partiyalar prezidentə kömək məqsədilə yenilənmə məsiliyyətlərini öz üzərilərinə götürməyə hazır olduqlarını bildirirlər. RİA Novosti bununla bağlı araşdırma aparır.

Belarusda sözün əsl mənasında təkcə yaz havası deyil, eyni zamanda siyasi havalarında qızışan zamanıdır. Aleksandr Lukaşenko səlahiyyətlərin dövlət strukturları arasında bölünməsi məsələsini müzakirə etmək üçün, çoxsalı yığıncaqlar keçirməkdədi. Hazırki Konstitusiyaya görə, demək olar ki, bütün səlahiyyətlər prezidentin əlində cəmləşib. Hər hansı böhran vəziyyətində nazirlər, deputatlar və müəssisə rəhbərləri ölkə prezidentinin göstərişi olmadan hansısa tədbirlər görmək imkanlarından məhrumdurlar.

***Lukaşenko səlahiyyətlərinin bir hissəsini fəhlələrin, elm və mədəniyyət xadimlərinin, parlamentarilərin cəmləşdiyi Ümumbelarus xalq yığıncağına ötürülməsini təklif edib. Onun təklifi nazirlər kabineti və region rəhbərləri tərəfindən bəyənilib. Onlar Lukaşenkonun təklifinin təkcə Ümumbelarus xalq məclisinin deyil, həmçinin siyadi partiyaların da ölkə idarəçiliyində rolunu artıracaq.***

Belarus Ədliyyə nazirliyi siyasi partiyaların yenidən qeydiyyatına başlayıb və əvvəlcədən xəbərdarlıq edib ki, keçmiş "qvardiyanın" üzvlərinin heç də hamısı bu proseduru keçə bilməyəcək. Lakin onlara yeni bloklar və birliklər tərkibində qeydiyyat imkanları yaradılacaq.

**Lukaşenko bəyan edib ki, səlahiyyətlərin bölünməsində tələsmək olmaz. " Hamısını bir yerdə həll etməyə tələsməməliyik. Bu evalyusiya mərhələsidir. Bir sıra məsələlərin həlli bu gün vacibdir, digər məsələlərin həyata keçirilməsinə isə hələ vaxt, zaman var və bu səlahiyyətlər ötürülməyəcək".**

**Rüstəm Hacıyev**



Orxan Saffari

# "Sentimental Pasient"

*Səhər açılıb. Günəş də çıxıb, külək də əsir. Belə olanda da hisslərim əsir-yesir olur. Bilmirəm niyə, kimə, nə üçün darıxıram. Səhər 6-da yatıb, elə səhər 9-da da oyanıb, azmış kimi ac və siqaretsizəm. Yemək də var, siqaret də, amma belə qalmağa məcburam. Ac qalmağı hardasa anlayaram, amma siqaretsiz niyə qalım ki?!*

*Dərd budur e, həkim qədeş, dərd budur!*

*Qutuda olan son bir gilə siqareti çəkməmək üçün özümü zorla saxlayıram. Nədi-nədi ağciyərlərimi, mədəmi, qaraciyərimi yoxladacam deyə. Hə, deməmişəm ki, sizə. Mən bir müddətdir, bir neçə dəfə qan qusmuşam. Bildiyiniz qan. O zəhrimar xəstəliyə tutulanlar qusandan. Özü də, axşam "Delikatesdə" boğazımı yaşlayanda. Başımı qaldırıb, qırıq, kirli güzgüyə baxanda ağlamaq da istədim, açığı. Amma ağlamadım. Yaxşı, razıyam, bir az əl-ayağa düşdüm. Atamla danışdım, bir-iki dosta dedim, kefli idim deyə, bir az vida misalı danışdım.*

*Bu dünyadan belə bir adam keçdi zad.*

*Əl-Qərəz. İndi tək dərdim siqaretdir. Mən bu sonuncu siqaretlə yaşadığım eşqi qadınla da yaşamamışam heç. Siqareti çox çəkən adamlar bilər ki, bu necə bir zulumdur. Zülm yox ha, zulum.*

*Bir də görürsən, gecə siqaretin bitdi. Çıxa da bilmirsən çölə, ərinirsən, yəni, konkret öl canın çıxsın. Ciyərlərin bildiyin üzünə qayıdır, ağır danışır səninlə.*

*Bu dəmdə, elə bu yerdə nə olsa yaxşıdır? Evdən çıxmışam, taksidəyəm. Gedirəm xəstəliyimlə tanış olmağa. Bax, mən deyiləm, sizsiniz. Bayaqdan özümü bu qədər tut, bu qədər sıx, gəl ciyərdən yarımış taksi sürücüsü siqaret yandır. Alə, səni kül olasan, heç yeridi?! Gərək sən də xərçəng olasan? At da o zibili!*

*Hələ Fidan da var. Hal-qəziyəni ona da demişəm. Zəng edir. Yaman narahatdı. Fidan məni çox istəyir. Yəni, belə hiss edirəm. Özümə də deyir tez-tez. Mən də ona. Bəlkə də sevirik. Amma içimizdə, gizli-gizli. Nəysə. İndi bu soxhasoxda aşk-meşk danışmayaq. Fidan bu yazıyla bitəcək, xatırlanacaq qız deyil. Ona ayrıca bir yazı lazımdır. Ümumiyyətlə, Fidan mənim üçün "uzun söhbətdir"*

*Telefonda dostumla danışıram. Hacı ilə. İlhamı deyirəm də. Yaxşıların dostu, əmisi. Hacılarla o qədər məzələnirəm ki. Amma İlham yadıma düşür. İlham Kəbleyilər içində ən yaxşı Məşədi, Məşədilər içində də ən yaxşı Hacıdır. Bircə bir pis xüsusiyyəti var, ucuz kafelərdən çıxmış, böyük sənətdən danışan bir müğənni tapıb saxlamır. Nəysə, öz işi, öz həciliyidir.*

***

*Xəstəxana dəhlizində həyat eşqi ilə alışıb yanan, amma təəssüf hissi ilə qeyd etməliyəm ki, ömürlərinin sonuna o qədər də çox qalmayan adamlar açığı mənə qəribə baxırdı. Mən nisbətən sağlam, gözə gəlimli idim. Deyəsən, onlar mənə elə baxırdı ki, əlacları olsa, sağlamlığımı hissələrə bölərdilər. İçlərində bir qoca kişi də var idi. Üzündən mundarlıq yağırdı. Açığı, mən görünüşə görə qiymət verən adam deyiləm, amma bütün hallarda bu da önəmlidir. İçimdə dedim, öləcəyiksə, birinci bu qoca kaftar ölsün. Söz arası yaşını da öyrəndim. 86 a kişi, 86. Özü də, keçmiş milis. İndi burda Sovetlərdən danışmaq istəmirəm, amma yenə də bu kişi ölsün, Tanrım.*

*Açığı, onu da deyim, bayaqdan özümü nə qədər qorxutmamağa çalışsamda, azcana tırsıram. Həyəcan gəlib bir vaqon. Əlavə də bir vaqon ekşin sevənlər, macəra, həyəcan axtaranlar. İçimdə elə qəribə hiss var ki, fillər sevişir desəm, yalan olmaz.*

*Həkimimi gözləyə-gözləyə ciyərlərim pərdəni təmiz qaldırıb. O, deyəsən, kimin bədənində dayandığını bilmir, amma eybi yox, mən indi ona bir-iki kurs müalicə edib, ağıllandıraram*

***

*Nəhayət, uzun siqaretsizlikdən, təqribən, 5 siqaret çəkə biləcəyim vaxtdan sonra həkimim də gəldi. Salamlaşdıq, danışdıq, müayinə olunduq, ortaya çıxdı ki, sən demə, ciddi bir şey yox imiş. Ağzımdan gələn qan isə öskürəkdən partlayan kapiliyyar damarlar imiş.*

*İlahi, bayaqdan beynimdə nə qədər şey qurmuşam. Birinci siqareti atacam, içməyəcəm, elə edəcəm, belə edəcəm. Həkimin bu diaqnuza o qədər sevindim ki, istədim, çıxam o 86 yaşlı nursuz kişiyə deyim, mən kəfəni yırtdım. Hara qədər dirənəssən, qoca. Hətta daha da irəli gedib, xəstəxananın dəhliniz də "hamınız öləcəksiniz" qışqırmaq istədim..*

*Amma mən belə adam deyiləm. Bunu sevincimi ifadə eləmək üçün dedim. Uzun sürən analizlərdən sonra xəstəxananı tərk elədim. Ac idim, ağzımdan da pis qoxu gəlir. Yaxşı ki, bu maska var. Hərdən karantinə görə təşəkkür də eləmək istəyirəm. Qadın kimi əzizlədiyim o bir gilə siqareti yandırdım. Xəstəxananın qarşısında havaya bir qullab vurub tüstü buraxdım. Öskürək yenidən başladı. Yenə eyni cür, yenə qan. Amma pis olmadım. Qusdum bu ömrə, bu günə qusa biləcəyim qədər.*

## Lavrov: Türkiyə ilə münasibətlərimizə dəyər veririk



**Türkiyə ilə münasibətlərimiz dərin və çoxtərəflidir. Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov deyib.**

**O, Türkiyə ilə münasibətlərinin bəsit olmadığını bildirib: "Bəzi məsələlərdə ortaq mövqeyə sahib deyilik. Bununla yanaşı Türkiyə ilə münasibətlərimizə dəyər veririk, çünki türk həmkarlarımızla hər zaman həm özümüz, həm də onlar üçün uyğun həll yolu tapa bilirik", - deyə Lavrov bildirib.**

## Necə yəni günahkar Çin deyil?

**Pompeo ÜST-ü qınadı**



**ABŞ-ın keçmiş dövlət katibi Mayk Pompeo ÜST-ün koronavirusun mənşəyi ilə bağlı hesabatını tənqid edib.**

**Pompeo hesabat müəlliflərini Çinin dezinformasiya siyasətini dəstəkləməkdə ittiham edib.**

**"Bu səbəbdən ABŞ-ın ÜST-dən çıxmasını tövsiyə etmişdim", - deyə sabiq dövlət katibi Tvitter səhifəsində yazıb.**

**Pompeonun sözlərinə görə, COVİD-19-un mənşəyi məhz Çindəki Uhan Virusologiya İnstitutudur.**

**Qeyd edək ki, ÜST koronavirusun mənbəyinin Çində olmadığını bəyan etmişdi.**

**MEHRİBAN**

# SAĞLAMLARI "ƏLİL", ƏLİLLƏRİ ZƏLİL ELƏYƏNLƏR

## Yeddi min adamın əlillik dərəcəsi ləğv edilib

**Qəribə olsa da deyəcəyəm; uzun illər müxtəlif xəstəlikdən əziyyət çəkib müalicə olunan və bu müalicədən sağalmayıb əlillik dərəcəsi almaq istəyən yüzlərlə insan min bir əzab-əziyyət çəkiblər. Yəni onlar xəstə ola-ola əlillik dərəcəsini ya çox çətinliklə əldə ediblər, ya da heç bu dərəcə onlara verilməyib. Həkim Tibb Komissiyasının üzvləri deyiblər ki, get bir qədər də müalicə olun, bəlkə sağaldın! Hətta uzun müddət əli olmayan adamın müalicəyə göndəriblər ki, guya sağalacaq. O da deyib ki, ay rəhmətliyin uşağı, mənim əlim yenidən bitəcək? Əgər bitməyəcəksə, mənə bu zülmü niyə verirsiniz?**

### Əsil həqiqət

ondan ibarətdir ki, bir vaxtlar ölkəmizin əlillik dərəcəsi verilən Həkim Tibb Komissiyasında özbaşınalıq və dərəbəylik hökm sürüb. Yəni əksər xəstələr, xüsusən də əllik dərəcəsi almaq istəyən insanlar incidilib, get-gələ salınıb və uzun müddət süründürülüb. Hətta xəstə adamlardan belə nəsə umublar. Məsələn, 6-7 il bundan əvvəl Suraxanı rayonunda bir Həkim Tibb Komissiyasının sədri vardı, soyadı yadımdan çıxıb. Amma adı yadımdadı - Katib. Və bu Katib müəllim hər iki ayağı dəfələrlə ağır əməliyyat olunmuş bir xanıma əlillik dərəcəsi vermirdi. O qədər get-gələ saldı ki, axırda o adam da bezib onun istədiyi məbləği verəndən sonra işi yoluna qoydu. Yəni xanıma ikinci dərəcəli əlillik dərəcəsi verildi.

***Heç kimə sirr deyil ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Həkim Tibb Komissiyaları heç də şəffaf fəaliyyət göstərməyiblər. Başqa sözlə demiş olsaq, bir çox sağlam adamları aldıqları pul müqabilində "əlil" ediblər. Amma əsil xəstələrə bu dərəcəni verməkdə müxtəlif bəhanələr gətirərək onları ötür-ötür oyununa salıblar. Əgər belə olmasaydı, son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 7 min adamın əlillik dərəcəsi ləğv edilməzdi. İndi görün bu 7 min adam dövlətin büdcəsindən sağlam ola-ola uzun müddət nə qədər vəsait alıb.***

Əlbəttə, bu cür qanun pozuntularını üzə çıxaran Nazirlik heç də mövcud problemin həllinə asanlıqla nail olmayıb. Görəsən, həmin "xəstələrin" neçəsi əlillik dərəcəsi ləğv ediləndən sonra təkrarən həmin komissiyalara müraciət edib? Təbii ki, bunu dəqiq bilməsək də, amma bildiyimiz odur ki, həmin adamlar əvvəlki statuslarını bərpa etmək üçün onlara şərait yaradan həkimlərin yanına qaçır, həkimlərsə deyirlər ki, bu məsələni çox açıb-ağartmayın, Yoxsa sizi yoxlayarlar, görərlər ki, sağlamsınız, üstəlik də əvvəl ödənilən pulu sizdən geri alarlar. Və sizə kömək etdiyimizə görə bizi də incidərlər.

### Görünən odur ki,

***bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əlilliyin verilməsi üçün şəffaflıq yaradılıb. Həmin şəffaflıq da ondan ibarətdir ki, hər hansı bir xəstənin bütün göstəriciləri elektron sistemə oturdulur və orda onun bütün göstəriciləri əks olunur. Başqa sözlə demiş olsaq, həkimlərlə və komissiya üzvləri ilə ünsiyyət olmadan əlillik dərəcələri müəyyənləşdirilir. Amma bu məsələlərə də bəzi mütəxəssislər birmənalı yanaşmır. Ən azından ona görə ki, həmin komissiya üzvləri o xəstələri görmür, onlarla ünsiyyətdə olmur, müayinə etmir və nəticədə elektron vasitələri doldurmaqla bu dərəclər verilir. Təbii ki, hər halda bu yaradılan yeni sistem mövcud korrupsiya və rüşvətin qarşısını almağa yönəldilib. Təki belə olsun!***

Dəfələrlə məlum qurum əhaliyə müraciət edərək bildirib ki, ayrı-ayrı işbazların və dələduzların sözlərinə inanmasınlar və vasitəçilik etmək istəyən adamlara bel bağlamasınlar. Deməli, burda həmin qurum öz üzərinə düşən missiyanı yerinə yetirir. Bircə qalır insanların hər şeyə diqqətli olmağına və daha mükəmməl çıxış yolu tapmağına. Bizim millət də saxta iş üçün sinov gedir. Hələ də bəzi adamlar sağlam ola-ola əlillik dərəcəsi almağa can atırlar. Deyilənlərə görə, hətta bəziləri buna nail də ola bilir. Ancaq bu, bir



o qədər də inandırıcı olmur. Çünki mövcud qurum bu cür neqativ halların qarşısını almaq üçün çox ciddi addımlar atır və şəffaflıq yaradır. Ola bilər ki, bəzi dələduzlar şər atsınlar və öz istədiklərini həyata keçirmək üçün müxtəlid əyri yollara qol qoysunlar.

İndi qayıdaq yenə 7 min adamın əllikl dərəcəsinin ləğv olunmasının üstünə.

Çünki həmin insanlara əlillik dərəcəsi veriləndə nə qədər müayinədən keçməlidi. Ən azından xəstəliyə görə, bir neçə ay xəstəxanada yatmalı, sonradan poliklinikalarda onların xəstəliyi ilə bağlı verilən sənədlər doldurulmalı, baş həkim tərəfindən imza atılmalı və eyni zamanda, bu sənədlər hər bölgənin Həkim Tibb Komissiyasına təqdim olunmalı və orda həmin xəstə müayinə edilərək komissiya üzvləri tərəfindən yenidən rəy verilməlidir. Bu rəy veriləndən sonra mövcud sənədlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Həkim Tibb Komissiyasına təqdim olunmalıdı. Bundan sonra komissiya üzvləri və sədr baxış keçirir və əlillik dərəcəsi verilir.

### Bax, o əlillik dərəcəsi

***ləğv olunmuş insanların hamısı bu komissiyadan keçib və sonradan əlillik dərəcəsi alıb. Görəsən, bu cinayətə qol qoymuş neçə komissiya sədri və o komissiyanın üzvü məsuliyyətə cəlb edilib? Aydındır ki, bu cinayətə görə, yüksək səviyyəli bir neçə şəxs həbs edilib.***

Ancaq görünən odur ki, bu saxta işə imza atan bəzi komissiya sədrləri və komissiyanın üzvləri olan həkimlər sudan quru çıxmağı bacarıblar. Əgər sudan quru çıxıblarsa, vəzifədə qalıblarsa, heç kim zəmanət verə bilməz ki, onlar köhnə əməllərini davam etdirməyəcəklər. Bəzi vəzifəli şəxslər var ki, hər hansı bir təhlükə sovuşandan sonra bir müddət gözləmə mövqeyi tutur, ara sakitləşəndə yenə od-alova dönürlər. Hətta əvvəlkindən daha çox pul istəyirlər.

Bir neçə gün bundan əvvəl hansısa televiziya kanalında əlillik dərəcəsi ləğv olunmuş iflic xəstəsi olan bir uşağı göstərirdilər. Uşağın başı üstündə durmur, anası isə göz yaşı tökərək ağlayırdı ki, mən bilmirəm uşağımın məsələsini necə həll edim? İndi qalmışam odla su arasında. Özüm işləmirəm, uşağıma da hər ay dərman alıram. Belə bir vəziyyətdə mən kimdən kömək istəyim?

Bax, bəzən qurunun oduna yaş da yanır. Yəni bu cür adamlara qarşı da haqsızlıq olur. Yaxşı olardı ki, belə xəstələr yenidən müayinədən keçirilsin və onların əlillik dərəcəsi bərpa edilsin. Yadıma rəhmətə getmiş yaxın bir dostumuzun danışdığı əhvalat düşür. Deyirdi ki, bizim rayonda bir komissiya sədri vardı.

### Sağlam adam

yanına gedəndə "şirinlik" verən kimi, o dəqiqə bir neçə günün içərisində onu "əlil" eləyirdi. Amma xəstə kömək istəyəndə deyirdi ki, biz razı olmarıq ki, sən xəstəlikdən əziyyət çəkəsən. Səni müalicə eləyərik, sağalarsan və işə başlayarsan. O xəstə də aylarla, illərlə həkim yanına ayaq döyərdi, amma yenə əlillik dərəcəsi ala bilməzdi. Axırda bezib ya pul tapıb həkimə verərdi, ya da bir də onun yanına getməzdi.

Hər halda, sağlamı "əlil" eləyib, əlili də zəlil eləyənlər gec-tez öz cəzalarına çatarlar. Amma sadəcə olaraq, bunun geci-tezi var. Və bir də kiminsə haqqına girib onu başqasına vermək və haqqı olan adamı illərlə süründürmək, get-gələ salmaq heç insanlığa yaraşan əməl deyil.

**Və nə yaxşı ki, son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu ədalət qorunur, insanların əlillik dərəcəsinə şəffaflıqla yanaşılır. Təbii ki, bu məsələlərin həllindən narazı qalanlar da var. Amma bizə elə gəlir ki, ədalətli olandan sonra onları da razı salmaq mümkün olacaq.**

**Faiq QİSMƏTOĞLU**

# İNCƏ SƏNƏTİN İNCƏ XANIMI

**Validə Məmmədhüseyn qızı İmaməliyeva - əmək veteranı, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, H.B.Zərdabi adına mükafatın laureatı, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin aparıcı böyük elmi redaktoru, Biologiya, tibb redaksiyası müdirinin müavini.**

Validə İmaməliyeva 1937-ci il aprelin 1-də Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Orta təhsilini Bakının Buzovna qəsəbəsində 125 saylı orta məktəbdə almış, 1955-ci ildə orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Universitetinin (o vaxt S.M.Kirov adına) Biologiya-coğrafiya fakültəsinə daxil olmuşdur. Hələ, tələbə ikən, 1957-ci ildə ailə vəziyyəti ilə əlaqədar olaraq (atası və ailənin iki azyaşlı uşağı avtomobil qəzası keçirdiyinə görə) o, ilk dəfə sabiq AKP MK yanında Partiya Tarixi İnstitunun (Sov. İKP MK yanında Marksizm-leninizm İnstitunun filialı) tərcümə şöbəsində işləməyə başlayır. O zaman burada respublikanın görkəmli ziyalıları, elmin müxtəlif sahələri üzrə tərcüməçilər çalışırdılar: Süleyman Məlikov, Abbas Gülməmmədov, Cəbrayıl Rzaquliyev, Vəli Hacıoğlu, Cəmil Quliyev, Cəlil Xəlilov, Məcid Katibli və b. Validə xanımın nəşriyyat işinə böyük həvəsi də elə bu ziyalılarla əməkdaşlıqdan başlayır. Belə ki, məhz bu cür tanınmış ziyalıların əhatəsində işləmək, onlardan sahənin incəliklərini öyrənmək Validə xanımın gələcək həyatında düzgün istiqamət götürməsinə böyük təsir edir. O, tərcüməçi, sözün əsl mənasında böyük ziyalı olan Abbas Gülməmmədovun yanında çalışdığı müddətdə öz savadı, bilik və bacarığı ilə kollektivin hörmətini qazanır.

### Bu tərcümə şöbəsində

***işlədiyi illərdə ona tapşırılan işləri məsuliyyətlə, tez bir zamanda yerinə yetirdiyi üçün ona "civə qız" ləqəbi də verirlər. Universiteti bitirənədək tərcümə şöbəsində işləməsi Validə xanımda nəşriyyat işinə böyük sevgi və maraq yaradır. Zaman keçdikcə isə bu iş onun həyatının əsas missiyasına çevrilir. Əlbəttə, onun xarakteri qədər diribaşlığı, doğma dilinə bağlılığı, ədəbiyyata olan böyük sevgisi də öz işini görmüşdü.***

1960-cı ildə Validə İmaməliyeva universiteti bitirir. Təyinatı isə Cəlilabad rayonuna verilmişdi. Lakin onun qarşısını ailə qurmaq kimi bir məsələ kəsirdi. Bu səbəbdən onun rayona getmək məsələsi çətinləşmişdi. Deməli, o, özünə Bakıda iş tapmalı idi. Bu vaxt "Azərnəşr"in nəzdində bir nəşriyyatın "Azərtədrisnəşrin" (keçmiş "Maarif" nəşriyyatı, indiki "Təhsil" nəşriyyatı) təsis olunduğu xəbərini eşidincə çox sevinir və bu müqəddəs ocağa yollanır. Binaya daxil olub üçüncü mərtəbəyə qalxır və soraqlayıb direktorun otağını tapır. Qapını açıb içəri keçmək istəyəndə orada direktor Cəbrayıl Rzaquliyevin olduğunu görüncə ani olaraq həm sevinir, həm də fikirləşir ki, aradan iki ilə yaxın bir vaxt keçib, yəqin ki, o məni heç tanımayacaq. Bunu fikirləşib astaca qapını örtüb pilləkənlərə sarı dönür, qayıdıb getmək istəyir. Pilləkənləri yenicə enməyə başlayanda bir qadının onun arxasıyca qaça-qaça gəldiyini və onu səslədiyini eşidir. O, rusca deyir: "Devuşka, devuşka tebə Rzakuliev zovät". Bunu eşidən Validə xanım çox sevinir.

***Sevincinin əsas səbəbi isə Cəbrayıl Rzaquliyevin onu tanıması idi. Validə xanım geri qayıdır, yenidən direktor otağının qapısına yaxınlaşır. Çox həyəcanlı halda qapını açıb içəriyə daxil olan zaman C.Rzaquliyev onu görən kimi deyir: Ay Validə xanım, hara gedirsiz? Qapını açıb, niyə geri qayıdırsız? Validə xanım, çox həyəcanlı halda cavab verir, "-Nə bilim, fikirləşdim ki, bəlkə də məni tanımadız". C.Rzaquliyev ondan stulda əyləşməsini təklif edir, yazı masasının üstündəki təqvimini vərəqləyə-vərəqləyə deyir: Bax, burada yazmışam ki, "civə qızı" tapmaq! Bura isə öz ayağınla gəlib çıxdın. Nəşriyyat təzə yaradılıb, hələ tam ştat almamışıq. 10 gündən sonra ştat mənim olacaq. Sizi işə çağıracam.***

Validə xanım bu xəbərdən çox sevinir və sağollaşıb evə qayıdır. Validə xanım evə gəlib çatan kimi ailə üzvlərinə bu şad xəbəri deyəndə ona inananlar da olur, inanmayanlar da. Günlər ötdükcə, Validə xanımın həyəcanları da artır. Bir gün atası əlində məktub işdən evə dönür. - Gözün aydın, qızım, həqiqətən də səni çağırdılar işə. Bax, bu da məktub!!! O, tez məktubda yazılan bir cümləni oxuyur - "Nemedlenno Azer, S.Rzaquliev"!

Validə xanım səhər tezdən atası ilə birlikdə "Azərtədrisnəşr"ə gəlirlər. Validə xanımı direktor çox hörmətlə qarşılayır, redaksiyaya gətirir, işçilərə təqdim edir, bir qədər də tərifli sözlər deyir və gedir. O gündən, Validə xanım sevib-seçdiyi işə həvəslə gəlməyə başlayır.

O, "Azərtədrisnəşr"də tarix-coğrafiya dərslikləri redaksiyasında cəmi 6 ay kiçik redaktor işlədi. Təzə işçi olmasına baxmayaraq, öz təşəbbüsü ilə orta məktəblər üçün nəzərdə tutulmuş coğrafiya atlaslarını Azərbaycan dilinə tərcümə etməsi, 5-ci siniflər üçün olan "Fiziki coğrafiya" dərsliyini redaktə etməsi rəhbərliyin diqqətindən yayınmadı. Bu diqqət işə olan həvəsini birə-beş artırır. Onun işi kollektivin müzakirəsinə verildi. Kollektivin ümumi razılığı ilə onu böyük elmi redaktor vəzifəsinə keçirirlər. Bu onun ilk uğuru olur. Bununla yanaşı nəşriyyatın ictimai həyatında da Validə xanım fəal iştirak etməyə başlayır. 1965-ci ilədək o, "Maarif" nəşriyyatında dərsliklərin redaktəsi ilə məşğul olur.



1965-ci ilin dekabrında Azərbaycan hökuməti 10 cildlik milli-universal Azərbaycan Sovet Ensiklopediyasının (ASE) nəşri haqqında qərar qəbul etdiyi zaman ASE Baş redaksiyasında milli mətbuat kadrlarının, elm və texnikanın müxtəlif sahələrinin mütəxəssislərindən ibarət elmi-sahə redaksiyaları yaradıldıqda o da "Azərtədrisnəşr"- dən ASE-yə köçürmə yolu ilə işə dəvət edildi. 1966-cı ilin may ayından nəşriyyatdan köçürmə yolu ilə əvvəlcə elmi redaktor, sonra isə böyük elmi redaktor vəzifəsinə təyin edilmişdir. O, 1966-92-ci il1ər ərzində 1 cildlik universal "Azərbaycan Sovet Ensiklopediyasının", 10 cildlik universal "Azərbaycan Sovet Ensiklopediyasının" və 2 cildlik "Uşaq Ensiklopediyasının" nəşr olunmasında böyük əmək sərf etmiş, əməyi fəxri fərman, "Əmək veteranı", "Sosializm yarışının qalibi" medalları və s. mükafatlandırılmışdır.

### 1993-cü ildə

***təqaüdə çıxdıqdan sonra da bu sahədə fəaliyyətini davam etdirmişdir. O, həyat yoldaşı R.İmaməliyevin təsis etdiyi müstəqil "Boz Oğuz" nəşriyyatında "Klassik irs və tərcümə ədəbiyyatı" şöbəsinin müdiri, nəşriyyatın elmi və məsləhətçilər şurasının üzvü və baş direktorun müavini kimi fəaliyyət göstərmişdir (1993-2002). "Azərbaycan Sovet Ensiklopediyasının" yüzlərlə orijinal və tərcümə məqalələrin, Respublikanın dövri mətbuatında elmi-publisistik yazıların müəllifi, "Boz Oğuz" nəşriyyatında çapa hazırlanmış və nəşr edilmiş kitabların məsul redaktoru, "Hikmət və kəlam ensiklopediyası"nın, "Azərbaycan salnaməsindən səhifələr" məlumat kitablarının müəllifidir.***

1995-2003-cü illərdə "Respublika Xatirə kitabı" və "Qanun" nəşriyyatında redaktor işləmişdir. 2004-cü ildə Respublika Prezidentinin Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yaradılması haqqında verdiyi sərəncamdan sonra (AMEA) Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yeni rəhbərliyi tərəfindən yenidən işə dəvət almışdır.

O, 60 ildən artıq bir müddət ərzində ensiklopediya, lüğətşünaslıq və tərcüməçilik işi ilə məşğul olmuşdur. R.İmaməliyevin vəfatından sonra yarımçıq qalmış Buzovna Ensiklopediyanın təkmilləşdirilməsi və tamamlanmasında onun böyük əməyi vardır (hazırda "Təhsil" nəşriyyatında çapdadır). R.İmaməliyevin təsis etdiyi "Boz Oğuz" nəşriyyatında nəşr etdiyi kitablar: "Abşeron meyxanaları", 1993; A.Əliyev "Solfecio", 1994; Y.Şağani "Azər kimi diyarım var", 1994; Axund Hacı Soltan Əlizadə "Azərbaycan dərvişləri və rövzəxanları", 1995; V.Əfəndiyev "Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri", 1996; R.İmaməliyev "Məşədi Azər. Seçilmiş əsərləri", 1996; R.İmaməliyev "Haşım bəy Sağib. Kim-kimədir", 1996; Hacı Hacıyev "İstiqlalın əzablı yolu", 1996; Məşədi İlham Cəfəroğlu "Quran duaları", 1996; R.İmaməliyev, T.Səlimov-Şağani, "Bakı kəndləri" (ensiklopedik məlumat kitabı), 1996; Həkim Qəni "Füzuliyə təxmislər", 1997; R.İmaməliyev "İslam ensiklopediyası", 1997; R.İmaməliyev "Buzovnalı Məhəmmədismayıl Asi. "Divan"", 1997; T.Babanlı, V.İmaməliyeva "Azərbaycan salnaməsindən səhifələr", 1997; "Vücudnamə, Saqinamə, Tövbənamə" (Ensiklopedik məlumat kitabı), 1997; R.İmaməliyev "Ensiklopediyaçı - şərqşünas Əbülfəz Məmmədzadə", 1997; T.İmaməliyeva, V.İmaməliyeva, R.İmaməliyev "Hikmət və kəlam ensiklopediyası", 1998; Maqsud Mahmudzadə "Şeyx Şamil və onun sələfləri" (sənədli-publisistik qeydlər), 1998; Kamal Rzayev "Qarabağ müharibəsi: həqiqətlər və uydurmalar", 1998; Kamal Rzayev "Pravda i lojğ o Karabaxskoy voyne", 1998; Qumral Sadıqzadə "Son mənzili Xəzər oldu" (Tarixi-publisistik roman), 1998; Qumri Dərbəndi "Kənzül-məsaib", "Gülzari-Hüseyni", 1999; R.İmaməliyev "Yasin-çərəkə" (vəqf məqsədilə), 1998; V.Babanlı "Ömürlük cəza", 1999; Buzovnalı Məşədi Balahüseyn Xoşhal "Ata-babalarımızdan eşitdiklərim, bildiklərim, deyimlərim", 1999; Aydın Hüseynzadə "Romantik şair Əlipaşa Səbur", 2000; Buzovnalı Məşədi Balahüseyn Xoşhal "Ömür bağının çələngi", 2001; Buzovnalı Məşədi Balahüseyn Xoşhal, "Unudulmaz şəxsiyyətlər", 2002; R.İmaməliyev, B.Axundov, M.Mahmudov "Nəşriyyat-poliqrafiya və jurnalistika terminlərinin izahlı lüğəti", "Təhsil" nəşriyyatı, 2009 (R.İmaməliyevin vəfatından sonra) kitablarının elmi redaktoru olmuşdur.

### Validə İmaməliyeva

***hazırda Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzində "Kimya, biologiya, tibb, mikrobiologiya və torpaqşünaslıq" redaksiyasında redaksiya müdirinin müavini vəzifəsində çalışır. O, 60 ildən çox, demək olar ki, bütün ömrü boyu ensiklopediya, lüğətşünaslıq və tərcüməçilik işi ilə məşğul olmuş, həyatını zərif, məusliyyətli, böyük zəhmət tələb edən bu işə sərf etmişdir.***

Ümumiyyətlə, bütün sənətlərdən fərqli olaraq redaktorluq çox incə bir işdir. Bu sahədə çalışan hər kəs bu işə yaradıcı yanaşmalı, bu peşəni sevməlidir. Bu sahəni sevib, öz ömrünü bu peşəyə həsr edən minlərcə redaktorlar var. Onların ömür yoluna işıq salmaq, onların fəaliyyətini tədqiqatlara cəlb etmək kitabçılıq işi baxımından olduqca vacibdir. Çünki sevə-sevə oxuduğumuz hər bir kitabda, başqa sözlə desək çap olunmuş hər bir nəşrdə redaktor əməyi, redaktor zəhməti var.

**Azərbaycanın tanınmış, sayılıb-seçilən redaktorları içərisində Validə İmaməliyevanın da fəxrlə çəkiləcək adı var. Validə xanımın həyat yolunu vərəqlədikcə qətiyyətlə deyə bilərik ki, bu insan şərəfli ömür yaşamış, ömrünü bütövlükdə yazıya, tərcüməyə, redaktəyə həsr etmişdir. Bu gün Validə xanım İmaməliyevanın 84 yaşı tamam olur. Ona hər şeydən əvvəl cansağlığı, uzun ömür və yaradıcılıq uğurları arzu edirik.**

**Leyla Abasova**
**Tarix üzrə fəlsəfə doktoru**

# Görünməz düşmən: hepatit və ya erkən yazılmış vəsiyyətnamə

**Son bir ildə dünyanı təhdid edən COVİD-19 pandemiyası ilə mübarizə tədbirlərinin gücləndirilməsi digər infeksion xəstəlikləri sanki arxa plana keçirmiş, görünməz düşmənə çevirmişdir. Belə xəstəliklər sırasında insan sağlamlığı üçün təhlükəli olan hepatitlər xüsusi yer tutur. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynab Mustafayeva ilə müsahibə də bu barədədir.**

**-Naxçıvanda bu gün hepatitlərə yoluxma ilə bağlı vəziyyət necədir? Hepatitlərin aşkarlanması və müalicəsi haqqında nə dərəcədə nikbin danışmaq olar?**

-Hepatit B və C infeksiyaları bütün dünya ölkələrində yayılmışdır. Hazırda yer kürəsində milyonlarla insan bu xəstəlikdən əziyyət çəkir. Ölkəmizdə, eləcədə müxtar respublikada da bu xəstəlikdən əziyyət çəkən insanlar var. Muxtar respublikada Hepatit B və C xəstələrinin sayının artması hələ 2017-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisin Müşavirəsində müzakirə olunmuş və qarşısının alınması üçün aidiyyati orqanlara tapşırıqlar verilmişdir.

Naxçıvan Muxtar Respublika Səhiyyə Nazirliyi tərəfindən Hepatit B və C virus xəstələrin müayinə, müalicə və profilaktika tədbirləri hər il araşdırılır, müntəzəm olaraq qabaqlayıcı tədbirlər həyata keçirilir. Səhiyyə nazirliyinin kollegiyasının iş planına uyğun olaraq bu xəstələrin müayinəsi, müalicəsi və profilaktikası tədbirləri mütəmadi yoxlanılır.

Muxtar Respublikada qanla kecən infeksiyaların ( Hepatit B, C, QİÇS və HİV) müayinəsinə 2006-cı ildən başlanılıb. Əvvəlki illərdə ancaq donorlar müayinəyə cəlb olunurdu. 2009-cu ildən idən obliqat qruplar, 2012-ci ildən donorlar, obliqat qruplar, bütün əməliyyat olunanlar və hamilələr, hazırda isə qeyd olunanlarla bərabər, nigaha daxil olanlar və könüllüllü müraciət edənlər də müyinələrə cəlb edilirlər. Hazırda əməliiyat aparılan, eləcə də doğuş və abort həyata kecirilən bütün dövlət və özəl tibb müəssilərində Hepatit B və C virusunun, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələri aparılır. Ekspres metodla aşkar olunan xəstələrin hamısı diaqnozun təsdiqi üçün Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə Mübarizə və Profilaktika şöbəsinə göndərilir.Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə Mübarizə və Profilaktika şöbəsində Hepatit B, C və QİÇS xəstələrinin diaqnostikası İFA, Luis xəstərinini diaqnostikası isə Mərkəzin Dəri-zöhrəvi şöbəsində TEPAŞ müayinələri ilə həyata keçirilir.

Əməliiyat olunan bütün xəstələr, doğuşlar, ekspres metodla müayinə olunurlar. Nəticə müsbət olan hallarda xəstələr Yolxucu Xəstəliklər Mərkəzinə göndərilir. Respublika Xəstəxanası, Kardiologiya Mərkəzində əməliyyat olunanların, Naxçıvan Muxtar Respublika Doğum Mərkəzində hamilələrin, əməliyyat olunanların, doğuşların müayinəsində ekspres testdən istifadə olunur. Təkcə ötən il test nəticəsi müsbət olan 9 hepatit B, 1 hepatit C, 1 HİV xəstəsi QİÇS Mərkəzinə göndərilib. Bu şöbənin diaqnostik laboratoriyaları beynəlxalq standartlara uyğun təşkil edilib və müasir avadanlıqla təchiz olunub. İndi ölkənin hər hansı dövlət tibb müəssisəsi kimi bu şöbəyə də müraciət edib müayinədən keçmək olar.

Əməliyyat və doğuş həyata keçirilən rayon mərkəzi xəstəxanalarında xəstələrdə qanla keçən infeksiyaların profilaktik müayinəsi aparılır.

**-Muxtar respublikada xəstələrin müalicə və dispanserizasiyası necə təşkil edilib?**

-Virus B,C hepatit xəstələrin müalicəsi Naxçıvan Muxtar Respublikası Yolxucu Xəstəliklər Mərkəzinin Yoluxucu, QİÇS, Dəri-Zöhrəvi Xəstəliklər bölmələrində aparılır. COVİD-19 pandemiyası ilə bağlı 2020-ci ildə Mərkəzin Yoluxucu Xəstəliklər şöbəsində virus hepatit xəstələr arasında stasionr müalicə alan olmayıb. 100-dən çox hepatitli xəstəyə ambulator müalicə təyin olunub.Virus hepatitli xəstələrin müayinə və müalicəsi klinik protokola uyğun olaraq xüsusi komissiya tərəfindən həyata keçirilir. Müalicədə xəstənin vəziyyəti nəzərə alınmaqla virus əleyhinə preparatlardan və ya onların kombinasiyasından istifadə olunur.

Mərkəz tərəfindən qeydiyyata alınan hepatit B, C, QİÇS və LUİS xəstələrin registri yaradılıb, regionlar üzrə xəstələrin adlı siyahısı dəqiqləşdirilib, sağalan, ölən, köçən xəstələr qeydiyyatdan çıxarılıb.

**- Hepatitlə mübarizə sahəsində Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin də üzərinə müəyyən vəzifələr düşür.**



- Ötən il Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS şöbəsi tərəfindən aşkar ounan 75 hepatit B daşıyıcı, 1 hepatit B xəstə, 36 hepatit C, 4 HİV xəstə haqqında Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə məlumat verilib. GEM şöbələri tərəfindən bölgələr üzrə epidomioloji araşdırmalar aparılıb. Hər bir xəstədən epidemioloji anamnez toplanılıb, yoluxma oçağı müəyyən edilməyə çalışılıb.Onlarla təmasda olanlar müayinələrə cəlb edilib, maarifləndirici söhbətlər aparılıb.

GEM-lər tərəfindən gözəllik salonlarının, bərbərxanaların, ərazidəki stomotoloji kabinələrin sanitar-gigiyenik fəaliyyətinə, əməliiyat aparılan tibb müəssilərində sterilizasiya təbirlərinə ciddi nəzarət olunur. Ötən il obliqat qruplarında çalışan 549 nəfər tibbi müayinədən keçirilib.

**- Xəstəliyn daha etibarlı profilaktikasına nail olmaq üçün hansı tədbirlərin icrasına üstünlük verilir?**

- Muxtar respublikada böyük və kiçik əməliyyatlar, doğuş, abort həyata kecirilən bütün dövlət və özəl tibb müəssilərində Hepatit B və C viruslarının, eləcədə qanla keçən digər infeksiyaların müayinəsi üçün ilkin olaraq ekspres metodla müayinələr aparılır. Xəstələrdə qanla keçən infeksiyalar aşkar edildikdə tibbi personlların və xəstə yaxınlarının təhlükəsizliyi üçün planlaşdırılmış tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Doğum Mərkəzində, Diaqnostika Müalicə Mərkəzində, Kardiologiya Mərkəzdə, Yoluxucu Xəstəliklər Mərkəzində, Naxçıvan şəhər poliklinikasında, Naxçıvan şəhərindəki "Şəfa" özəl Tibb Mərkəzində qan götürmə otaqlarında dezineksiyaedici məhlullar təlimata uyğun hazırlanır. Hər xəstədən sonra iş masası müasir dezinfeksiyaedicilərlə silinir.Tibbi personallar maska və əlcəkdən istifadə edirlər.

Bütün obliqat qruplarda, nigaha daxil olanlarda, könüllü müraciət edənlərdə qanla keçən infeksiyalar, eləcə də virus B və C hepatitinə görə müayinələr artırılır, xəstələr, daşıyıcılar vaxtında aşkar olunaraq, ünsiyyətdə olduğu adamlar müayinələrə cəlb edilirlər.

Tibbi tullantıların zərərsizləşdirilməsi, yuyucu məhlulların hazırlanması, alətlərin sterilizasiyası tədbirləri təlimata uyğun aparılır. Əməliiyat olunan bütün xəstələr, doğuşlar, ekspres metodla müayinə olunur.

Bütün yenidoğulanların əksəriyyətinə doğum şöbələrində 12 saat ərzində, sonra isə qrafikə uyğun olaraq B hepatitinə qarşı peyvənd vurulmasına ciddi nəzarət edilir. Naxçıvan MR Doğum Mərkəzində 2020-ci ildə 3min 180 yenidoğulana Hepatit B peyvəndi vurulub. Bu tədbirlər rayon mərkəzi xəstəxanalarının doğum şöbələrində də icra olunur.

Muxtar respublikada qan və onun komponentlərinin götürülməsi, saxlanması və köcürülməsi işi ancaq Mərkəzi Qan Bankı vastəsilə həyata keçirilir, gigiyenik və əksepidemik tədbirlərə ciddi nəzarər edilir.

Xəstəliyin vaxtında aşkar edilməsi, müalicəsi və qeyd olunan profilaktik tədbirlərin vaxtında və düzgün həyata keçirilməsi muxtar respublikada Hepatit B, C və digər qanla keçən virus xəstəliklərinin qarşısının alınmasına, onların sayının daha da azalmasına kömək edir.

**-Muxtar respublikada cari ildə hepatitə qarşı hansı tədbirlər nəzərdə tutulur?**

-Nazirliyin bu il fevral ayında keçirilən kollegiya iclasında "Muxtar respublikada Hepatit B, C və qanla keçən virus xəstələrin müayinəsi, müalicəsi və profilaktikası tədbirlərinin daha da yaxşılaşdırılması haqqında" məsələ müzakirə olunub, müvafiq qərar qəbul edilib. Əməliyyat aparılan və doğuş həyata keçirilən dövlət və özəl tibb müəssisə rəhbərlərinə xəstlərdə Hepatit B və C virusunun, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələrın aparılması, doğuş həyata keçirilən əməliyyat otaqlarında, stomatoloji kabinələrdə sanitar-gigiyenik və əksepidemik tədbirlərə nəzarətin daha da gücləndirilməsi barədə tapşırıq verilib.

Hazırda qanla təmasda olan tibb heyyətin qorunması məqsədilə onlara qrafikə uyğun hepatit B virusuna qarşı peyvəndin vurulması davam etdirilir.

Muxtar respublikada əhali arasında səhiyyə maarifi işinin daha da artırılması məqsədilə Vrus B və C hepatitinin yoluxma yolları və onlardan qorunma tədbirlərinə aid bukletlər hazırlanıb paylanılması və digər tədbirlər da nəzərdə tutulub.

**- Zeynəb həkim, xoşbəxtlik sağlamlıq kimidir, nə vaxt onun haqqında düşünmürsən, deməli o var. Sizcə, bizim əhali yalnız xəstələnəndə həkimə müraciət edir, yoxsa profilaktik olaraq mütəmadi şəkildə lazımi müayinələrdən keçir?**

- Suala birmənalı şəkildə cavab vermək çətindir. Bütün maarifləndirmə işilərinə baxmayaraq, camaatın hepatit haqqında məlumatı qənaətbəxş deyil. Bizdə əsas problemlərdən biri də insanların hepatit müayinələrə meyl göstərməməsidir. Məsələn,belə hallar mövcuddur ki, evliliyə hazırlaşan qız hepatitə yoluxubsa, ailəsi bunu gələcək qohumlardan gizlətməyə üstünlük verir ki, birdən evlilikdən imtina edərlər. Halbuki, söhbət Hepatit B-dən gedirsə, bir peyvənd vəziyyəti düzəldər. Hepatitli xəstələrin xəstəlik haqqında susması digərlərinin yoluxmasına da yol aça bilər. Yaxud stomotoloqa gedəndə bu barədə sussa, stomatoloji alətlər ciddi şəkildə sterilizasiyadan keçməsə, növbəti pasiyentin hepatitə yoluxması ehtimalı var. Hepatit B və C infeksiyaları bir çox insanların qorxulu röyasıdır. Onlara hələ də elə gəlir ki, bu virusa yoluxma həyatla vidalaşma deməkdir.

İllər əvvəl tanıdığım bir qadının səhhətində problem yaranmışdı, deyir həkimə getdim, analiz verdim. Məndə Hepatit C tapıldı. Şoka düşdüm, "artıq ölürəm!" deyə fikirləşirdim. Xəbər tutanlar elə düşünürdülər ki, mənimlə bir masada çörək kəssələr, onlar da hepatit C-yə yoluxacaqlar. İşdən çıxıb evə qapandım, ailəmdən xəlvət vəsiyyətnamə yazdım.

Qadına izah etdim ki, min dərd varsa, minbir dərmanı da var. Evə qapanmaqdansa, sağalması üçün mübarizə aparsın. Tövsiyyəmi dinləyib xəstəxanaya yollandı. Odur ki təkrar edirəm: İnsanlarda yanlış təsəvvürləri aradan qaldırmaq üçün səhiyyə maarifinin gücləndirilməsinə ehtiyac var.

**-Həkim, hepatit virusuna yoluxmuş tanışınızın sağlamlıq durumu necədir? Yazdığı vəsiyyətnamə öz qüvvəsində qalırmı?**

- O artıq sağalıb. Erkən yazdığı vəsiyyətnaməni isə cırıb atıb.

**-Müsahibə üçün sağ olun!**

**Hüseyn Əsgərov**
**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi, əməkdar jurnalist**

## Rusiya gəmisi Misir prezidentinin çıxışına mane olub



**Misir prezidenti Əbdül Fəttat əs-Sisi Süveyş kanalının sahilində verdiyi mətbaut konfransında bir neçə dəfə dayandırmalı olub.**

Buna həmin kanalda Rusiyaya məxsus "Marşal Vasilevski" gəmisinin uzun siqnallar verməsi səbəb olub. Qeyd olunub ki, Misir prezidenti İsmailiyyə şəhərində Süveyş kanalını bağlamış gəminin xilasetmə işlərinin başa çatması münasibətilə mətbuat konfransı verib. Onun çıxışı zamanı Rusiya gəmisi, eləcə də digər gəmilər hərəkətin bərpa olunmasını siqnallarla qeyd ediblər. Əbdül Fəttat əs-Sisi siqnallar bitdikdən sonra çıxışına davam edib. Xatırladaq ki, martın 23-də Tayvanın "Evergreen" şirkətinə məxsus 400 metrlik və 224 min tonlu "Ever Given" konteyner gəmisi Süveyş kanalında saya oturaraq bir həftəyə yaxın müddət ərzində hərəkəti iflic etmişdi.

**Gəmi ötən gün xilas ediləræk texniki baxış üçün aparılmışdı.**

## Rusiya Ukrayna sərhədinə daha 25 tabor gətirir

**Rusiya Ukrayna ilə sərhədə hərbi təlim adı altında taktiki qruplar yığır.**

Bunu Ukrayna ordusunun komandanı Ruslan Xomçak deyib. Onun sözlərinə görə, Rusiya ordusunu sərhəddə öz niyyətində nə qədər qəti olduğunu nümayiş etdirmək üçün artırır. O, bir neçə ildir Ukrayna sərhədində olan 28 tabor taktiki qrupuna 25-nin də əlavə ediləcəyini bildirib. Xomçak Rusiyanın 2014-cü ildən olan planlarının dəyişmədiyini və Ukraynanın istənilən cür provokasiyaya hazırlaşdığını söyləyib.

**MEHRİBAN**

# Öz çörək payını ehtiyacı olanlara verən şəhidimiz

***Vətən əziz və müqəddəsdir. Və bu Vətən torpağını göz bəbəyi kimi qoruyan, bu yolda canından keçməyə hazır olan, ömür yollarında əvəzsiz qəhrəmanlıqlar göstərən, tarixə silinməz izlər yazan, xariqələr yaradan övladlarını Vətən və xalq heç zaman unutmur. Onların adları və qəhrəmanlıqları yaddaşların ən dərin güşələrində özünə əbədi məskən salır. Çünki taleyi Vətəni sevmək, onun yolunda şəhid olub əbədiyyətə qovuşmaq hər oğula qismət olmur. Vətənə hədsiz məhəbbət, onun müqəddəs varlığına sitayiş məhz oğulları canından keçmək istəyinə aparıb çıxarır. Oğullar canlarını fəda edir, cavan ömürləri ilə vidalaşırlar. Onların əziz, unudulmaz xatirələri isə əbədi olan Vətənlə bir yerdə yaşayır, yaddan çıxmır.***

Belə tale daşıyan vətənpərvərlərdən biri də Məmmədov Məhəmməd Abbas oğlu idi. Məhəmməd Məmədov 7 noyabr 1998-ci ildə Ağcabədi şəhərində anadan olub. 2005-ci ildə Ş.Hüseynov adına Ağcabədi şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2016-cı ildə adı çəkilən məktəbi başa vurub. 2017-ci ilin yanvarında hərbi xidmətə yollanıb. 2018-ci ilin iyulunda ordudan tərxis olunub, doğma Ağcabədiyə qayıdıb. Bir xeyli Ağcabədidə, Bakıda çalışıb.

### Bakıda işləyən Məhəmməd

***müharibənin yaxın zamanda başlanacağını əvvəlcədən duymuşdu. O, bilirdi ki, əvvəl-axır, torpaqlarımızı düşmən tapdağından azad etməliyik. Bu işğal altında olan doğma yerlərimizi düşməndən təmizləməli, alnımızdan o ləkəni birdəfəlik silməliyik.***

Məhəmməd hər axşam evlərinə zəng edir, bərk-bərk tapşırırdı ki, birdən orduya çağırış gələr, məndən gizlədər, ya da gecikdirərsiniz.

Ön cəbhəyə getmək istəyi ilə ürəyi döyünən Məhəmmədin sonda səbri tükəndi. Sentyabr ayının 29-da könüllü olaraq iki gün əvvəl başlayan Vətən müharibəsinə qatıldı. Minaatan Məhəmməd Füzuli, Cəbrayıl, Zəngilan,



Qubadlı istiqamətində gedən gərgin döyüşlərdə fəal iştirak etdi.

7 noyabr 2020-ci ildə Qubadlıda düşmən mərmisinin qəlpəsi ondan yan keçmədi.

Məhəmməd yaralansa da, son nəfəsinədək vuruşdu və şəhid oldu. Bu igid, qorxmaz əsgər Ağcabədi Şəhidlər Xiyabınında dəfn olundu.

### Məhəmmədgilin ailəsi

ilə yaxından tanış oldum. Evləri elə onun vaxtı ilə oxuduğu 2 saylı məktəbin qarşı tərəfindədir. Qardaşı Əlizamin Məhəmməd ilə bağlı xatirələrini dilə gətirəndə kövrəldi:

***"Qardaşım üzdə çox şən, zarafatcıl olsa da, qəlbinin dərinliyində ancaq özünün yaxından gördüyü, tanıdığı bir kədərli, nisgilli yeri var idi. Çox qəribə xasiyyətə malik idi. Özünü şən, qayğısız göstərsə də içəridən nəsə onu sıxırdı, əzirdi. Mən bunu onun müharibədən qabaq tez-tez etdiyi zənglərindən başa düşdüm. Hiss etdim ki, o, rahat olmur, ürəyi işğal altında olan torpaqlarımızın yanındadır. Bir Allah bilir ki, müharibə başlananda necə sevindi. O, bizim qalib gələcəyimizə ürəkdən əmin idi. Cəbhəyə gedəndə heç həyəcanlanmadı. Gülə-gülə, sevinə-sevinə getdi. Sanki bir toya, bayrama gedirdi... Çox sadə, təvazökar, düşüncəli insan idi. Məndən yaşca kiçik olsa da, 13-14 yaşlarından məktəbdə oxumaqla bərabər işləyir, evə pul gətirirdi. Valideynlərimizə, ailəmizə maddi cəhətdən çox köməklik edirdi. Özünü çox yorma, işləmə deyəndə cavabı o olurdu ki, kişi evə qazanc gətirməlidir. Məhəmməd zəhmətkeş, halal bir insan idi."***

Anası Gülmirə söylədi ki, onun uşaq şıltaqlığına, dəcəlliyinə dözə bilmirdim. Bircə onu deyirdim ki, sən kimin adını daşıdığını unutma. Məhəmməd adına layiq ol. Oğlum həqiqətən də bu ada layiq oldu. Şəhid oldu. Bircə təsəllim var ki, o, Vətən uğrunda həlak oldu. Torpaqlarımız indi azaddır. Bunun özü hər şey deməkdir.

Məhəmmədin uşaqlıq dostu, müharibədən əvvəl onunla birgə Binə çörək zavodunda çalışan Rauf Talıbovun dedikləri:

***"Məhəmməd yaşına uyğun olmayan bir yetkin oğlan idi. Yaxın dost idik. Dərdimiz-sərimiz bir olurdu. Onunla söhbət edəndə adam kamilləşir, həyata tam başqa gözlə baxırdı. Çox sədaqətli, etibarlı, mərd dost idi. Dost yolunda hər bir çətinliyə dözürdü. Biz Binə çörək zavodunda çox da işləmədik. Məhəmməd bu az müddət ərzində zavodda öz davranışı, hərəkəti, söhbətləri ilə hamının dərin hörmətini qazanmışdı. O, hər şeyi, bizim görə bilmədiklərimizi də görürdü. Gözündən heç nə yayınmazdı. Olduqca diqqətli idi. Bir dəfə içəridə, zavodda işləyərkən pəncərədən zavodun qapısının yanında duran ana ilə balaca oğlunu gördü. Nə fikirləşdisə, tez iki isti çörək aparıb onlara verdi. Bizə hər gün işin axırında zavoddan 2 çörək pay verirdilər. Məhəmməd də həmin gündən öz çörək payını o, ehtiyacı olan ana və uşağa verirdi... Məhəmməd haqqında xatirələri danışmaqla qurtarmaz. Bir deyil, beş deyil. Təkcə onu deyə bilərəm ki, ürəyi çox böyük idi. Yumruğundan dəfələrlə böyük. Vətənimiz, torpaqlarımız barəsində söhbət düşəndə köksünü ötürərək, Bircə müharibə başlasa, hər şey düzələr" deyərdi...***

Müharibə həqiqətən də başladı. Və Ali Baş Komandan İlham Əliyevin başçılığı altında müzəffər ordumuz düşmən üzərində parlaq qələbə çaldı. Bu qələbəyə biz Məhəmməd Məmmədov kimi qorxmaz igidlərimizin axıtdığı qan bahasına nail olduq. Şəhid Məhəmmədin ölməz xatirəsi odur ki, heç zaman, heç kim tərəfindən unudulmayacaq, bu vətənpərvər əsgərin adı hər yerdə həmvətənləri tərəfindən anılacaq."

**Adil MİSİRLİ**

# Şuşanın fatehi Ramiq Tağıyev ölməzdir

**Şuşa! Şuşanın Azərbaycan tarixində xüsusi yeri var, Qarabağın tacı hesab olunur, qala-şəhərdir. Şuşa Azərbaycanın mədəniyyət mərkəzi, musiqi akademiyasıdır, tarixi-mədəni abidələri ilə zəngindir. Ermənistanın baş naziri Nikol Paşinyan qəbul edir ki, Şuşa Azərbaycan şəhəridir və əhalinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarətdir. İşğal dövrünə qədər bu şəhərdə daim azərbaycanlılar yaşamışlar. Düşmən Şuşanı zəbt etməklə şuşalıların, bütün xalqımızın ruhuna toxunmuşdu. Düşmənin kəsif iyini belə qəbul etməyən Şuşa Azərbaycan əsgərinin yolunu gözləyirdi ki, onu buxovdan azad etsin.**

Şuşa cəsur və qəhrəman əsgər və zabitlərimiz tərəfindən çətin döyüş tapşırıqlarının yerinə yetirilməsindən sonra azad edilib. Şuşanın yerləşdiyi çətin coğrafi şərait hərbi qulluqçularımızın işini bir qədər çətinləşdirsə də, onlar döyüş texnikasız sıldırım və keçilməz daş qayaları, meşə massivlərini aşaraq inanılmaz cəsarət və rəşadət, xüsusi peşəkarlıq göstərərək düşməni məhv etdilər, şəhərə sahib çıxdılar.

### Noyabrın əvvəlində

Daşaltı uğrunda şiddətli döyüşlər getdikcə yeni məcaraya yönəlirdi. Məğlub olacağını başa düşən düşmən gülləyə və mərmiyə qənaət etmir, arası kəsilmədən atəş açırdı.

Xüsusilə minamyot atəşləri təhlükəli idi. Baş leytenant Xəyyam Əzizovun manqası hər bir çətinliyə sinə gərir, nə düşmənin şiddətli atəşi, nə də qarşıda duran çətin vəzifə - Şuşa qala - şəhərin azad edilməsi üçün qəbul edilən mürəkkəb əməliyyat planı onu və əsgərlərimizi rihdan salırdı.

Çünki, Şuşanın azad edilməsi düşmənin süqutu, məğlubiyyəti demək idi. Ona görə də çarəsiz bir vəziyyətə düşərək vurnuxur, nə düşmənin döyüş texnikası, nə də çoxsaylı canlı qüvvəsi əsgərlərimizin qarşısını kəsə bilirdi.

Xəyyam həlledici döyüşdən qabaq əsgər yoldaşları gizir Ramiq Tağıyevə, baş gizir Tarzən Haşımova və digər döyüşçülərə dedi:

***- İgidlərim, qardaşlarım, biz bir neçə saatdan sonra Şuşa uğrunda döyüşə girəcəyik. Artıq bir neçə rayonu azad etmişik. Şuşa əməliyyatının zəferimizlə başa çatması bizdən çox asılıdır. Qarşımızda yüksəkliklər, çətin keçilən dağ-meşə cığırları durur. Biz sıldırım qayalar üzərindən qalxaraq, qətiyyətli həmlə etməklə düşməni məhv etməliyik. Unutmayın ki, sizin Şuşanın azad edilməsində göstərdiyiniz qəhrəmanlıq barədə çox danışılacaq və yazılacaq. Vətənin gözü bizdədir. Qələbə bizimlədir.***

Xəyyam Əzizovun döyüşqabağı nitqi döyüşçü dostlarınıqəti qələbəyə ruhlandırdı. Xüsusilə də gizir Ramiq Tağıyevə təsir etdi. O əsgərlərə müraciətlə dedi:

***- Komandirin tapşırığı bizə verilən bir əmrdir. Bu təkcə əmr deyil, Vətən qarşısında borcumuzdur. Biz Vətən yolunda şəhid olmağa hazır olmalıyır. Qələbə çox yaxındır, biz artıq Şuşanı da alacağıq, bayrağımızı orada dalğalandırıb Vətəni, xalqımızı sevindirəcəyik, düşmənin ədalətsiz işğalına son qoyacağıq...***

### Həlledici an gəldi

Ramiqin silahdaşlarına, can qardaşlarına dediyi sözləri onlar döyüşqabağı tapşırıq kimi qəbul etdilər...

Nəhayət, həlledici vaxt gəlib çatdı. Nə düşmənin atdığı mərmilər, nə də güllə yağışı, hər an gözlənilən ölüm qorxusu Vətən torpağının xilası uğrunda şir tək döyüşə atılmış yenilməz əsgərlərimizin qarşısını ala bildi. Əmr gəldi: "Şuşanın azad edilməsi uğrunda irəli!".



Döyüşün şiddəti artırdı. Şuşanın alınması Qarabağın alınması, düşmənin süqutu demək idi.

***Ermənilər döyüşdə böyük itki versələr də müqavimət göstərməyə cəhd edirdilər. Ancaq qəhrəman əsgərlərimizin qarşısında aciz idilər. Düşmən snayperinin gülləsi Xəyyam Əzisovun başındakı dəbilqəyə dəysə də sovuşub kənara düşmüş, komandirin beynini silkələmişdi. Buna baxmayaraq o döyüşü idarə edir, silahı yerə qoymurdu. Çünki qələbə yaxında idi, qələbədən doğun sevinci duymağa çox qalmamışdı.***

Ramiqin sərrast atəşi onlarla düşməni gəbərtmişdi. O, yaralıları döyüş meydanından çıxarır, sonra döyüşü davam etdirirdi. Ramiq Hadrut döyüşləri zamanı yaralı Tarzən Haşımovu iki dəfə xilas etmişdi. İndi isə...

O, düşmən gülləsindən şəhid olmuşdu.

Silahdaşını itirmək necə də ağır idi... Şuşanın fatehi Vətənə borcunu verərək, şəhidlərimizin qisasını alaraq şəhadətə qovuşmuşdu...

### Can verdilər, qan aldılar

Düşmənin atdığı minomyot qəlpələri Xəyyam Əzizovdan yan ötmədi. Onun bir ayağı ampultasiya olsa da qanaxmanın qarşısı alındı, ona ağrıkəsici iynələr vurdular.

**- Can, qardaş, qorxma, hər şey keçib gedəcək, - deyərək Ramiq Xəyyamı dalda bir yerə apardı. Özü isə yaralıları xilas etməkdə, onları atəş altından çıxarmağa davam etdi.**

Xəyyam çox qan itirimişdi, ürəyi bulanır, hərdən huşsuz vəziyyətə düşürdü. O yenidən özünə gəldi, bir qədər özünü yaxşı hiss etdi. Görünür, əcəl zəngi hələ çalınmamışdı. Xəyyam yanındakılardan soruşdu:

**- Bəs Ramiq hanı?**

Döyüş dostları huşsuz halda uzannmış Ramiqə baxıb suala göz yaşları ilə cavab verdilər.

**- Ramiq şəhid olub, - deyən əsgər yoldaşı Xəyyama təskinlik vermək istəsə də bunu bacarmadı.**

Kəlvəz kəndində yaşayan dayısı, bacısı oğlunu özü qədər istəyən Rasim Əhədov Ramiqin şəhid olması xəbərini eşidib dedi:

**- Məni özünə bu qədər niyə bağladın? Sənsizlik əbədi bir yük olacaq. Vətən, qələbə isə həmişə səninlə olacaq...**

Xəyyam dedi:

**- Gətirin Ramliqi mənimlə yanaşı qoyun, onsuz mən çətin ki, yaşayayam... Ramiq mənə qardaşdan da yaxın idi. Can-candan necə ayrıla bilər?**

Axşam olur. Xəyyam yuxu görür. Görür ki, Şuşea düşməndən təmizlənib. Şəhərdə onları gülçiçəklə qarşılayıb ehtiram göstərirlər. Kimsə deyir: "Biz 27 il idi ki, sizi gözləyirdik, harada qalmışdınız, əziz qardaşlarımız?"

Oyandı. Bir tərəfi bərk ağrı verirdi. "İlahi, nə günə qaldım? İndi mən bu ayaqla hara gedim? Niyə dostlarım məni ölməyə qoymadılar, dostlarımla birlikdə şəhid olmadım? Yox, mən Ramiqsiz yaşaya bilmərəm..."

**Ruhi sarsıntılar ona son qərarı verməkdə kömək etdi. Xəyyam sarğıları açdı. Getdikcə ölüm mələyi onu ağuşuna aldı, ruhu dostlarının, Ramiqin ruhuna qovuşdu...**

**İdris Şükürlü**



VAQİF BƏHMƏNLİ

# BAHAR SƏXAVƏTİ

## Bütöv sənətkar haqqında yarımçıq yazı

(əvvəli ötən şənbə sayımızda)

**Fəhmim məndən soruşur; bu modernizm və postmodernizm deyilən var ha, o, dünyanın hansısa bir məlum karxanasındanmı çıxarılır, yoxsa, fərqli üslubi yaradıcılıq mühitlərinin məhsulu, yekunu olan təcrübələrin terminoloji təsnifatıdır? Sual çox ciddidir, ona görə də onun cavabının tapılmasına daha çox o yaradıcı simalar cəlb olunmalıdır ki, heç olmasa "dimdiyinin sarısı" gedib...**

Mənə görə nə zamandan bəri Avropada "tüğyan edən" modernizm və postmodernizm istilahlarının mahiyyətinə uyğun gələn çalışmalar bizim yeni dövr Azərbaycan ədəbiyyatına (əlbəttə, öz zamanına görə vacib şərt və mənbəllər olan Avropa və rus ədəbi təcrübələrindən bəhrələnməklə) heç də yad deyil. Ədəbiyyatımız Mirzə Fətəli Axundovun "Kəmalüddövlə məktubları", "Aldanmış kəvakib" traktat və povesti, üstəgəl, ədibin altı komediyası, Cəlil Məmmədquluzadənin "Ölülər" dramı, Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları", "Pəri cadu" pyesi, Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanı, Hüseyn Cavidin yaradıcılığının əsas qismi, Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" , Səməd Mənsurun "Həpsi rəngdir" şeirlərinin timsalında ən yeni, modern yazı üslublarını böyük bir ləyaqətlə qeydə alıb. Belə olmasaydı, sonrakı mərhələlərdə Azərbaycan ədəbiyyatında "Qılınc və qələm" (M.S.Ordubadi), "Şamo", "Mahtəban" (S.Rəhimov), "Budağın xatirələri" (Ə.Vəliyev), "Pərvanə" (M.İbrahimov), "Rənglər" (R.Rza), "Geriyə baxma, qoca" (İ.Əfəndiyev), "Dəli Kür"(İ.Şıxlı, "İdeal" (İ.Muğanna), "Yamacda nişanə" (S.Əhmədov), Ə.Əylisli, Anar, Elçin, Yusif Səmədoğlu, İ.Məlikzadə, M.Oruc, M.Süleymanlı... və Seyran Səxavətin bütün yaradıcılığı... meydana çıxa bilməzdi. Lap mübahisə doğursa da deməliyəm ki, xüsusən bizim milli nəsrimiz daim dünyanın qabaqcıl ədəbi prosesinin içində, onun tərkib hissəsi olmuşdur. Bu, qədimlərdə də belə idi, indi də belədir... Deməli, ədəbiyyatımız tarixən mövcud ədəbi metod və cərəyanları təcrübi olaraq həmişə hiss etmişdir, deməli, ədəbiyyatımız istisnasız olaraq bütün ədəbi məktəb-ədəbi cərəyan təcrübələrini vaxtında və vədəsində dəyərləndirmişdir və indi də məhz yaxşıdan yararlanan bir ədəbiyyatın varisidir. Seyran Səxavət isə mənim nəzərimdə bütün bu mərhələdən keçən yazıçıların varisi olmaqla bərabər, nəinki modern, postmodern yazıçıdır, bütün bunlarla bərabər, o, izmlər çərçivəsinə sığmayan, yaxud bütün izmləri öz cümlələrinin, ideyalarının içində ehtiva edən həqiqi, doğal bir yazıçıdır (U.Folkner, A.Kamyu, Ç.Aytmatov, Q.Markes, Ə.Əylisli, Y.Səmədoğlu, Anar, Elçin... kimi). Seyranı digər ədəbi cərəyanlarla birləşdirən də, onu digər mənsubiyyətlərdən ayıran da məhz budur: gerçək yazıçı olmaq, həqiqətən yazıçı olmaq! Fırçasız rəssam, səssiz xanəndə, ayaqsız rəqqas, yəni ilhamsız sənətkar olmaz!

Seyran Səxavət, o şəxs ki, şeirlərində məxmər kimi yaz bürüncəklidi, o şəxs həm də Əli qılıncından iti nəsr cümlələrinin yaradıcısıdı. Seyran Səxavət öncə özününkülərin - M.F.Axundov, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev... daha sonra Servantes, Hüqo, L.Tolstoy, Dostoyevski, Şoloxov, Şukşin, Əziz Nesin, Nodar Dumbadze, Ç.Aytmatov qüdrətini yaratmış qələmlərin belindən gələn, elə onlara bərabər bir nasirdir. Seyran Səxavəti sələflərinə ideal qovuşdurur, Seyran Səxavəti ustadlarından üslub ayırır.

### 7.

**Ədəbi ideal, ali, bəşəri dəyərlərə əsaslanır. Seyran Səxavət bu fürsəti elə ilk nəsr əsərində yaxalayıb. Belə ki, "Hamı elə bilirdi"də, həcmcə hekayə, məzmunca roman çəkisi daşıyan bu əsərdə baş qəhrəman nə Qara Bəhrəm, nə İsmayıl oğlu Bəylər, nə də hay aparıb hay gətirən Şirindi - baş qəhrəman sosial vicdandı, başqa sözlə, insanın cəmiyyət qarşısında öz üzərinə götürdüyü öhdəlikdi. Yazıçı Seyran Səxavət elə ilk nəsr əsərində quşu gözündən vurub. Ola bilər ki, müvafiq ədəbi təhlil imkanı olmayan oxucular üçün anlaşılmaz görünən yuxarıdakı mülahizəni Seyran Səxavət adam dilində, əsl yazıçı dilində elə mükəmməl şəkildə ifadə edib ki, nəzəri mülahizə vizuallaşıb. "Hamı elə bilirdi" hekayəsi kimi onun "Çayçı Rəşid" əsəri də ustad bir rejissor tərəfindən çəkilən film kimi cazibədardır. Yeri gəlmişkən, həmin hekayə çap olunanda, mən tələbəydim və hansısa bir tətilə görə kəndə getmişdim. "Ədəbiyyat və incəsənət" qəzeti gəldi. Xatırlayıram, ikimərtəbəli kərpic evimiz - anam, bacılarım, mən, hava qaralan vaxtı, "İliç lampıçkası"nın sarımtıl işığı. Hekayəni qəzetdən bir yerdə oxuyurduq. Ailəmiz həmin gecə həqiqətən də xoşbəxt oldu. Seyranın hər cümləsinə uğunub gedirdik. O vaxt Seyranın "Çayçı Rəşid"indən özgə bir əsər yox, yalnız anamız söyləyən nağıllar bizi belə bəxtəvər edə bilərdi...**

İstedadlı yazıçılarımızla bu sırada Seyran Səxavət milli ədəbiyyatımızda hekayə janrının bədii-estetik imkanlarının genişlənməsində müstəsna rol oynamışdır. O, ilk romanı ("Daş evlər"), ilk povestləri ("Dar köynək", "Gözü işığa düşən adam", "Qapıların o üzündə qalan dünya", "Bir stəkan hava", "Qızıl teşt") ilə paralel olaraq ötən əsrin 70-80-ci illərindən bugünə qədər 30 hekayə yazıb. Janrın ölçüləri baxımından irihəcmli hekayələr adlandıra biləcəyimiz bu əsərlərin hər birinin ilk dəfə çap olunanda doğurduğu rezonans, yazıçının yaradıcılığını izləyənlərə yaxşı məlumdur. Şeirlərində olduğu kimi, Seyranın hər bir nəsr əsərinin meydana gəlməsi bədii yazı prosesinin yekunu olmaqla, bərabər, həm də hadisədir, sanki onlar yazıldığı vaxtda... baş verir.

***Seyran Səxavətin bütün nəsr əsərləri problematika daşıyıcısıdır. Onların hər birində bir məsələ qoyulur, həm də çox ciddi məsələ və qoyulan o məsələ, lap riyaziyyatdakı kimi həll olunur. Yazı xronologiyasına görə ədibin üçüncü hekayəsini - "Alça çiçəyi"ni (1976) xatırlayaq. Dəli Dadaş kolxoz bağındakı yeganə alça ağacının qoruqçusu, Abış kişinin günahının məhsuludur. Dadaş hələ Dəli Dadaş olmayanda, uşaq vaxtı ağaca çıxıb alça dərdiyinə görə məhz Abış kişi bu qonşu tifilini elə döymüşdü ki, uşağın başına hava gəlmişdi.***



Dəlilər də böyüyür, yaşa dolur, elə lalkarlar da. Aradan illər keçəndən sonra Abışın qızı Solmaz ərgənlik yaşına çatmışdı, camaat, el ağsaqqalları, sanki bilərəkdən, sanki Abış kişinin qədim günahını xatırlayaraq onun lalkar qızı Solmazın elçiliyinə gəlmişdilər. Qızı istəyirdilər, kimə kimə, dəli Dadaşa. Bu dəfə Abışın başına hava gəlir, amma xeyri yoxdur, ağsaqqallar ağır şərt qoyublar, ya Abış kişi "hə" deyib qızı verməlidi, ya da kənddən çıxmalıdı...

Şəhd-şirəli əsərin mənim tərəfimdən bəsit şəkildə söylənilən süjetindən də hər şey aydındır; dünyada ədalətsizlikdən, zalımlıqdan, başqa insanın haqqını tapdalamaqdan böyük günah yoxdur və hansı yolla olur-olsun, günahın cəzası kəsilir.

***Bu ruh üstündə köklənən iyirmidən çox hekayəni yazıçı təqribən 10 il ərzində yazıb və sonra isə görünür, roman, povest və dram yaradıcılığı ilə əlaqədar ümumiyyətlə, hekayə janrından aralı qalıb. Şərti olaraq 1976-86-cı illərdə yazılanları S.Səxavətin "kiçik janr" üzərində işinin birinci mərhələsi adlandıraq. Məhz həmin birinci mərhələ bizim ədəbiyyatımızı "Parovozsürən", "Ət taxtası", "Qatil", "Bioloqun yazı masası", "Yüzilin kişisi", "Yaz oğrusu", "Madonnanın əri Fərəməz" kimi əsərlərlə zənginləşdirmişdir.***

Mən çox ürəklə bu hekayələri və bir çox povestləri S.Səxavətin "Daş evlər" romanının balaları adlandırardım. Yazıçının 1990-cı illərin ikinci yarısından başlayaraq qələmə aldığı povest, roman və hekayələr ədibin dəst-xəttini, öz ideyalarına, ədəbi təfəkkürünə sadiq qaldığını göstərməklə yanaşı, oxucu daha dərinləşmiş, daha yeni bir yazıçı ilə qarşılaşır. Bu dəyişməni izləmək üçün Seyran Səxavətin dörd hekayəsini - "Boynu əyri kişi", "İt intervyusu", "Cəhənnəm", "Persona non qrata" hekayələrini, "Nekroloq", "Yəhudi əlifbası" romanlarını nəzərdən keçirmək olduqca faydalıdır. Adıçəkilən əsərlər yalnız Seyran Səxavətin deyil, son otuz ildə milli nəsrimizdə aparılan fikir, istedadlı axtarışların ən uğurlu örnəkləri hesab edilə bilər.

### 8.

***Seyran Səxavətin hansısa bir əsər üzərində işləyərkən, fərqi yoxdur o əsər sənədlidir, yaxud təxəyyülün məhsuludur, onun çoxlu sənəd araşdırdığını, masa üzərinə qalaq-qalaq kitablar yığıldığını, sözün düzü, görməmişəm. Onu hiss etmişəm ki, yazı ərəfəsində o, hədsiz bir ilhamla dolur, birnəfəsə yazır, belə görünür, onda redaktə daxildə, düşüncədə vərəqə köçənə qədər beyində, nə bilim, bəlkə, ürəkdə aparılır. Hər halda bu xırda məsələ ədibin yazı vərdişi ilə bağlıdır. Amma indiki halda sözümün mənası bundan ibarətdir ki, Seyranın fitrətən böyük və möhkəm yazıçı yaddaşı var, bəlkə də, Seyranın içində yazıçı istedadı deyilən nəsnə elə yazıçı yaddaşıdır. Bu mənada Seyran Səxavət çox şanslıdır. İndi mən faiz çıxara bilmərəm, bizim Qarabağ mühitinə, o yerlərin coğrafiyasına, insanlarına bələd olan və yazıçının əsərlərini oxuyan hər kəs dərhal təsdiqləyə bilər ki, onun qəhrəmanlarının əksər hissəsinin prototipləri var. Və o prototiplərin hamısının yanında dəyişməyən bir prototip var, o da ustad yazıçı Seyran Səxavətin özüdür.***

S.Səxavətin zahirən sənədli görünən və ədəbi came tərəfindən belə dəyərləndirilən "Bəhanə" və "Palıd toxumu" romanlarının da üzərindən sükutla keçilə bilməz. Hər iki roman yazıçının qəlbində, qələmində uzun illər bundan əvvəl göyərən estetik fəhmin yekunudur, bir az açıq deyək, əgər yadınızda varsa, əlbəttə var, Seyran Səxavət iki qəribə, dialoq-hekayə "Ağdamda Qədir Rüstəmovla atüstü söhbət" (1985) və son illərdə "Rəmiş" əsərlərini qələmə almışdır. Oxucular tərəfindən, necə deyərlər, böyük hərarətlə qarşılanan hər iki hekayət həm sənədli idi, həm də yox, həm müsahibə idi, həm də hekayə. Daxildəki yazı azadlığı, daxildəki nasir demokratizmi S.Səxavətə ədəbiyyatımızda az işlənən dialoq-dedim-dedi formasının ən mükəmməl nümunələrindən ən azı ikisini yaratmağa yol açmışdır. Həmin yazı tərzi, üslub, orijinal bədii həll yanaşması yazıçının "Bəhanə", "Palıd toxumu" romanlarında daha geniş planla ifadə olunmuşdur.

### 9.

Seyran Səxavət yaradıcılığını dəyərləndirmək baxımından daha bir məqamı qeyd etməsək olmaz, yazıçı unikal təsvir ustasıdır. Onun ədib yozumunda çöl və iç anlayışları var; o, hansı məharətlə ətrafı, doğal çevrəni, məsələn, meşəni, dərəni, gədiyi, küçəni, ümumən təbiəti, ümumən sosial sferanı - kəndi, şəhəri təsvir edib içinə gətirirsə, eyni ustalıqla insanın, canlandırdığı surətin və özünün içindəki ruhi ovqatı çölə çıxarmağı bacarır. Nə bilək, bəlkə belə məqamlarda nasir Seyran Səxavətə şair Seyran Səxavət yardımçı olur? Təsviri ricətlərin ardınca gələn dialoqlar isə bitib-tükənmək bilmir. Bax o zaman düşünürsən ki, o Seyran Səxavət bizim nəsrimizdə mükəmməl dialoq quran, insanların insanca danışığını ümumən mətnə yükləməyə gücü çatan nadir qələm sahiblərindən biridir. Qəhrəmanlarından birinin dediyi kimi, o, nəinki insanı, yolu, suyu... danışdırır, insanı irəli aparan bir ehtiyac varsa, hətta itdən də intervyu almağa qadirdir.

***Seyran Səxavətin şeir, nəsr, dramaturgiya yaradıcılığı, yəni onun ədəbi fəaliyyətinin hər bir istiqaməti ayrıca tədqiqata layiqdir. Onun hələ ki lap sonda ortaya qoyduğu "Qaçhaqaç" romanını (iki kitab) isə bütöv bir ədəbiyyat institutunun araşdırmağına dəyər. Seyran Səxavətin "Qaçahqaç" əsəri avtobioqrafik romanı bu janrın nə qədər böyük imkanlara malik olduğunu dünya səviyyəsində nümayiş etdirir. "Qaçahqaç" milli muzeylərimizin ən elitar guşəsində məxsusi ekspozisiya olmağa layiq elə bir əsərdir ki, orada 60-70 illik bir dövrdə Azərbaycan və onun insanı necə olub, o insan nə düşünüb, necə yaşayıb, nəyi sevib, nədən sarsılıb, onun təmas qurduğu ən parlaq şəxsiyyətləri kimlər olub, bax bütün bunlar barədə mötəbər, həqiqi dəlillər vardır. Bizim ədəbiyyatda Əli Vəliyevin "Budağın xatirələri", Anarın "Sizsiz", Əkrəm Əylislinin "Əylisdən Əylisəcən" romanları və s. ilə bir sırada Seyran Səxavətin "Qaçhaqaç" romandilogiyası da, belə deyək, doyumsuz bir ləzzətlə oxunur və tərcümeyi-halın sənətkar qələmi ilə necə böyük ədəbiyyata çevrildiyini sərgiləyir!***

### 10.

Əzizim Seyran Səxavətin 75 illik yaşına həsr etdiyim bu yazıya nöqtə qoymaq... istəmirəm.

Çünki böyük yazıçının yaradıcılığında münasibət bildiriləsi məqamlar o qədər çoxdur ki, onların hər biri gəl-gəl deyib adamı danışmağa, deməyə, düşünməyə çağırır. Bununla belə nəzərə alıram ki, Seyran Səxavət haqqında, demirəm çox, heç az da yazılmayıb. O yazılarda yazıçı dostumu anlatmaq üçün irəli sürülən mülahizələr yetərincədir. Nə xoş ki, onun yaradıcılığı barədə söz açanların hamısı Seyran Səxavət adından sonra HƏQİQİ təyinini işlətmiş və o uca kəlmənin ardınca ŞAİR, NASİR, ŞƏXSİYYƏT, VƏTƏNDAŞ, DOST ismini sıralamışdır!

Bu "sönük" yazının sonunda, həmişə olduğu kimi, əziz dostuma parlaq şəkildə "sataşmaq" istəyir, ondan ilhamlanıb yazdığım bir zarafat şeirini əlavə edirəm.

### SEV İNDİ

*Evinizin başına*
*mənim kimi dolanan*
*barını da sevirəm.*
*Keçən il bağçanızda*
*məni dilintək sancan*
*arını da sevirəm*
*Qonşunuzda yaşayan*
*o sifəti qırışmış*
*qarını da sevirəm!*

**Seyran Səxavət.**

***

**Fərq bilmədin qızların qarasında, ağında;**
**bütün sevdiklərinin yarısını sev indi.**
**Seyran, "sevirəm" dedin gəncliyin ilk çağında**
**Buyur, verdiyin sözün ağrısını sev indi!**

**Yazılanı kimsənin həddi nə düzəltməyə;**
**Yara yoxsa, nə hacət həb, kinə düzəltməyə?**
**Gücün çatırsa yenən qəddini düzəltməyə**
**Sevdiyinin uçulan barısını sev indi!**

**Sən ki icad etmədin sevgi adlı bu nərdi,**
**Xanalara yol açan Allah deyil ki, zərdi!**
**Ayrılıq zəhrimarın ağı cana zərərdi,**
**Həsrətə sumax çilə, sarısını sev indi!**

**Ardınca düşüb müdam hanı mələdiklərin?**
**Qisməti budur bəlkə, tənhaların, təklərin?**
**Uçdular - beş barmaqla bala bələdiklərin -**
**Eşqin dilintək sancan arısını sev indi!**

**İnsan sevgitək uca - ona min istək azdı -**
**Azsaydı yal-yamacda... Seyran, Seyran olmazdı.**
**Solmayan xalis eşqin adı, şəksiz, Almazdı,**
**Sevginin ən vəfalı qarısını sev indi!**

# Gerçəkləşən arzular



Rahib Qarayev

**(Mərhum polis əməkdaşı Şəmsibala Ağayevin xatirəsinə)**

## (Sənədli hekayə)

1995-ci ilin isti yay günlərinin birində qəzetimizin redaktoru məni yanına çağırıb dedi:

-Hazırlaş, Qusara gedəcəksən, - ezamiyyətə.

Ertəsi gün mən artıq Qusarda idim - rayon Polis Şöbəsinin inzibati binasının qarşısında. Gəlişim nahar fasiləsinə təsadüf etdiyindən binaya daxil olmadım, bir kölgəlik tapıb fasilənin bitməsini gözlədim...

Vaxt tez keçdi, fasilə bitdi. Artıq əməkdaşlar iki-bir, üç-bir iş yerinə qayıdır və məni - "baş leytenant" rütbəsində olan "yad" polis zabitini görüb ayaq saxlayır, salam verib keçirdilər. Bir az sonra "polis baş serjantı" rütbəsində olan bir gənc yaxınlaşdı, lakin o, həmkarlarından fərqli olaraq nə ayaq saxladı, nə də salam verdi. Eləcə gözlərimin içinə baxa-baxa keçib getdi. Onun bu saymazlığı xoçuma gəlmədi əlbəttə ki. O da öz növbəsində sanki səhv etdiyini başa düşübmüş kimi tez geri qayıtdı və qarşımda dayanıb şirin ləzgi ləhcəsi ilə soruşdu:

-Bakıdan gəlmisən?

-Bəli, - dedim.

-Qarayev Rahib?

-Bəli.

-Məni tanımadın?

-Yox, tanıya bilmədim.

-Mən Ağayev Şəmsibala.

-Lap yaxşı, Şəmsibala.

-Yenə də tanımadın məni?

-Yox, tanıya bilmədim.

-Mən Ağayev Şəmsibala.

-Çox gözəl, Şəmsibala, amma doğurdan da tanıya bilmədim səni - deyib, bu dəfə mən sual vermək istəyirdim ki, yenə də sualı özü verdi?

-Kursda neçənci ildə olmusan?

-1985-ci ildə.

-Yenə də məni tanımadın? Axı mən də həmin il orada təhsil almışam.

İndi hər şey aydın oldu. Belə ki, hər ikimiz Daxili İşlər Nazirliyinin Sıravi və kiçik rəis heyəti hazırlayan məktəbində eyni vaxtda ilkin hazırlıq kursu keçmişik. Ancaq ayrı-ayrı qruplarda təhsil aldığımızdan, mən onu o qədər də yaddaşımda saxlaya bilməmişəm.

Əl verib qucaqlaşdıq. Hal-əhval tutduq. Məlum oldu ki, Şəmsibala o vaxtın ifadəsi ilə desək, müvəqqəti saxlama təcridxanasının rəisidir. Gecəni Qusarda qalacağımı biləndə isə dedi:

-Axşam mənim qonağımsan.

Növbətçi zabit gəlişim barədə rayon Polis Şöbəsinin rəisinə məruzə etdi. Rəis məni kabinetinə dəvət edib hal-əhval tutdu. Rayon ərazisində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini, həmçinin cinayətkarlıqla mübarizə tədbirləri barədə "Mübariz keşikdə" qəzetinə məqalə hazırlayacağımı biləndə isə aidiyyəti xidmət sahəsi rəhbərlərinə tapşırıqlarını verdi və onu da əlavə etdi ki, axşam yeməyini birlikdə yeyəcəyik...

Həmin illərdə təkcə Qusar rayonunda deyil, bütövlükdə yenicə müstəqilliyini qazanmış respublikamızın hər yerində əməliyyat şəraiti gərgin idi. Buna baxmayaraq bu sərhəd rayonunda kriminogen durum tam nəzarətdə saxlanılır, həyata keçirilən uğurlu əməliyyat tədbirləri öz səmərəli nəticələrini verirdi. Bir sözlə, yazılası, qələmə alınası çox maraqlı faktlar vardı...

Axşamın necə düşdüyünü hiss etmədim. Təxminən saat 20:00 radələrində rəis mənim üçün ayrılmış iş otağına gəlib dedi:

-Bəsdir yazıb-pozduğun, yol gəlmisən, gedək birlikdə şam edək.

Mən bu səmimi dəvətə görə təşəkkürümü bildirib əlavə etdim ki, axşam Şəmsibalanın qonağıyam.

Rəis soruşdu:

-Şəmsibala kimdir?

-Sizin əməkdaş, müvəqqəti saxlama təcridxanasının rəisi - dedim.

-Başa düşmədim, sizin nə əlaqəniz var Şəmsibala ilə? - rəis təəccüblə soruşdu.

Mən 5-6 saat əvvəl, Şəmsibala ilə olan söhbətimizi danışdım. Bir az güldük və razılaşdıq.

O gecə rayon mərkəzindən bir qədər kənarda - meşənin içərisində yerləşən restoranda yaxşıca şam etdik, deyib-güldük, 10 il əvvəl bizə ilkin hazırlıq kursu keçmiş müəllimlərimizi xatırladıq. Elə buradaca Şəmsibala "çox qiymətli bir məlumat" əldə etdi. Öyrəndi ki, təxminən 20 gündən sonra - lap dəqiqi iyulun 1-də mənim 35 yaşım tamam olacaq. İsrarlı şəkildə yubileyimi Qusarda keçirməyimi xahiş etdi. Dedi ki, Qusarda səfalı yerlər çoxdur, meşəyə gedib bir qoç kəsər, yaxşıca yubiley keçirərik. Düzünü deyim ki, ürəyində Laçın nisgili daşıyan adam kimi təbiət qoynuna, meşəyə getmək təklifinə laqeyd yanaşa bilmədim. Həm də çörək kəsmişdik artıq, etiraz edə bilməzdim.

İyulun 1-də həqiqətən də ailə-uşağımla Qusara gəldim. Şəmsibala da, ilk dəfə görüb-tanış olduğumuz ömür-gün yoldaşı Nabat xanım da bizi yüksək qonaqpərvərliklə qarşıladılar. Hətta qohum-qardaşları da "Şəmsibalanın dostu gəlib" deyərək pişvazımıza çıxdılar. Evdən xalça-palaz, samovar, kabab şişləri götürüb üz tutduq Cağar tərəfə - təbiətin qoynuna. Qoç həqiqətən də kəsildi, məclis quruldu...və həmin gün iki polis əməkdaşı arasında əbədi bir dostluğun təməli qoyuldu.

Bu yubileydən 3 ay sonra - oktyabrın 2-də üç qız atası olan Şəmsibalanın ocağında bir oğlan övladı dünyaya gəldi. Adını Murad qoyduq.

"Nağıl dili yüyrək olar" - deyiblər. Yel qanadlı illər ömrümüzdən şox sürətlə keçib getdi. Şəmsibala daxili işlər orqanlarındakı xidmət illərini uğurla başa vurub təqaüdə çıxdı. Murad isə böyüyüb orta məktəbi bitirdi və ilk işi Vətən qarşısındakı əsgəri borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanmaq oldu. 1 il 6 ay rəşadətli Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət edib ehtiyata buraxıldı. 2020-ci ilin sentyabrında isə... 30 ilə yaxın bir vaxtda işğalda saxlanılan torpaqlarımızın azad olunması məqsədilə aparılan Vətən Müharibəsi zamanı əlinə silah götürüb döyüşə yollanan ilk qusarlılardan oldu.

Hərbi biletində aşağıdakı qeydlər var:

-27 sentyabr - 11 noyabr 2020-ci il tarixlərdə Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda aparılan döyüşlərdə taqım komandiri kimi iştirak etmişdir.

"N" saylı hərbi hissə komandirinin 31 dekabr 2020-ci il tarixdə imzaladığı "Fəxri fərman"da isə bircə cümlə yazılıb: "Ağayev Murad Şəmsibala oğlu Vətən Müharibəsində fəal iştirakına görə təltif olunur".

Beləcə, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında aparılmış 44 günlük Vətən Müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşmüş 26 yaşlı Murad düz 100 günün tamamında Silahlı Qüvvələrdən tərxis olunaraq qalib əsgər kimi Qusara qayıtdı.

Təəssüf ki, atası - birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş Şəmsibala Ağayev gözünün ağı-qarası olan tək oğul övladının bu qalibiyyətini görə bilmədi. Murad tərxis olunanda artıq 2 ay idi ki, o, dünyasını dəyişmişdi...

Heç demə, sağlığında Murada qız da gözaltı edibmiş Şəmsibala. Anası Nabat atasının arzusunu dilə gətirəndə Murad heç də tərəddüd etməyib. Yalnız onu deyib ki, xeyir-duamızı atamızın qardaşı kimi tanıdığımız Bakıda yaşayan əmimiz versin.

Koronovirus (COVİD-19) infeksiyası ilə əlaqədar ölkə ərazisində tətbiq olunmuş karantin rejiminin tələblərinə tam riayət edilməklə "Novruz"un ilk günündə iki ailədə bir nişan sevinci yaşandı - polis çörəyi ilə böyümüş qeyrətli bir oğulun nişanının sevinci. Bu, ata arzularının da gerçəkləşdiyi məqam idi...

Xoşbəxt olsunlar!

**Quba-Qəçrəş**

# "Gəlir 3 milyon manatadək yüksəlib"

**Onlayn alış-veriş internet vasitəsilə hər hansı məshulu satmaq və bu məhsuldan yararlanmaq deməkdir. Yəni malı dükandan deyil, internet üzərindən sifariş verərək alırıq. COVİD-19 pandemiyasının tüğyan etdiyi bir vaxtda onlayn alış-veriş mövzusu daha da aktuallaşıb. Bəs bu sahədə mövcud vəziyyət qaneedicidirmi?**



Elektron ticarət məsələləri üzrə mütəxəssis Çingiz Pirizadənin sözlərinə görə, Azərbaycanda 2020-ci ilin mart ayından etibarən onlayn satışların payı kəskin artıb: "Heç kim heç vaxt ölkəmizdə düşünə bilməzdi ki, hər hansısa bir yemək məhsulunu haradansa sifariş edəcək və həmin sifarişi restorandan onun üçün gətirəcəklər. Həmin şəxs də məhsulu əldə edəcək. Hazırkı dövrdə evdən çölə çıxmadan, evdə oturub işləyərək onlayn məhsullar sifariş verə bilirik. Məsələn, hansısa yeməyi elektron ticarət platforması üzərindən əldə etmək olar.

Onlayn satışın müsbət və mənfi tərəfləri var. Müsbət tərəfi, dediyim kimi, insanların rahat şəkildə nəyisə əldə etməsidir. Mənfi tərəfi isə insanlar sifariş verdiklərinə toxuna bilmirlər. Bununla yanaşı insanlarda kartla ödənişlərlə bağlı inamsızlıq da var. İnsanların bəziləri kartla ödənişlərə o qədər də güvənmir, inanmırlar. Bildiyimiz kimi, bankların özlərinin təhlükəsizlik siyasəti var. Hansı ki, o, kartla ödəniş zamanı təhlükəsizliyi təmin edir və insanlar təhlükəsizlik serverlərindən istifadə edərək istədikləri ödənişləri həyata keçirə bilərlər". Mütəxəssisin sözlərinə görə, Azərbaycanda onlayn alış-veriş ən çox elektronika məhsullarının satışı sahəsində nəzərə çarpır: "Elektronikadan sonra geyimlər, qida məhsulları üstünlük təşkil edir. Ki, insanlar onlayn satış zamanı bu məhsulları daha çox sifariş verirlər.

Ümumiyyətlə, onlayn satış sərfəlidir. Müasir dövrümüzdə biz komfort zonamızdan kənara çıxmaq istəmirik. Ona görə də, onlayn satışdan yararlanır, internet üzərindən sifarişlər veririk. Bir az öncə onlayn satışın müsbət tərəflərindən danışdım, biznesmenlər üçün də onun müsbət tərəflərini vurğulayım. Müsbət tərəfindən biri ondan ibarətdir ki, daha az kapital sərf olunur. Məsələn, hansısa bir dükan açarkən ona xərclənən pul daha çox olur. Lakin onlayn satışda biznesin qurulması üçün maddi vəsait bir o qədər də yüksək deyil. Onu da qeyd edim ki, ötən illərlə müqayisədə hazırda onlayn satışdan əldə olunan vəsaitin özü yüksəkdir. Bunu Mərkəzi Bankın hesabatlarından aydın görmək olar. Belə ki, əvvəllər onlayn satışdan əldə olunan gəlir 1-2 milyon manat idisə, pandemiya dövründə bu məbləğ 3 milyon manatadək yüksəlib".

**Bəs görəsən, insanlar necə onlayn alış-verişdən razıdırlarmı? Üz tutduq paytaxt sakinlərindən suala cavab tapmağa. Onların bir qismi söylədi ki, məhsullar bəzən gec gəlir, onlayn satışda növbələr həddən artıq çoxdur və ona görə də onlayn alış-veriş əlverişli deyil, bir qismi onlayn satışın uğurlu olduğunu deyib pandemiya dövründə onlayn alış-verişə üstünlük verilməsinin tərəfdarı olduğunu dilə gətirdi. Yerdə qalanlar isə ödənişlərin təhlükəsizliyi məsələsini qabartı. Həmin insanlar qeyd etdi ki, onlayn satışlar təhlükəsizliyə tam təminat vermir. Belə ki, müəyyən zaman kəsiyində kibertəhlükəsizlik baxımından şəxsi məlumatları oğurlana bilər. Bu düşüncədə olan insanlar söylədilər ki, onlar onlayn satışdan istifadə etmirlər. Bizim fikrimizcə isə, onlayn alış-verişə üstünlük vermək lazımdır. Son günlər koronavirusa yoluxma hallarının artdığını nəzərə alaraq onlayn alış-veriş etmək vacibdir. Qaydalara riayət edərək canlı təmasları azaltsaq, COVİD-19 bəlasından da tez bir zamanda yaxa qurtararıq.**

**Rövşən Tahir**

# "Apple" yeni əməliyyat sistemlərini təqdim edəcəyi tarixi açıqlayıb



**"Apple" şirkəti 2021-ci ildə yenidən onlayn formatda baş tutacaq illik Ümumdünya Developerlər Konfransının (WWDC) keçiriləcəyi tarixi açıqlayıb. Tədbir iyunun 7-11-də keçiriləcək.**

Tədbirdə yeni cihazların təqdimatı gözlənilməsə də, "Apple" cihazları üçün yeni nəsil əməliyyat sistemlərinin son versiyaları təqdim olunacaq. O cümlədən "iPhone" smartfonları üçün "iOS 15", "iPad" tabletləri üçün "iPadOS 15", "Apple" noutbukları və kompüterləri üçün "macOS 12", "Watch" "ağıllı" saatları üçün "watchOS 8" və "Apple TV" multimedia konsolu üçün "tvOS 15" nümayiş olunacaq.

# MÜASİR AZƏRBAYCAN REALLIĞININ ŞƏKİ NÜMUNƏSİ

**Bütün çətinliklərə, dünyanı çaşdıran, silkələyən COVİD-19 pandemiyası kimi qorxunc hadisələrə baxmayaraq 2020-ci il respublikamız üçün sanki baş verənləri unutdura biləcək qədər uğurlu keçdi. Bu müstəsna qürur və iftixar hissini, yaşamını bizə Müzəffər Ordumuz və onun Ali Baş Komandanı İlham Əliyev bəxş etdi. Vətənin hüdudları və torpaq məsələlərində hər dəfə məğlubiyyətlə sanki əbədi barışmış kimi görünən Azərbaycan bu dəfə möhtəşəm qələbə ilə dünyanı heyrətə gətirdi. Və bu ölkənin, bu dövlətin rəhbəri, bu xalqın lideri əfsanəvi şəxsiyyət olaraq hər bir azərbaycanlını qürur zirvəsinə ucaltdı. Qədim Şəkidə də bu sevinc dalğa-dalğa yaşandı və yaşanmaqdadır.**

Son illər təcrübəli və ziyalı bir dövlət məmuru olan Elxan Usubovun prinsipial və yaradıcı fəaliyyəti, sakinlərin zəhmətsevərliyi, el-oba məhəbbəti və təəssübkeşliyi nəticəsində Şəki rayonu kəndli-şəhərli yeni bir inkişaf mərhələsindədir. Yəni hər sahədə inkişaf, hər sahədə tərəqqi! Bütün bunlar həm də Ulu Öndərin Azərbaycan sevgisi, Azərbaycan arzusu idi...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin ən qədim bölgələrindən biri olan Şəkinin inkişafına həmişə xüsusi önəm verir. Bu səbəbdəndir ki, cənab Prezident son illər Şəkinin qədimlik üzərindən modern bir görkəm alması, kəndlərin daha da müasirləşdirilməsi, turizmin inkişafı ilə əlaqədar müxtəlif sərəncamlar imzalamış, vətənin bu gözəl diyarına çoxlu işgüzar səfərlər də etmişdir.



Pespublikamızın ən iri aqrar rayonlarından biri olan Şəkidə istər bitkiçilik, istərsə də heyvandarlıq məhsullarının dinamik inkişafı təmin edilir. Rayonun kənd təsərrüfatında aparıcı yerlərdən birini taxılçılıq təşkil edir. Taxıl istehsalçıları 2020-ci ildə 65657 hektar taxıl sahəsin məhsulunu vaxtında yığaraq 199261 ton taxıl istehsalına nail olmuşlar. Bu il taxıl sahələrindən orta məhsuldarlıq 30,4 sentner təşkil etmişdir. Rayonda istehsal olunan taxılın 121243 tonu ərzaqlıq buğdadır.

***2020-ci ilin payızında 2021-ci ilin məhsulu üçün rayon ərazisində 66389 hektar sahədə payızlıq taxıl əkilmişdir ki, onun da 36180,3 hektarını buğda, 29922,7 hektarını arpa və 289 hektarını isə xəsil üçün arpa təşkil etmişdir. Taxıl səpininin optimal müddətdə və tələb olunan aqrotexniki qaydalar çərçivəsində aparılması nəticəsində sahələrdə normal bitiş alınmışdır.***

Taxılçılıqda qarşıda duran başlıca vəzifələr erkən yazdan başlayaraq suvarma, mineral gübrələrin verilməsi, fitosanitar və digər tədbirlərin vaxtında və ardıcıl aparılmasından ibarətdir.

Rayonda yazlıq bitkilərin əkini, yaz-tarla işlərinin uğurla həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Cari ildə rayonda 4615 ha sahədə yazlıq bitkilərin əkini həyata keşirilmişdir ki, onun da 185 hektarını vələmir, 644 hektarını dən üçün qarğıdalı, 392 hektarını paxlalılar, 1108 hektarını tütün, 686 hektarını kartof, 822 hektarını tərəvəz, 156 hektarını bostan, 76 hektarını şəkər çuğunduru 351 hektarını çoxillik otlar, 195 hektarını isə birillik otlar təşkil edir. Vegetasiya dövründə yazlıq əkinlərə ardıcıl aqrotexniki qulluq göstərilmiş və sahələrdə bol məhsul əldə edilmişdir. Hesabat dövründə rayonda 543 ton vələmir, 3837 ton tütün, 10321 ton kartof, 20631 ton tərəvəz, 2676 ton bostan, 27847 ton meyvə, 4270 ton üzüm və sair məhsullar istehsal olunmuşdur.

Rayonda kənd təsərrüfatı işlərinin müasir tələblər səviyyəsində aparılmasına, məhsul istehsalının artırılmasına, istehsalçıların maraqlarının müdafiəsinin yaxşılaşdırılmasına şəhər icra hakimiyyəti tərəfindən nəzarət edilməsi və dəstək göstərilməsi davam etdirilir.

***Şəki rayonu üçün ənənəvi sahələrdən biri olan barama istehsalının inkişafı şəhər icra hakimiyyəti tərəfindən daim diqqət mərkəzində saxlanılır, yem bazasının genişləndirilməsi, kümdarlara diqqət və qayğı göstəriliməsi uğurla davam etdirilir. Rayonun kümdarlarına Qaz Damazlıq və İnqubasiya Stansiyasında inqubasiya edilmiş 1590 qutu barama qurdu paylanılmışdır. Kümdarlar barama qurdunun bəslənilməsi üçün bütün imkanlarını səfərbər edərək 33.2 ton barama istehsal etmişlər.***

Azərbaycan dövlətçiliyinə daim sədaqətlə xidmət edən Şəki Şəhər İcra Hakimiyyəti dövlət başçısı tərəfindən imzalanan Fərman və Sərəncamlardan, təsdiq edilən Dövlət Proqramlarından irəli gələn vəzifələrin icrasına həssaslıqla yanaşır.

2019-2023-cü illərdə regionların sosial-iqtisadi inkişafına dair Dölət Proqramında



qarşıya qoyulan vəzifələrdən biri də yerlərdə tütün qurutma komplekslərinin yaradılmasından ibarətdir.

Dövlət proqramından irəli gələn vəzifələrin icrası olaraq rayonda 2019-cu il ərzində 110 ədəd, 2020-ci ilin birinci rübündə isə 60 ədəd olmaqla cəmi 170 ədəd müxtəlif tutumlu tütün qurutma kameraları quraşdırılıb istifadəyə verilmişdir. Bu kameralar tütün istehsalçılarının bu günkü tələbatını ödəyir.

Tütün qurutma kameralarının quraşdırılması tütün istehsalçılarının ağır əl əməyini azaldacaq, tütün əkinlərinin genişləndirilməsinə və daha çox tütün istehsalına səbəb olacaqdır.

Ölkə başçısı tərəfindən fındıqçılığın inkişafı məqsədilə qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində rayonda məqsədyönlü iş aparılmışdır. Belə ki, son 3 il ərzində 2912 hektar yeni fındıq bağları salınmış və hazırda həmin bağlara ardıcıl aqrotexniki qulluq işləri aparılır.

***Rayonun kənd təsərrüfatında aparıcı yerlərdən birini də heyvandarlıq təşkil edir. Rayonda hazırda 69292 baş iri buynuzlu, o cümlədən 34944 baş ana mal, 302281 baş xırda buynuzlu heyvanlar, 289757 baş quşlar bəslənilir. Müddət ərzində rayonda 11727 ton ət, 60677 ton süd, 28 mlyon ədəd yumurta, 490 ton yun istehsal olunmuşdur.***

Azərbaycan Respublikasında son illərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır.

01 yanvar 2021-ci il tarixə Şəki rayonu üzrə muzdlu işçilərin orta sayı 20567 nəfər olmuşdur, onlardan 761 nəfəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 1276 nəfəri sənayedə, 848 nəfəri tikintidə, 3276 nəfəri ticarət və nəqliyyat vasitələrinin təmirində, 140 nəfəri nəqliyyat və anbar təsərrüfatında, 101 nəfəri turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 294 nəfəri informasiya və rabitədə, 146 nəfəri maliyyə və sığorta fəaliyyətində, 88 nəfəri daşınmaz əmlakla əlaqədar əməliyyatlarda, 312 nəfəri peşə, elm və texniki fəaliyyətdə, 43 nəfəri inzibati və yardımçı xidmətlərin göstərilməsində, 987 nəfəri dövlət idarəetməsi və müdafiə, icbari sosial təminatda, 7938 nəfəri təhsildə, 2398 nəfəri əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 1917 nəfəri istirahət, əyləncə incəsənət sahəsində fəaliyyətdə, 44 nəfəri isə digər sahələrdə xidmətlərin ğöstərilməsində işləyirlər.

***Rayon üzrə bir işçiyə düşən orta aylıq nominal əmək haqqı ümumi 442,5 manat, o cümlədən, sənayedə 444,5 manat, tikintidə 470,6 manat, informasiya və rabitədə 425,6 manat, maliyyə və sığorta fəaliyyətində 1241,4 manat, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 582,1 manat, digər sahələrdə xidmətlərin göstərilməsi üzrə 470,3 manat olmuşdur.***

2020-ci ilin yanvar-dekabr aylarında əhaliyə 81708,9 min manatlıq, əvvəlki ilin müvafiq dövründəkindən 25611,7 min manat və ya müqayisəli qiymətlərlə 24,6 faiz az ödənişli xidmət göstərilmişdir. Göstərilən xidmətlərin 75203,1 min manatı və ya 92 faizi fiziki şəxslərin, 6505,8 min manatı və ya 8 faizi hüquqi şəxslərin payına düşür.

(ardı var)

*Məzahir ƏHMƏDZADƏ*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Təbiidir, səmimidir...



*Vaqif Yusifli,*
*filologiya elmləri doktoru, professor,*

**Tamella Pərvin müasir şeirimizdə - qadın yazarlar sırasında özünəməxsus yazı tərzi, fərdi üslubu ilə seçilən bir şairdir. Mən onun ikinci şeirlər kitabına səmimi bir ön söz yazmışdım, o vaxtdan bu günə kimi mətbuatda şeirlərini izləyirəm. Deyim ki, ondan artıq kamil bir şair kimi söz aça bilərəm.**

Şeir - poeziya hər şeydən əvvəl, təbii hisslərin, duyğuların ifadəsidir. Poetik axtarış da öz yerində, şeiri gözəlləşdirən bədii təsvir vasitələri də öz yerində, bunlarsız yaxşı şeir yaranmaz, amma səmimiyyət olmazsa şairin ürəyinin səsi o şeirdə ürəyə yol tapmaz. Mən Tamella Pərvini son dərəcə təbii və səmimi şair hesab edirəm.

Tamella Pərvin bu günün şairdir - o, həyatda, cəmiyyətdə, mənəvi dünyamızda baş verən hadisə və olayları, həmçinin öz qadın-şairə duyğularını öz şeirlərində əks etdirir.

İlk növbədə onu qeyd etməliyəm ki Tamella Pərvin vətənini sevən bir şairdir, əslən Qarabağlıdır və onun bir çox şeirləri Ali baş komandanımız İlham Əliyevin "Qarabağ Azərbaycandır" haqq səsinə qoşulur.

*"Xoş gördük Qarabağ qaldır gözünü,*
*Şirinlik günüdür, noğulun gəlib,*
*Hazırla Cıdıra "Cıdır düzü"nü,*
*Gözün aydın olsun, oğulun gəlib.*

*At, bu başındakı qatı dumanı,*
*Qışına yaz gəlir, Şuşam, ay Şuşam.*
*Tanrının lütfüdü, sevgi zamanı,*
*Açsana qoynunu, çox darıxmışam.*

*Tarix unutmadı acı dərsləri,*
*Baş vuran başından olub bu yurdda,*
*Qaytardım tarixi həqiqətləri,*
*Sirrim gizlənibmiş demə Bozqurdda.*

*Allah bu zəngulə xanın səsidi,*
*Demə oxuyurmuş bir əsgər bala.*

*Cəngi bu torpağın səlnaməsidir,*
*Cəngi çal cəngiylə çatım Vüsala.*

Bu şeirin adı "Xoş gördük Qarabağ"dır.

Tamella Pərvin də bütün soydaşlarımız kimi Qarabağa, Şuşaya ayaq basacağı günü gözləyir. Ümumiyyətlə Vətən və Qarabağ mövzusu bu otuz ildə Tamella Pərvini həmişə düşündürmüş, həyəcanda saxlamışdır.

***Köksü səngər olan vətən,***
***Qan içirmi ayaqların,***
***Ayrılıqda bu baş bədən***
***Yol gəlirmi uşaqların.***

"Qoymayın ah çəksin torpağı" şeiri isə -Tamella Pərvinin bu 30 ildə çəkdiyi mənəvi əzabların bədii ifadəsidir..

*Qoymayın ah çəksin torpağı,*
*Qar çiçəyinə yozun bayrağın qan rəngini,*
*Yoxsa çiçəklər gözü dolmuş,*
*Qərənfillər yıxılmış,*
*Bayraq xatirə sözünü yaxasından aşmış,*
*Şəhidin başı üstdə,*
*Qəbirə oxşamır şəhid qəbirləri.*
*Rəngi dəyişir torpağın, vəssalam.*

Tamella Pərvinin bir özünəməxsus şair kimi səciyyəsini müəyyənləşdirmək istəsəm üç sözün üzərində dayanmalı olaram. Həqiqət, etiraf və sevgi.

Həqiqət: Tamella Pərvinin həqiqət anlayışı onun həyata, varlığa, dünyaya, vətənə, sevdiyi insanlara saflıq, təbiilik prizmasından müəyyən olunur.

Onun "Həqiqət" adlı şeirinə diqqət yetirək:

***Səni dəfn edirəm sonuncu dəfə,***
***Allahı sevərsen çıx get həqiqət,***
***Mənim əllərimdə gəldin hədəfə,***
***Son dəfə üzümə bax get həqiqət.***

Bu şeir gizlətmirəm ki, kədərli notdadır. Yəni şair yaşadığı mühitdə düzlük, doğruluq saflıq görmədiyindən söz açır və həqiqətə "çıx get" deyir. Pislik rəzalət görən şairin həqiqətə inam hissinin zəifləməsi təbiidir.

Amma Tamella Pərvinin həqiqət anlayışını təkcə həqiqət şeirilə məhdudlaşdırmaq olmaz. Məncə onun həqiqət anlayışında əsl həqiqət başqa bir şeirində ""Həqiqətin gözü"" daha doğru ifadə olunub.

***Dik bax Həqiqətin gözünə canım,***
***Baxmazsan haqqını danar, bilərsən.***
***Uyma tərifinə gidi dünyanın,***
***Bərkdə seləni dəli sanar bilərsən.***

***Bir ağac ömrü də deyil ömrümüz,***
***Niyə özümüzə qənim özümüz,***
***Qalanda beş-on gün son ümidimiz,***
***Özgələr qapını açar bilərsən.***

***Bəxt adlı nəsnəyə inanma yenə,***
***İnan yaxşının da pis əməlinə,***
***Küsünüb gizlənib inləməyin nə?***
***Qəflətdən bir işıq yanar bilərsən.***

Həqiqət insan üçün mənəvi bir meyardır.

Bu meyar pozularsa insanlar arasında neqativ halların baş verməsi gözləniləndir. Tamella Pərvinin "Bura sənlik deyil, çək xərəyini", "Barışa bilmədin" şeirlərində düzlüyə, saflığa tərs-avand olan məsələlərdən söz açılır. Necə ki:

***Təzadlar içində keçir ömür gün,***
***Yaxşılar pis olur, pis yaxşı bəzən.***

Etiraf: Tamella Pərvinin bir insan və şair kimi etirafları da şeirlərində səslənir.

Etiraf etmək insanın mənəvi ucaligidir.

Heyatda hansi səhvlərin, hətta günahların olubsa haçansa bunları etiraf edib daxilən yüngülləşirsən. Ustad şairimiz Bəxtiyar Vahabzadə "Etiraf" poemasında yazırdı ki:

***Etiraf vicdanın nəğməsi, neyi,***
***Hər kəsin özündən öc almasıdır***

Tamella Pərvinin "Çətindir' şeiri Allaha müraciətlə yazılıb. O Allah qarşısında nəyi etiraf edir?

***Ağrılar canında tüğyan edirsə,***
***Yolların bezikib çıxıb gedirsə,***
***Səni taniyanlar səni güdürsə,***
***Çətindir, çətindir, çətindir, Allah.***

Onun öz həyatından, şəxsi istək və arzularından söz açan şeirlərinin əksiriyyəti etiraf şeiriləridir. Məsələn, "Qəm gülşəni" şeirində Tammila Pərvin sanki öz özünə hesabat verir, etiraflarda bulunur:

***Nə susub durmusan əlində qələm,***
***Payıza köklənmiş yay səhərində,***
***Bu səhər çöpün də dərdin bilirəm,***
***Çınqıyıb durmuşam qəm çəpərində.***

Sevgi: Tamella Pərvin həm də sevgi şairidir. Dahi Məhəmməd Füzulinin bu misralarını xatırlayıram.

***Candan çıxarıb həvayi-eşqi,***
***Tərk eyləməzəm bəlayi-eşqi.***

İnsan nə qədər ömür sürürsə içində sevginin eşqini yaşadır. Əgər bir insan ömründə sevməyibsə o, yaşamayıb, həyatın menasına varmayıb. Kordur o insan! Tamella Pərvinin sevgi şeirlərində yaşanılan, duyulan hisslər önəmlidir. Onun ən yaxşı şeirlərindən biri də "Bu sevgi"dir. Bu sevgi müqəddəs və ali hiss olan, Leyliləri, Məcnunları yada salan, sevginin böyüklüyünü, mənəvi qüdrətini əks etdirən bir şeirdir.

***İstəyirsən yağış gönderim sənə,***
***O dolmuş buludam yağım gözündən,***
***Həsrətim üstümə yürüsün yenə.***
***Özümə birazca baxım gözündən.***

***Buludlar rəqs edər göy çətirlənər,***
***Yeddi rəng dolanıb gizləyər bizi.***
***Çiçeklər bitirər yer ətirlənər,***
***Bu sevgi bir ömür izləyər bizi.***

Tamella Pərvinin səsinin ahəngi "Həyatın himni" şeiri isə ana sevgisinə həsr olunub.

Bu onun ən gözəl və poetik cəhətdən də sanballı olan şeirlərindən biridir.

Sən mənə lazımsan nəfəsim kimi, - nə gözəl misradır.

**Tamella Pərvinin bu kitabındakı şeirlərindən çox danışa bilərəm. Gözəl təbiət şeirləri var. Və hiss olunur ki, o təbiəti sevir, təkcə sevmir, həm də təbiət onun içindədir; Küləyi yağışı, buludu, çiçəyi, yazı, qışı, gülü, çiçəyi ilə. Mən Tamella Pərvinə yaradıcılığında uğurlar arzulayıram. O, Azad Qarabağımızın xoşbəxt şairidir. Bundan sonra poetik axtarışlarını uğurla davam etdirəcək, buna inanıram.**

**18 dekabr 2020**

## *Bakının mərkəzi küçələrində parklanma qadağan edildi*

*Azərbaycan Qran Prisinin təşkilatçısı Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) paytaxtın yarış trekinə düşən mərkəzi küçələrində bu gecədən tikinti-quraşdırma işlərinə başlayacaq.*

*BŞH-dən verilən məlumata görə, Puşkin və Xaqani küçələrinin kəsişməsi arasındakı ərazidən Bülbül prospekti istiqamətində olan yolun üzərində beton bloklar formasında təhlükəsizlik baryerlər quraşdırılacaq.*

*Tikinti-quraşdırma işlərinin aparılması saat 22:00-dan səhər saat 06:00-dək planlaşdırılıb.*

*Bütün bunları nəzərə alaraq, sürücülərdən xahiş olunur ki, avtomobillərini həmin saatlarda Xəqani küçəsində park etməkdən çəkinsinlər. Əks halda, qeyd olunan ərazidə park edilmiş avtomobillər başqa yerə çəkiləcək.*

*Həmçinin, yolun qeyd olunan hissələrindəki təmir-tikinti işlərini nəzərə alaraq, gecə vaxtı yarana biləcək yol qəzalarının və digər xoşagəlməz halların qarşısının alınması məqsədilə sürücülərdən avtomobili idarə edərkən daha diqqətli olmaları və sürət həddini aşmamaları xahiş olunur.*

*Ümumilikdə yarış trekinin tikinti-quraşdırma işləri 2021-ci ilin iyununadək davam edəcək.*

*"Formula 1" trekinin Puşkin və Xaqani küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində olan əraziyədək bölümündə tikinti işlərinin aprelin 15-dək yekunlaşacağı gözlənilir.*

*Göstərilən iş qrafikində hava şəraitindən asılı olaraq dəyişikliklər ola bilər.*

*Bakı Şəhər Halqası ƏŞ müvəqqəti narahatlığa görə sakinlərdən üzr istəyir.*

*Qeyd edək ki, Azərbaycan Qran-prisi 4 - 6 iyunda keçiriləcək.*

## Yer kürəsində daha bir okean yarana bilər



**Gələcəkdə Yer kürəsində yeni - beşinci okeanın yarana biləcəyini proqnozlaşdırırlar. "NBC News" xəbər verir ki, tədqiqatçıların fikrincə, təxminən 5-10 milyon il sonra Afrikanın şərqində tektonik sınma baş verəcək və qitə yarıya bölünəcək.**

Qitənin Efiopiyanın Afar regionundakı bu hissəsi üç tektonik layın birləşdiyi nöqtədə yerləşir və həmin laylar tədricən bir-birindən aralanır. 2005-ci ildə regionda uzunluğu 56 kilometrə çatan iri çat yaranıb.

Alimlər hesab edirlər ki, son nəticədə həmin çat Afrikanı iki yerə böləcək və yeni okean üçün hövzə peyda olacaq.

"Bu, Yer kürəsində yeganə yerdir ki, kontinental riftin okeanik riftə çevrilməsini əyani şəkildə öyrənmək mümkündür", - Böyük Britaniyadakı Lids Universitetinin professoru Kristofer Mur deyib.

## Görün camaat butulkadan nələr düzəldir?!



**İngilis Richart Sowa plastik butulkalar üzərinə qurduğu, çöldən gerçək kimi görünən kiçik süni adasında sadə və xoşbəxt həyat sürür. Karib adasında yaşayan ingilis bir dülgər olan Richart Sowa 50 yaşlarında ətraf mühit və sadə həyat könüllüsüdür. Həm plastik butulka çirkliliyinə diqqəti çəkmək, həm də bir az başı işlədərək sadə, dinc və özünə çata bilən bir həyat qurmanın bir çox yolu olduğunu göstərmək üçün qeyri-adi bir yol seçib.**

Ətrafa atılmış plastik butulkaları toplamağa başlayıb, üç il ərzində 100 min şüşəyə çatdırmış, bunları böyük tora doldurub. Daha sonra bambu düzərək zəmin yaradıb. Bu zəminin üzərinə isə qum və torpaq atmış, suyun üzərində əvvəl bir platforma kimi dayanan plastik şüşələrdən ibarət olan bu quruluşa spiral bir şəkil verib. Torpaqla doldurduğu yerlərə palma, limon, kakos hətta badam ağacı belə əkib.

Başlanğıcda plastik şüşə yığını olan bu quruluşu üzən bir obyektə çevirmiş, adasına iki kiçik hovuz və günəş enerjisiylə işləyən bir şəlalə əlavə etməyi unutmayıb. Daha sonra plastik şüşələrdən hazırladığı bu adanın üzərinə taxta və bambudan bir Robinson daxması inşa etmiş, üzən adasına yerləşdirdiyi günəş enerjisi panelləriylə enerji problemini da həll edib. İki pişiyi və bir itini də yanına alaraq burada yaşamağa başlamış. Bunlara iki toyuq və bir ördək də artırıb. Adasına isə "New Spiral Island" adını verməyi uyğun görüb.. Sowa 20 kvadrat metrlik bu kiçicik sahədə, pomidor və ispanaq əkə biləcəyi yeri də hazırlayıb.

**Eminquey**

# "Həyatda oynamağı sevmirəm"

***"Hədəflər, təbii ki, var. Çünki hədəf olmasa, onluğa vurmaq olmaz. Bu mənada hədəflərin olmalıdır. Fikrimcə, aktyor sənətində elə bir zirvə yoxdur ki, mən artıq bura çatdım, bəsdir, deyim. Daim axtarışda olmalı, daim çalışmalısan. Aktyor işinin haqqını verməlidir. Demirəm, işimin haqqını verirəm, bunu tamaşaçılar yaxşı bilər, amma ən azından onun üçün çalışıram". "Ədalət" qəzetinin qonağı gənc aktyor Kamil Nazimdir.***

**-Heç qaranlığın içində olmaq istəmisiniz?**

-Belə bir fikir var: "Kim deyib ki, gecələr yatmaq üçündür?" Düzdür, gecələri sevirəm, amma qaranlığın içində olmağı heç vaxt sevməmişəm. Qaranlıq tənhalıqdır, tənha qalmaq isə məndən uzaq olan bir şeydir. Tənha qaldığım anlar da olur, bu isə ən vacib qərarları qəbul etdiyim vaxtlarda baş verir.



**-Missiyanız nədən ibarətdir?**

-Həyat missiyam odur ki, hansısa bir işi yüksək səviyyədə yerinə yetirim. Az ilə kifayətlənməyi sevən insan deyiləm. Üzərimdə çalışıram, daim yeni nələrsə öyrənir, yeni-yeni və fərqli işlərə can atıram. Təkrarları sevmirəm, ona görə də sənətimdə təkrarlardan qaçıram. Fərqli bir şeylərlə tamaşaçı qarşısına çıxmağı sevirəm.

### *"Zərbələrim də olub"*

**-İnsanlarda bəyənmədiyiniz xüsusiyyət hansıdır?**

-Bəyənmədiyim çox xüsusiyyətlər var. Ən sevmədiyim isə ikiüzlülük, riyakarlıqdır.

Əgər sən bir insanı sevmirsənsə, məcbur deyil ki, özünü yalandan onu sevirsənmiş kimi göstərəsən. Bunu yalandan etmək nəyə lazımdır axı? Sənin kimdənsə xoşun gəlmirsə, ondan uzaqlaş da. Niyə üzünə gülüb arxasınca iş görürsən?

**-Çox zərbələr almısınız?**

-Olub. İnsanlar tanımışam ki, bir az öncə dediyim kimi üzümə gülüb arxamca iş görüblər. Belə məqamlarda onlarla qarşı-qarşıya gəlib danışmağa üstünlük vermişəm. Düzdür, bu məndə heç bir şeyi dəyişməyib, amma qarşı tərəf ən azından öz səhvini başa düşüb.

**-Gizli kartlarla oynamağı sevirsiniz?**

-Qətiyyən. Özüm oynamıram, mənə qarşı da oynanılmağını sevmirəm. Arxadan iş görməyi xoşlamıram, əgər bir insana sözüm varsa, birbaşa özünə deyirəm. Açıq dueli hər şeydən üstün sayıram. Buna görə də hər zaman hər kəslə açıq dueldə oluram.

**-Ağrılarınızı gizlədirsiniz?**

-İlk olaraq deyim ki, insana görə dəyişir. Elə insanlar var ki, əleyhimə iş görürlər, mənə zərrə qədər də olsun, təsir eləmir. Amma elə insanlar da var ki, bəli, mənə təsir edir. Çalışıram, ağrılarımı gizlədim.

### *"İnsan yaxşılığı unutmamalıdır"*

**-Pislər olmasa, yaxşıların dəyəri bilinməz. Razısınız?**

-Razıyam bu fikirlə. Həqiqətən, belədir. Elə insan var ki, ona yetəri qədər yaxşılıq edirsən, amma bunu qiymətləndirə bilmir ki, bilmir. Mən onun tərəfdarı deyiləm ki, mən sənə bu yaxşılığı etmişəm, sən də əvəzində mənə başqa yaxşılıq elə. Xeyr, bunun tərəfdarı deyiləm. Mənim üçün insan yaxşılıq və pisliyi unutmamalıdır.

**-Ən vacib hədəfləriniz arasında nə dayanır?**

-Hədəflər, təbii ki, var. Çünki hədəf olmasa, onluğa vurmaq olmaz. Bu mənada hədəflərin olmalıdır. Fikrimcə, aktyor sənətində elə bir zirvə yoxdur ki, mən artıq bura çatdım, bəsdir, deyim. Daim axtarışda olmalı, daim çalışmalısan. Aktyor işinin haqqını verməlidir. Demirəm, işimin haqqını verirəm, bunu tamaşaçılar yaxşı bilər, amma ən azından onun üçün çalışıram.

**-Həyat bir səhnədir, biz də onun aktyorları. Səhnədə rol alan Kamil bəy həyatda oynaya bilir?**

-Həyatda oynamağı sevmirəm. Səhnə ilə həyatı qarışdıra bilmərəm. Əgər mən səhnədəyəmsə, o obrazam. Səhnə bitən kimi isə mən artıq Kaміləm. Mən necəyəmsə, eləyəm. Nəyə görə oynayım? İnsanın həyatda oynamağını qəbul edə bilmirəm.

**-Dramatik obrazları canlandıran Kamil komedik rolu da ifa edə bilər nə zamansa?**

-Sizə deyim ki, mən teatrda da, universitetdə təhsil aldığım dövrdə də komedik obrazları canlandırmışam. Nümunə üçün deyim ki, Gəncə Dövlət Dram Teatrında çalışanda "Dan yeri sökülərdə" tamaşasında Xıdır obrazını canlandırmışam. O qədər komedik obrazdır ki, baxan bilir. Yəni oynaya bilərəm. Sizə deyim ki, diplom işim Nicat Kazımovun quruluşunda olan "Beremen musiqiçiləri" adlı komik tamaşa olub. Orada Əlahəzrət kral obrazını canlandırmışam. Hazırda kinoda və ya serialda komedik rol oynamaq istəmirəm, amma gələcəkdə istəyərəm.

**-Ruhunuza hansı daha yaxındır?**

-Zamanla məndə dəyişiklik oldu. Əvvəllər komediya oynamağı daha çox sevirdim. Hətta teatrda işləyəndə komedik obrazlara can atırdım. Müəyyən bir dönəmdən sonra ilk dəfə "Bəyaz ölüm" tamaşasında dramatik rolu canlandırdım. Baxanlar bəyəndi. Haqqımda sənətkarların fikri çox müsbət oldu. Beləcə, həm dramatik, həm də komedik rolları oynadım. Ruhuma hər ikisi də yaxındır.

### *"Hər kəs xoşbəxt olmağa layiqdir"*

**-Həyat sizin üçün nədir?**

-Həyat gözəllikdir. Məncə, hər kəs xoşbəxt olmağa layiqdir, xoşbəxt olmalıdır. Bunun üçün insan öz yolunu sadəcə düzgün seçməlidir. İnsan işini sevməli, ailəsinə, ətrafındakı insanlara qayğı ilə yanaşmalı, kin küdurəti özünə yaxın buraxmamalıdır.

**-Təcrübəniz sizə nəyi öyrədib?**

-Həyatımla bağlı deyim ilk olaraq. Həyatımda ən böyük təcrübə atamdan, ümumən ailəmdən öyrəndiklərim, qazandıqlarımdır. Mənim üçün ən böyük uğur Nazim bəyin oğlu olmaqdır. Sənətdə təcrübələrdən danışdıqda isə ən böyüyü Gəncə Dövlət Dram Teatrında çalışmağım olub. O illər ərzində 14 tamaşada rol almışam. 22 yaşım olanda Elşad Əhmədovun quruluş verdiyi "Şəhrizadın oyunu" adlı tamaşada Şah Şəhriyar obrazını canlandırmışam. Oynadığım rolların hər biri mənim üçün nailiyyət olub. Daha sonra Mədəniyyət və İncəsənət Universitetinə daxil olub dəyərli müəllimlərdən dərs almışam. Bunlardan böyük təcrübə ola bilər?

**-Daxili dünyanız...**

-Daxili dünyam çox güclüdür. Heç vaxt asan bir işə qaçmamışam, həmişə çətin işin qulpundan tutmuşam. Mənim düşüncəmə görə, çətinliklə əldə olunan uğurlar daha keyfiyyətli və daha yaddaqalan, daha möhtəşəm olur.

**-Nə zaman anladınız ki, mən artıq mənəm?**

-Elə bir xarakterə malikəm ki, nə zamansa "mən" söyləyəcəyimi ağlıma belə gətirmirəm. Fikrimcə, nə Əməkdar artist, nə də Xalq artisti adlarını alsam da, yenə "mənəm" deмərəm. "Mənəm" demək düzgün deyil. Bu ifadəni heç sevmirəm.

**-Zahirən sərt görünürsünüz. Belə sərt olan insan necə sevir?**

-Bu cümləni çox eşitmişəm ki, heç də göründüyün kimi deyilsən. Yəni məni tanıdıqdan sonra insanlar fikirlərini bölüşüblər. Bəlkə də, düşünürəm, mənfi rolları canlandırmışam, ona görə insanlar məni başqa cür tanıyıblar, tanıdıqdan sonra yanıldıqlarının fərqində olublar. Bir dəfə metroda bir xanım salam verib mənə dedi ki, qızı niyə bıçaqladın? Özlüyümdə düşündüm ki, yəqin, səhv salıb. Sonra dedi ki, niyə serialda qızı bıçaqladın? Mülayimcəsinə dedim, bu senaridir. Sərt baxışla məni sezib söylədi ki, sən mülayim insansan, bir də mənfi rol oynama. Yəni obrazımla daxili dünyam fərqli ola bilər. Mən daxilən başqa bir insanam.

### *"Allaha olan sevgi əbədidir"*

**-Sizi sevən çoxdur, ya sevməyən?**

-Bu barədə nəsə deməyim düzgün çıxmaz. Müşahidələrim nəticəsində belə qənaətə gələ bilərəm ki, sevənlərim də var, sevməyənlərim də. Hətta sevirmiş kimi özünü göstərənlər də var. Sevdiyini dilə gətirməyənlər də var. Mənə elə gəlir ki, sevənlərim çoxdur, çünki mən insanlara pislik etmirəm.

**-Sevgi əbədidir?**

-Əgər, həqiqətən də, mövcuddursa, bəli, əbədi ola bilər. Bəzən kimsə kimisə sevir, amma sonradan görür ki, bu sadəcə bağlılıq imiş. Belə olan halda sevginin əbədi olmağından danışmaq olmaz. Mənə görə, Allaha olan sevgi və valideyn sevgisi əbədidir. Bunları heç nə ilə əvəz etmək olmaz.

**-Bu günə kimi eşitdiyiniz ən müdrik fikir hansı olub?**

-"Danışmaq gümüşdürsə, susmaq qızıldır". Bu fikri çox sevirəm. Bu deyim dəfələrlə mənim köməyimə çatıb. Bəzən elə anlar olub ki, susmağa üstünlük vermişəm. Sonradan fikirləşəndə isə özlüyümdə söyləmişəm ki, yaxşı ki, susmuşam, çünki danışsaydım, çox şeylər baş verə bilərdi.

**-Çox sağolun ki, dəvətimi qəbul edib gəldiniz.**

-Siz sağolun.

**Rövşən Tahir**

# "Fakt budur ki, kino sənəti bu gün yoxdur"

### *Kinorejissor problemləri dilə gətirdi*



**Kinorejissor Elşən Məmmədov Adalet.az-a Azərbaycan kinosunun hazırkı durumundan, problemlərindən danışıb.**

"Azərbaycan kinosu özünün ən çətin günlərini yaşayır. Bu, illərdir belədir. Problemlər çoxdur. Ən başlıcası maddi problemdir. Dövlət kinonun yaşaması üçün öz dəstəyini göstərməlidir. Bəzi insanlar deyirlər ki, bazar iqtisadiyyatıdır. Amma indiki durumda bunu kinoya şamil etmək olmaz. Çünki produsser mərkəzləri film çəkmək iqtidarında deyillər. Söhbət peşəkar kinodan gedir. Kommersiya filmləri çəkilir, amma o filmləri məzmun etibari ilə nə vaxtsa kino salnaməsinin inciləri siyahısına salmaq özü gülüncdür. Kino sənətinin bünövrəsində güclü milli drammaturgiya dayanmalıdır. Belə filmlər Sover dövründə də çəkilib. Bu gün də o filmlər sevilə-sevilə izlənilir. Çox təəssüf ki, bu gün o ənənədən uzaqlaşırıq.

Qəribə səslənsə də, bu gün kinoya başqa düşüncə tərzi gətirilir. Ona görə də belə filmləri anlamaq olmur. Düşünürəm ki, filmlərimizdə millilik olmalıdır. Kinomuz uzun illər ləyaqətli tarix yolu keçib. Bu yolun 30 ilinin şahidi olmuşam. Amma bu gün kino sənətinin üzərində dəlləklik edib, yeni model düzəltmək istəyirlər.

O gün müsahibələrin birində dedilər ki, biz artıq Türk və Apropa təcrübəsindən istifadə etməliyik. Nədir o təcrübə?! Bunu izah edən yoxdur. Ölkədə kinoteatrlar yoxdur. Tək Bakıda 4-5 kinoteatr olması azdır. Tamaşaçıları bayağı ssenari əsasında kinoteatrlara dəvət etmək olar, amma çalışmalıyıq ki, ciddi, düşündürücü filmlərin nümayişinə də tamaşaçı gəlib baxsın. Bu, çox çətin prosesdir. Sovet dönəmində kinoteatrlar 4-5 seans təşkil edirdilər. Tamaşaçı da gəlib filminə baxırdı. Kino prokat düzgün sxemlə qurulmalıdır. Açığı, bunların nə vaxtsa reallaşacağına hələ inanmıram. Kino müstəqil olmalıdır. Mədəniyyət Nazirliyinin tərkibində olmamalıdır. Kinoya ayrılan vəsaitə nəzarət olmalıdır. Kino geniş bir sahədir. Filmi 3-4 aya çəkib bitirmək olmaz. Hansı ki, belə film çəkilişləri olub. Özü də, Mədəniyyət Nazirliyinin sifarişi ilə .Üç aya çəkilən filmin keyfiyyəti nə olacaq? Biz kinorejissorlar, operatorlar rəssamlar aylıq məvacib almırıq. Film olanda işləyib, qonarar almaqla yaşamağa məcburuq. Əgər film yoxdursa, necə yaşayaq? Bu, heç kimi maraqlandırmır. Sanki kinoya qarşı antisimpatiya var.

Bildiyimə görə, yeni kino agentlik yaradırlar. Amma bilmirəm özünü doğruldacaq ya yox. Fakt budur ki, kino sənəti bu gün yoxdur. Açığı, olanacağına da artıq ümidim qalmayıb. Qabaq çəkilən filmlərin hərəsi bir məktəbdir. Milli kino məktəbi... Əgər o məktəbi qorumasaq, yenisindən heç bir fayda olmayacaq!

**Eminquey**

# Ətirlər bizim xarakterimizdən xəbər verir

***Paltar insanın xarici görünüşünü, ətir isə onun daxili dünyasını əks etdirir. Belə ki, seçdiyimiz ətirlər bizim xarakterimizdən xəbər verir. Ətriyyatçı Əli Qubadzadə deyir ki, ətirlər insan haqqında məlumatları əks etdirir. Onun sözlərinə görə, ətirlər yüngül qoxulu, sitrus tərkibli, bitki tərkibli, gül-çiçək tərkibli olmaqla 4 qrupa bölünür. Yüngül qoxulu ətirləri seçən insanlar daha çox təmtəraqlı tədbirləri sevirlər:***

***"Yüngül qoxu bəyənən insanlar adətən planlaşdırılmış bir işin eyni anda bir ssenaristi, həm rejissoru, həm də baş qəhrəmanı ola bilərlər. Bu cür ətirləri sevən adamlar maddi dəyərlərə üstünlük vermir, dostluq və insani münasibətlər onlar üçün daha böyük əhəmiyyət kəsb edir". Yüngül qoxulu ətirləri sevən insanlardan fərqli olaraq sitrus tərkibli ətirləri seçənlər isə özlərinə qarşı tələbkardırlar. Buna görə də onlar daha çox diqqət görmək istəyir, bütün səyləri özlərinə yönəldirlər. Şəxsi ambisiyaları öndə olduğu üçün bu cür insanlar hər kəsdən öncə özlərini düşünürlər.***




***Onların əksinə olaraq bitki tərkibli ətirlərə üstünlük verənlər isə ailə üzvlərinə daha çox zaman ayırırlar. Əli Qubadzadə: "Bu cür tərkibli ətirləri sevən insanlar sağlamlığına və qidalanmasına ciddi nəzarət edən insanlardır. Təbii tərkibli məhsullardan istifadə edirlər. Ailə ilə birlikdə vaxt keçirtməyə daha çox üstünlük verirlər".***

***Sitrus tərkibli ətirləri bəyənənlər kimi gül-çiçək tərkibli ətirləri xoşlayanlar da ailəyə daha çox bağlı olan insanlardır. Onlar qarşılıqlı münasibətləri qorumağa çalışır, həmsöhbətini dinləyir, başa düşür və öz məsləhətlərini verməyə hər zaman hazırdırlar.***

***Əli Qubadzadə: "Bu qoxuları sevən kəslər ev rahatlığını, səsli-küylü ailə bayramlarını, qonaqlı-qaralı axşam yeməklərini, ən əsası, uşaqları ilə əylənməyi çox sevirlər".***

***Jan-Pol Qerlen deyirdi ki, əgər kişi qadına ilk baxışdan aşiq olursa, deməli, onun ətir seçimi uğurlu olub. Zövqünüzə uyğun şəkildə uğurlu seçim edin.***

***Rövşən Tahir***

Mərhum Nadirova Meyxanım Mövlud qızının adına məxsus Quba rayon, Birinci Nügədi kəndində yerləşən 0,23 ha torpaq sahəsinə verilmiş JN-363,Kod 30319018 nömrəli Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

# Ölməyə yer tapa bilməyən ŞAH

**(əvvəli ötən sayımızda)**

**Təşkilat şah devrilənə qədər monarxiyanının, tək partiyalı rejimin, təzyiqin və işgəncənin mühafizəçisi rolunu oynayacaqdı. Əvvəl kommunistləri aradan götürmək üçün verilən işgəncələr sonradan şaha `gözün üstdə qaşın var` deyən hər kəsi hədəfə alacaqdı. Təşkilatın hamisinin Amerika olunduğu bilinməsi inqilab öncəsi iran xalqının bir yumruq kimi birləşməsinə səbəb olacaqdı.**

Şahın 15 min agentindən əlavə minlərlə casusu da var idi. Belə ki, təkcə ölkədəkilər izlənmir, Amerikada təhsil alan 30 min iranlı da Amerika kəşfiyyatının köməkliyi ilə izlənilirdi. Amerikan rəhbərlərin gözündə İran yaxın şərqdəki ən böyük jandarması idi və nə bahasına olursa olsun əldə saxlanılmalıydı. Amerika, komandirlərinin telefon danışığını dinləməsi üçün şaha ən müasir texnologiyanı vermişdi. Ölkənin hər yerində SAVAKın işgəncə evləri var idi. Elektrik vermə, qırmanclama və dırnaq çəkmək təşkilatın qeydə düşən sorğu-sual taktikalarından bəziləri idi.

***İranlıların üzərində bu qədər nəzarət və terror dalğasına baxmayaraq zalım bu zülümlə qala bilmədi. Islamçıların rəhbərliyi ilə xalq etirazlarıyla Şah 1979-cu ildə devrildi. Bu xaotik keçid dövründə bitərəf qalan və öz xalqına silah işlətməyən ordu önəmli rol oynamışdı. Öncə Türkiyəyə ardından isə İraqa, oradan da Fransaya sürgünə gedən İmam Xomeyni inqilabın lideri olaraq vətənə qayıtdı və İslam respublikası qurdu. Imam Xomeyninin gördüyü ilk işlərdən biri SAVAKı bağlamaq və rəhbərlərini edam etdirmək olmuşdu. Şah isə...***

### *Ölməyə belə yer tapa bilmədi...*

Rejimin yıxılmasından öncə ölkəni tərk edən şah ölkə-ölkə gəzdi. Artıq gözdən düşmüşdü. Xüsusilə siyasi yüksəlişində rol oynayan Amerika onu tərk edənlərin önündə gəlirdi. Şah öncə Misirə, ardından isə Mərakeşə, Baham adalarına və Meksikaya getdi. Ağır xəstəliyi var idi. Getdiyi heç bir ölkədə İrandakı rejim izini buraxmır, ev sahibi ölkəni şahı təslim etməyə məcbur edirdi. Şahın isə təcili müalicə olunması lazım idi. Dəfələrlə görüşdüyü ABŞ prezidenti Cimmi Karter istəksiz olsa da 1979-cu ilin 22 oktyabrında şahın Amerikaya gəlməsinə izn verdi. Məşhur milyarder Devid Rokfellerin israrı bu qərarın verilməsində önəmli rol oynamışdı. Şahın Nyu-Yorkda müalicə olunması İranı qəzəbləndirmişdi. Amerikanın Musaddıqın devrilməsindən şahın Nyu-Yorkdakı müalicəsinə kimi keçən vaxtda əlini İranın əlindən çəkməməsi, iki ölkə arasında bu gün belə davam edən gərginliyin mənbəsi oldu.

***Şah müalicəsindən sonra Karterin də təzyiqiylə Amerikanı tərk etmək məcburiyyətində qaldı və bir müddət Panamada yaşadı. Lakin panamalıların onu İrana təslim edə biləcəyindən ehtiyat edən Pəhləvi bir daha və sonuncu dəfə Misirə getdi. 1980-ci ildə bu ölkədə öləndə geridə 60 il davam edən fırtınalı həyat qoymuşdu.***

### *İngilis və Amerikan kəşfiyyatı: "Şah devrilə bilməz"*

Amerikan və ingilis məxfi servisləri son ana qədər İranda islam inqilabının yaxında olduğunu analiz edə bilməmişdilər. Ingiltərənin Tehrandakı səfiri Parsons inqilabdan bir neçə ay öncə `dini liderlər qərb mədəniyyətinin adaptasiyası sonrasında ənənəvi islam və iran dəyərlərinin yox edildiyinə dair gurultulu çıxışlar edirdi. Bu vəziyyətin şah rejiminə hər hansı təhlükə yaratdığına inanmıram` yazırdı. Ingiltərənin ABŞ səfiri isə `Vaşinqton da eyni fikirdədir` deyə bunu təsdiqləyirdi. Islam inqilabından bir ay öncə prezident Cimmi Karter ingilislərə şahın hakimiyyətdə qalacağına inandığını söyləmişdi.

### *Evlilikləri Türkiyənin gündəmindən düşməzdi*



***Şah 3 dəfə evlənmişdi. Ilk arvadı Misir kralı ı Fuad və onun ikinci arvadı Nazli Sabrinin qızı olan şahzadə Fevziyə idi. Fevziyə eyni zamanda kral I Farukun da bacısı idi. Şah və Fevziyə 1939-cu ildə evlənmiş və taxta varis verə bilməməsinə görə boşanmışdı. Şahın ikinci arvadı isə İranın Almaniyadakı səfiri Halil İsfandiyar ilə alman arvadı Eva Karlın tək qızı Süreyya İsfəndiyar idi.***

Süreyyanın uşağı olmayacağı bilindikdən sonra boşandılar. Süreyya şahdan sonra Avropada kino ulduzu olaraq həyatına davam etdi. Şahın üçüncü arvadı isə Farah Diba oldu. Şahın arvadlarından yalnız Farah Şahbanu adını aldı.

Cütlüyün dörd uşağı oldu. Xüsusilə, şahzadə Süreyya və Şahbanu Farah Diba dəbdəbəli həyat günlərində türk mətbuatının bir nömrəli maqazin xəbərləri arasında idi. Xüsusilə o dövrün qadınları şahın heç cür doğa bilməyən arvadlarının həyatını yaxından izləyirdi.

### *Farah Diba: "Bəli, yoldaşım çox ciddi səhvlər etdi"*

Ərinin 19-cu ölüm ildönümü səbəbinə görə Qahirədəki məzarını ziyarət edən Farah Diba tarixi etiraflar etmiş və şahın hakimiyyəti dövründə çox ciddi səhvlər etdiyini bildirmişdi. Iranda günümüzdə yaşanmaq da olan tələbə aksiyalarını 1979-cu ildə ərinin devrilməsinə səbəb olan hadisələrə oxşadığını bildirən Diba ilk dəfə cəmiyyət önündə 38 il hakimiyyətdə olan ərinin xətalarından bəhs etmişdi. Şahın ölkədə daha çox azadlıqlar verəcəyi təqdirdə monarxiyanı xilas edə biləcəyini qeyd edən Diba ərinin ən önəmli iki səhvinin ölkəni modernləşriməyə çalışarkən siyasi mənzərəni unutması və insan haqlarını göz ardına vurması olduğunu demişdi.

### *Bioqrafiyasında SAVAKı günahlandırmışdı*

Məhəmməd Rza əli qələm tutan nadir diktatorlardandır.

Xatirələrini qeyd etdiyi`Tarixə cavab` adlı bir avtobioqrafiya yazmışdı. Ölümündən sonra yayımlanan bu əsərdə şah yaşadıqlarını dilə gətirmiş SAVAKa qarşı ididalarını səsləndirmiş və Ağ inqilabı tam yerinə yetirə bilmədiklərinə görə inandığı hökümətləri ittiham etmişdi.

### *İngilislərdə "ya şah gələrsə" qorxusu*

**Hakimiyyətə öz əlləriylə oturtduqları şah devrildikdən sonra amerikalılar və ingilislər üçün böyük qorxu mənbəyi olmuşdu. Şahın ölmədən öncə Nyu-Yorkdakı qısa müddətli müalicəsi İrandakı Amerikan səfirliyinin tutulması ilə nəticələnmiş və məşhur əsir böhranı yaşanmışdı. Eyni şeyin ingilis səfirliyində də yaşanmasından ehtiyat edən İngiltərə baş naziri Marqaret Tetçer bir xarici işlər diplomatını İngiltərəyə gəlməməsiyçün xəbərdarlıq etmək üçün Panamaya şahla görüşə göndərmişdi.**

**Tərcümə: Emin Piri**

Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 78**
Çapa imzalanmışdır: 31.03.2021